www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 19 mart 2018-ci il Bazar ertəsi № 62 (6951) Qiymәti 60 qəpik

**Xəbər**

## Azərbaycanda insan alveri ilə məşğul olan qadın axtarışa verildi

yazısı səh.14-də

**Gündəm**

### Rus biznesinə öldürücü zərbə - Rusiya təklənir



Qərb dünyası Putinə qarşı birləşdi - sensasion gəlişmə, özəl bilgilər; Britaniyadakı zəhərlənmə olayı böyüyür...

yazısı səh.9-da

### Təşviqat kampaniyası başladı: bu gün İTV-də ilk canlı debatdır

yazısı səh.3-də

### Sülh qapısını açıq saxlayan Bakı, müharibəni yaxınlaşdıran İrəvan

yazısı səh.11-də

### Türkiyənin Afrin zəfəri - şəhər tam nəzarətə götürüldü

yazısı səh.12-də

### Rusiyada prezident seçkisi keçirildi - Putinlə yola davam

yazısı səh.4-də

*Satirik şair:*

### "Sabirin dövründə heç indiki qədər tənqid hədəfləri yox idi"

yazısı səh.13-də

### Rza Zərrab işi uzanır: Amerika təzyiq rıcaqını işə salır?

yazısı səh.12-də

### Rusiya tələyə salınır - Azərbaycan çətin seçimdə...

yazısı səh.5-də

### Novruz günlərində necə qidalanmalı - dietoloq danışır

yazısı səh.14-də

### Azərbaycanlıların ən sevimli içkisi barədə bilmədiklərimiz

yazısı səh.15-də

# AĞAYA QARŞI DE-MARŞ, AĞ EVƏ REVERANS - İRƏVAN ODLA OYNAYIR

Kreml separatçı Bako Saakyanın Amerika səfərindən məmnun deyil; **türkiyəli analitik:** "Rusiyanın reaksiyası özünü çox gözlətməyəcək"; **Saakyanın Amerikada peyda olmasının daha bir ilginc motivi:** "Ermənilər müharibədən qorxur, ABŞ-dan himayə umurlar..."



yazısı səh.8-də

## Şeyxin Çexiyadakı mülkləri və şirkətləri haqda yeni məlumatlar

QMİ sədrini Hollivud ulduzları, hind maharacaları ilə bağlayan malikanəsi üzə çıxdı...

yazısı səh.10-da



*Sabir Rüstəmxanlı:*

### "Rasi-zadədən sonrakı nazirlər dilimizdə normal danışmalıdır"

yazısı səh.2-də



*Mehman Əliyev:*

### "ABŞ-ın yeni səfiri tezliklə gəlməyəcək"

yazısı səh.7-də



*Fəzail Ağamalı:*

### "Seçkidən sonra o məmurlar hakimiyyətdən gedəcəklər"

yazısı səh.6-da

# Azərbaycan tələb etdi, Türkiyə bu filmin yayımını qadağan etdi

**"Filmmor" Qadın Film Festivalının İstanbuldakı son günündə "Yeva" adlı filmin nümayişi qadağan olunub. Qaynarinfo xəbər verir ki, "Filmmor"un nümayəndəsi Mələk Özman filmin nümayişinə Azərbaycan hökumətinin tələbi ilə İstanbul Valiliyi tərəfindən qadağa qoyulduğunu bildirib.**



"Azərbaycan səfirliyi əvvəlcə Fransız Mədəniyyət Mərkəzinə rəsmi tələb göndərərək filmin nümayişinin qadağan olunmasını istəyib. Biz Fransız Mədəniyyət Mərkəzi ilə filmi müzakirə etdik, onlar da izlədi və nümayişində heç bir problem görmədiklərini bildirdilər. Film bir qadının İrandan keçmiş həyat yoldaşından qaçmasından bəhs edir. Qadın Qarabağda bir erməni kəndinə sığınır. Azərbaycan üçün bu məsələ həssas imiş, biz də bilmirdik. Bütün ölkələrin həssaslığını nəzərimizdə saxlaya bilməyəcəyimizi və filmdə zərərli ifadələrin yer almadığını bildirdik, lakin Azərbaycan hökumətinin Türkiyə Xarici İşlər Nazirliyinə, hətta xarici işlər nazirinə də müraciətləri olub. Nəticədə Azərbaycan hökumətinin tələbi ilə Türkiyədən də filmin göstərilməsinə qarşı reaksiya verildi və nümayişi qadağan edildi", - deyə o, bildirib.

Qeyd edək ki, "Yeva" filmi Ermənistan və İranın birgə əməkdaşlığı ilə çəkilib. Filmin rejissor və ssenari müəllifi erməni əsilli iranlı Anahit Abaddır. Sözügedən film Ermənistan kinosunu təmsil etmək üçün "Xarici dildə ən yaxşı film" nominasiyası üçün 90-cı "Oskar" film festivalına göndərilmişdi.



## Dövlət dilində yaxşı danışa bilməyən məmurlar

### Sabir Rüstəmxanlı: "Artur Rasi-zadədən sonrakı gənc nazirlər dilimizdə normal danışmalıdırlar"

**Baş nazir Artur Rasizadənin martın 16-da Milli Məclisdə hökumətin illik hesabatını təqdim edən zaman Azərbaycan dilində çətinliklə danışması artıq bir neçə gündür medianın tənqid hədəfinə çevrilib. Azərbaycan Dövlət Dil Komissiyasının sədri və 22 ildir ölkənin baş naziri işləyən Artur Rasi-zadənin ana dilində hələ də səlist danışa bilməməsi qınanılır.**

Eyni zamanda, bəzi nazirlərin və yüksək vəzifəli məmurların da dövlət dilimizdə normal danışa bilməməsi də tənqid olunur. Bu cür məmurlara Azərbaycanın prezidentinin Azərbaycan dilində səlist danışması, eyni zamanda prezidentin dövlət dilini öyrənməklə bağlı rəsmilərə etdiyi xəbərdarlıqlar xatırladılır.

Azərbaycan Dövlət Dil Komissiyasının üzvü, Xalq şairi Sabir Rüstəmxanlı baş nazir Artur Rasi-zadənin Milli Məclisdəki son çıxışına münasibət bildirib. S.Rüstəmxanlı ölkə.az-a açıqlamasında deyib ki, Azərbaycan dilində normal danışmaq hər bir dövlət məmurunun borcudur: "Azərbaycan mətbuatı baş nazir Artur Rasi-zadənin dünənki çıxışına elə yanaşır ki, guya bu, birinci dəfədir. Bu məsələ ilə bağlı vaxtilə mən Milli Məclisdə deputat olan zaman çox danışmışam. İndi Artur Rasi-zadənin yaşı çoxdur və ondan bu yaşında əlavə nə isə gözləmək olmaz. Amma ondan sonra gələn gənc nazirlər Azərbaycan dilində normal danışmağı bilməlidirlər".

S.Rüstəmxanlı qeyd edib ki, hazırda bəzi nazirlər də Azərbaycan dilində səlist danışa bilmir: "Elə nazirlərimiz var ki, onlar da Artur Rasi-zadə kimi Azərbaycan dilində normal danışa bilmirlər".

Hörmətli Artur Rasi-zadənin ana dilində yaxşı danışa bilməməsini tənqid edənlərə Nazirlər Kabinetinin mətbuat xidmətinin rəhbəri Akif Əli indiyə qədər dəfələrlə münasibət bildirib. Keçən ilin martında da Milli Məclisdə hesabatı təqdim edəndə eyni vəziyyət yaranmışdı və Akif Əli baş nazirə irad tutanlara belə cavab vermişdi: "Rus dilində təhsil alan adamların hamısının danışığında müəyyən "aksent" ola bilər. Amma onun Azərbaycanca oxumasında heç bir problem yoxdur. Nazirlər Kabinetinin bütün sənədləri, sərəncamlar Rasi-zadənin imzası ilə gedir. Artur Rasi-zadə elə şəxsiyyətdir ki, heç zaman inanmadığı, oxumadığı yazıya qol çəkməz. O bütün qərarları oxuyur, sonra imza atır. Məsələn, bəzən mətndə elə ifadələri, hətta dil səhvləri tutur ki, məəttəl qalırsan. Hətta ən mötəbər qəzetdə ifadə səhvləri tutaraq mənə deyib ki, redaksiyaya bunun düz variantını demək lazımdır. O, Azərbaycan dilini təmiz bilir. Şifahi nitqində olan müəyyən deyim tərzi isə sovet dövrü təhsilindən qalma məqamlardır. Bunu şişirtməyə ehtiyac yoxdur".

**❑ Etibar SEYİDAĞA, "Yeni Müsavat"**

## Bakı restoranları "ərəbləşir"

**Bakıya və Azərbaycanın turizm bölgələrinə ərəb turistlərin böyük axını ictimai iaşə və ticarət obyektlərinin sahiblərini işə yanaşmada köklü dəyişikliklərə məcbur edib.Belə ki, restoranlarda ərəbcə menyular, hətta ərəb yeməkləri, ərəbcə danışan ofisiantlar peyda olub.**

Buna baxmayaraq, turistlər azərbaycanlıların hələ də ərəb dilini bilməməsindən gileylənirlər. Amma bu mənada "müsbət dəyişikliklər" də nəzərdən qaçmayıb - yerli əhali bəzi ərəb sözlərini öyrənibmiş.

**Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!**

Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!

Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz və ya email yazmağınız kifayətdir.

**Telefon: (012) 434 93 01**



## Gürcüstanın baş naziri istefaya gedir - səbəb

**Gürcüstanın baş naziri Georgi Kvirikaşvili tezliklə istefaya gedə bilər. Axar.az xəbər verir ki, bu barədə informasiyanı "Rustavi 2" televiziyası yayıb. Televiziya istefaya hökumətdə təmsil olunan daha bir neçə nəfərin də gedəcəyini bildirib.**

"Kvirikaşvilinin istefası onun Rusiya hakimiyyətinə münasibətlərin düzəlməsiylə bağlı açıq məktubundan sonra gündəmə gəlib. Nəticədə gürcü hökumətində bununla bağlı fikir ayrılığı yaranıb. Kvirikaşvili ilə bərabər hazırda öz vəzifəsini Daxili İşlər naziri Georgi Qaxariya və Maliyyə naziri Mamuka Baxtadze də tərk edə bilər. Yekun qərarı hakim Gürcü Arzusu Partiyasının təsisçisi Bidzina İvanişvilinin verməsi gözlənilir".



## NATO: "Rusiya daha aqressiv və proqnozlaşdırılmayan bir dövlətə çevrilir"

**NATO müdafiə qabiliyyətini artırmalı və Rusiyanın proqnozlaşdırılmayan fəaliyyətinə qarşı hazır olmalıdır. Bunu bu gün NATO baş katibi Yens Stoltenberq Almaniyanın "Welt am Sonntag" nəşrində işıq üzü görən müsahibəsində bildirib.**

Y.Stoltenberq deyib ki, Rusiyanın nüvə potensialının böyüməsi mümkünlüyü nəzərə alınaraq, Almaniya baş naziri Angela Merkel və Alyansa üzv digər dövlətlərin başçılarının NATO-nun növbəti sammitində öncəki qərarlarına yenidən baxacaqlarını gözləyir. NATO baş katibi Alyans üzvlərinə hücuma istənilən an cavab verməyə hazır olduqlarını, ancaq müharibə istəmədiklərini vurğulayıb: "Rusiyanın tədricən nüvə silahı tətbiq etmək istiqamətində irəliləməsi təhlükəsi mövcuddur. Buna görə də NATO müdafiə qabiliyyətini artırmalıdır. Rusiya daha aqressiv və proqnozlaşdırılmayan bir dövlətə çevrilir".

Y.Stoltenberq Alyansın növbəti NATO-Rusiya Şurası formatında görüşə hazırlaşdığını, görüşün gündəliyinə hibrid savaşla bağlı məsələnin də daxil ediləcəyini açıqlayıb.

Xatırladaq ki, bir neçə gün əvvəl Y.Stoltenberq Rusiya Müdafiə Nazirliyi Baş Kəşfiyyat İdarəsinin (QRU) sabiq polkovniki Sergey Skripalın zəhərlənməsi ilə əlaqədar NATO-nun Rusiya ilə "Soyuq müharibə"yə yenidən başlamaq istəmədiyini bəyan etmişdi.

## Bu gün ölkə ərazisində 21 dərəcə isti olacaq

**Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya departamentindən verilən məlumata görə, sabah Bakıda və Abşeron yarımadasında havanın dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Bəzi yerlərdə duman olacaq, cənub küləyi gündüz arabir güclənəcək. Havanın temperaturu gecə 4-7°, gündüz 10-15° isti olacaq.**

Naxçıvan Muxtar Respublikasında hava əsasən yağmursuz olacaq. Qərb küləyi əsəcək. Havanın temperaturu gecə 0-5°, gündüz 16-21° isti təşkil edəcək.

Yuxarı Qarabağ: Xankəndi, Şuşa, Xocalı, Xocavənd, Qubadlı, Zəngilan, Laçın, Kəlbəcər, həmçinin Daşkəsən-Gədəbəy rayonlarında hava əsasən yağmursuz keçəcək, gecə və səhər bəzi yerlərdə duman olacaq. Qərb küləyi ayrı-ayrı yerlərdə arabir güclənəcək. Gecə 0-5°, gündüz 10-15° isti olacaq.

Qazax, Gəncə, Goranboy, Tərtər, Ağdam, Füzuli, Cəbrayıl rayonlarında hava əsasən yağmursuz keçəcək, səhər bəzi yerlərdə duman olacaq. Qərb küləyi ayrı-ayrı yerlərdə arabir güclənəcək. Havanın temperaturu gecə 2-7°, gündüz 15-20° isti təşkil edəcək.

Balakən, Zaqatala, Qax, Şəki, Oğuz, Qəbələ, İsmayıllı, Ağsu, Şamaxı, Siyəzən, Şabran, Xızı, Quba, Xaçmaz, Qusar rayonlarında hava əsasən yağmursuz keçəcək, bəzi yerlərdə duman olacaq. Qərb küləyi ayrı-ayrı yerlərdə arabir güclənəcək. Havanın temperaturunun gecə 1-6°, gündüz 15-20° isti, dağlarda gecə 0-2°, gündüz 12-17° isti təşkil edəcəyi proqnozlaşdırılır.

Mərkəzi-Aran: Mingəçevir, Yevlax, Göyçay, Ağdaş, Kürdəmir, İmişli, Ağcabədi, Beyləqan, Sabirabad, Biləsuvar, Saatlı, Şirvan, Hacıqabul, Salyan, Neftçala rayonlarında hava əsasən yağmursuz keçəcək. Gecə və səhər bəzi yerlərdə duman olacaq. Qərb küləyi ayrı-ayrı yerlərdə arabir güclənəcək. Havanın temperaturu gecə 3-8°, gündüz 15-20° isti olacaq.

Masallı, Yardımlı, Lerik, Lənkəran, Astara rayonlarında hava əsasən yağmursuz keçəcək. Səhər dağlarda duman olacaq. Qərb küləyi əsasən dağlıq ərazilərdə arabir güclənəcək. Havanın temperaturu gecə 5-7°, gündüz 15-20° isti, dağlarda gecə 2-5°, gündüz 14-17° isti təşkil edəcək.

YENİ MÜSAVAT
N 62 (6951) 19 mart 2018

# Seçki bülleteninə 8 namizədin adı yazılacaq

## Təşviqat kampaniyası başladı: bu gün İTV-də ilk canlı debatdır

**Aprelin 11-də keçiriləcək prezident seçkisində 8 namizəd mübarizə aparacaq. Mərkəzi Seçki Komissiyasının (MSK) martın 17-də keçirilən iclasında namizədliyi Azərbaycan Demokrat Partiyası tərəfindən irəli sürülən Sərdar Cəlaloğlunun prezidentliyə namizəd kimi qeydə alınması məsələsinə baxılıb.**

MSK katibi Arifə Muxtarova bildirib ki, S.Məmmədovun prezidentliyə namizəd kimi qeydə alınması üçün əsaslar mövcuddur. Komissiya S.Cəlaloğlunun prezidentliyə namizədliyinin qeydə alınmasını səsverməyə çıxararaq qəbul edib. Sonra prezidentliyə namizədliyi özü tərəfindən irəli sürülən, AĞ Partiyanın sədri Tural Abbaslının prezidentliyə namizəd kimi qeydə alınmasına baxılıb. MSK katibi A.Muxtarova bildirib ki, T.Abbaslının prezidentliyə namizəd kimi qeydə alınması üçün əsaslar mövcud deyil. Komissiya məsələni səsə qoyaraq qəbul edib.

İclasda prezidentliyə namizədliyi Vətəndaş və İnkişaf Partiyası (VİP) tərəfindən irəli sürülən Əli Əliyevin prezidentliyə namizəd kimi qeydə alınması məsələsinə də baxılıb. A.Muxtarova namizədin prezident seçkisi üçün topladığı imzaların sayının qanunvericilikdə göstərilən tələbə uyğun hesab edilmədiyini deyib. Bildirib ki, namizədin müdafiəsi üçün 74 dairə üzrə 43390 imza təqdim olunub. Bu imzalardan 7944 -ü etibarsız hesab olunduğundan Əli Əliyev namizəd kimi qeydə alınmayıb.

Bununla da prezidentliyə namizədlərin qeydə alınması prosesi başa çatıb. Beləliklə, seçkidə 8 namizəd-namizədliyi hakim Yeni Azərbaycan Partiyası tərəfindən irəli sürülən İlham Əliyev, namizədliyi Bütöv Azərbaycan Xalq Cəbhəsi Partiyası tərəfindən irəli sürülən Qüdrət Həsənquliyev, namizədliyi Azərbaycan Sosial Demokrat Partiyası tərəfindən irəli sürülən Araz Əlizadə, namizədliyi Milli Dirçəliş Hərəkatı Partiyası tərəfindən irəli sürülən Fərəc Quliyev, namizədliyi "Cəbhəçilərin təşəbbüs qrupu" tərəfindən irəli sürülən Razi Nurullayev, namizədliyi Müasir Müsavat Partiyası tərəfindən irəli sürülən Hafiz Hacıyev, öz təşəbbüsü ilə namizədliyini irəli sürən Zahid Oruc və namizədliyi Azərbaycan Demokrat Partiyası tərəfindən irəli sürülən Sərdar Cəlaloğlu Məmmədov mübarizə aparacaq.

Xatırladaq ki, qeydə alınan 8 namizəddən Razi Nurullayev istisna olmaqla digər 7-si 2013-cü il prezident seçkisində də qeydə alınmışdı.

Namizədliyi qeydə alınmayan Tural Abbaslı məsələyə belə münasibət bildirib: "MSK prezidentliyə namizədliyimi "müəyyən nöqsanlara yol verdiyim üçün" qeydə almayıb. Biz Azərbaycanda belə qərarların necə verildiyini yaxşı bilirik. Deməli ki, bizim namizədliyimiz siyasi qərarla qeydə alınmadı. Biz AĞ Partiya olaraq bu prosesə bütün nəticələri nəzərə alaraq qoşulmuşduq. Yəni nə mənim, nə də AĞ Partiya üçün gözlənilməz və qeyri-adi nəsə olmadı. Hesab edirəm ki, partiya olaraq seçki mühitinin yaratdığı imkanlardan maksimum istifadə etdik, seçki mərhələsinin ən ağır olan imzatoplama mərhələsini uğurla başa vuraraq 40 mindən artıq imza topladıq, ən əsası da Azərbaycan siyasi mühitində AĞ Partiya simasında yeni siyasi gücün artıq bir reallığa çevrildiyini hər kəsə nümayiş etdirdik. Biz qətiyyən ruhdan düşmürük və mübarizəmizə tam güclə və yeni nəfəslə davam edirik...".



Namizədlərin təbliğat-təşviqat kampaniyası isə martın 19-da saat 8-dən başlayıb. Seçki Məcəlləsinə əsasən qeydə alınmış namizədlər, onların səlahiyyətli nümayəndələri və vəkil edilmiş şəxsləri, namizədi qeydə alınmış siyasi partiyalar, siyasi partiyaların blokları, onların səlahiyyətli nümayəndələri və vəkil edilmiş şəxsləri tərəfindən seçkiqabağı təşviqat səsvermə gününə 23 gün qalmış başlanır və səsvermənin başlanmasına 24 saat qalmış dayandırılır.

Martın 18-də MSK dünən keçirilmiş iclasında prezidentinin seçkilərində ödənişsiz əsaslarla ayrılmış efir vaxtının bölgüsü məqsədilə püşkatma komissiyanın yaradılması və püşkatmanın keçirilməsi vaxtının və yerinin müəyyən edilməsi məsələsinə baxılıb. MSK sədrinin müavini Natiq Məmmədov deyib ki, namizədlərə ödənişsiz əsaslarla həftədə İctimai Televiziya və Radio Yayımları Şirkətində, 3 saat televiziya, 3 saat radioda olmaqla, ümumilikdə çıxış üçün 6 saat vaxt ayrılacaq. İclasda ödənişsiz əsaslarla ayrılmış efir vaxtının bölgüsü məqsədilə 4 nəfərdən ibarət komissiya yaradılıb. Qərar verilib ki, ödənişsiz əsaslarla ayrılmış efir vaxtının bölgüsü məqsədilə püşkatma mərasimi MSK-nın 19 mart tarixli iclasında keçirilsin.

Namizədlərin İTV-də və İctimai radioda ilk canlı debatı martın 19-da, yəni bu gün olacaq.

Növbədənkənar prezident seçkisinin ödənişli təşviqatına qoşulan media qurumlarının sayı isə artıb. "Xalq qəzeti" və Aktual.az saytı, "Yeni Müsavat" media qrupu, İctimai Televiziya və Radio Yayımları Şirkəti, "Cümhuriyət", "Olaylar", "Səs", "Palitra" qəzetləri, "Səs", "Olaylar" informasiya agentlikləri, Report.az, Moderator.az, Cəbhə.info, Avropa.info saytları bildiriş göndəriblər bunun üçün MSK-ya bildiriş göndəriblər.

Ödənişsiz təşviqat isə İctimai Televiziya və Radio Yayımları Şirkətində, "Azərbaycan", "Bakinski raboçi" qəzetlərində və "Xalq qəzeti"ndə aparılacaq.

MSK-nın mətbuat katibi Şahin Əsədli "Yeni Müsavat"a bildirib ki, Seçki Məcəlləsinin tələbinə görə, MSK media orqanlarının namizədlərə bərabər olmaqla şərait yaratmasına, bütün namizədlərə ödənişli təşviqat üçün eyni tariflərin təklif olunmasına nəzarət edəcək.

Debatlardan öncə namizədlər öz aralarında razılaşma protokolu imzalayıblar.

Namizədliyini müstəqil qaydada irəli sürmüş Zahid Oruc musavat.com-a açıqlamasında bildirib ki, namizədlər arasında bir-birinə qarşı qanunsuz rəqabət, şərəf və ləyaqətə hörmətsizlik və qeyri-etik mübarizə vasitələrindən istifadə olunmayacağı barədə həmkarlarla razılıq əldə olunub: "İkincisi, İctimai Televiziyada ayrılmış efir vaxtının prinsipləri elə müəyyənləşdirilməlidir ki, burada təşviqat proqram və tədbirlərindən maksimum istifadə oluna bilinsin. Yəni həftəlik efir vaxtı elə bölünəcək ki, həftənin yarısı fasiləsiz olaraq televiziyada keçsin, digər yarı hissəsi isə effektli şəkildə insanlarla birbaşa təmasların reallaşdırılmasına imkanlar tanısın. Daha konkret söyləsək, həftədə 3 saat ayrılan ödənişsiz zamanı 3 gün ərzində istifadə etmək, yerdə qalan 4 günü isə Bakı və onun ətrafında olan bölgələrdəki seçicilərlə birbaşa görüşlər üçün reallaşdırmaq mümkün olsun. 2013-cü ilin praktikasında bildiyiniz kimi, bu, bir gündən bir reallaşdırılırdı və avtomatik olaraq, ciddi problemlər yaradır, zaman bölgüsünü dislokasiyalar üzrə uyğun bir qrafikdə qurmaqda xeyli çətinliklər törədirdi".

Z.Orucun sözlərinə görə, başqa bir müddəa isə ayrılan efir vaxtı ilə bağlıdır: "Yeni seçilən vaxt və ya efirdə debatların reallaşması saat 21 və 23 arası gerçəkləşdirilsin. Artıq İctimai Televiziya ilə razılaşma əldə olunub ki, əvvəlki dövrlərdəki kimi debatların saat 19-da keçirilməsi insanların işdən evə döndüyü və ya o zaman ekran qarşısında olmaması səbəbindən onlar itirilirdi. Bu baxımdan saat 22-də aparılması qərarlaşdırılır. Eyni zamanda, 1, 2, 3-cü günlər debatlar həm də İctimai Televiziyanın radiosunda da reallaşdırılacaq. Dəyirmi masalar beynəlxalq praktikada, ayrı-ayrı dövlətlərin təcrübəsində olduğu kimi konkret mövzular ətrafında keçiriləcək. Bu, həmin məsələlər ətrafında daha yaxşı diskussiyalar, debatlar aparmağa imkan verəcək. Bütövlükdə bütün bu prinsiplərin ətrafında razılaşmaya müəyyən qədər riayət etmək üçün MSK-dan öz səlahiyyətləri çərçivəsində bu işləri müşahidə altında saxlamaq da xahiş edilib. Sözügedən protokol namizədlərin altısı tərəfindən imzalanıb".

❑ **Etibar SEYİDAĞA, "Yeni Müsavat"**

# Bu vədələrin aktual söhbəti: baş nazirin yaşı...



**Xalid KAZIMLI**

**Bu mövzunun hər il bu vaxtlar, mart ayının ortalarında aktuallaşması artıq ənənə şəklini alıb. Azı 15 ildir ki, belədir. Hər il mart ayının bu vədəsində parlamentin plenar iclasında hökumətin hesabatı dinlənilir və mütləq baş nazir Artur Rasi-zadə ilə bağlı söhbət böyüyür.**

Bu 15 ildə elə illər olub ki, baş nazirimiz parlamentdə hesabat məruzəsi ilə çıxış etməyib, bunu onun əvəzindən müavinlərindən biri edib.

Ancaq bunun cənab Rasi-zadə ilə bağlı söhbətlərin, hətta yazıların intensivliyinə dəxli olmayıb.

Baş nazir parlamendə çıxış etməyəndə də, bir çoxları diqqəti onun ahılLığına, artıq deputatlar qarşısında ayaq üstə çıxış etmək iqtidarında olmadığına yönəldiblər.

Artur müəllim öz gümrah görünüşü ilə deputatların qarşısına çıxıb hazır məruzəni oxuyanda da ritorika dəyişməyib. Bu dəfə diqqət mərkəzinə onun nitq üslubu gəlib.

Bu, hər kəsə bəlli həqiqətdir, Azərbaycanın baş naziri uşaqlığından rus dilində təhsil alıb, təhsilini rus dilində davam etdirib, sovet dövründən ta indiyə qədər çalışdığı bütün postlarda rus dilində yazıb, danışıb.

Azərbaycanın dövlət dilində danışmaq, yazmaq, oxumaq ona çətindir. Deməli olmaz ki, o, ana dilini bilmir. Xeyr. Bilir. Amma onun işlək dili rus dilidir. O, bu dildə özünü daha yaxşı ifadə edir.

Bəs cənab Rasi-zadə hazırda tutduğu postu tərk etməliydimi?

Bəli, bu iş çoxdan baş verməliydi. Özü könüllü şəkildə təqaüdə çıxmaq istədiyini bildirməliydi və getməliydi.

Böyük ehtimalla Artur müəllim bir neçə dəfə bu niyyətdə olduğunu dövlət rəhbərliyinə, konkret olaraq, prezident İlham Əliyevə bildirib.

Ancaq anlaşılan odur ki, bu variant məsləhət olmayıb, ali sarayda hesab olunub ki, Artur müəllim ömrünün doqquzuncu onilliyini xırdalasa da, öz postunda qalsa, yaxşıdır.

Bu, bir siyasi vəfadarlıq nümunəsidir. Prezident mərhum atasının etibarlı, sınanmış kadrlarını hörmət-izzətli bir şəkildə vəzifədə saxlamaqda davam edir.

"Vurulub" kənara atılanlar isə mütləq sədaqət müstəvisində hansısa təqsirə yol verənlər, yaxud pudluq daş olub ayaqdan asılanlardır. Heç kəsə ziyanı olmayan qocalar dövlətə ballast deyil.

Hamımız bilirik, bu ölkənin idarəçilik quruluşu elədir ki, onu ya prezident idarə etməlidir, ya da baş nazir. Bizdə ikisi də var - geniş səlahiyyətləri olan prezident də, geniş səlahiyyətləri olan baş nazir də.

Aydın məsələdir ki, onların ikisi də eyni dərəcədə fəal ola, dövləti eyni zamanda və eyni aktivliklə idarə edə bilməzlər. Mütləq toqquşma olar. Artur müəllim isə öz səlahiyyətlərindən tam şəkildə istifadə etmir, özünü kölgəyə çəkir və heç kəsə mane olmur.

Elədirsə, onun tamamilə kənara çəkilməsi daha yaxşı olmazmı? Olmaz.

O zaman yeni baş nazir təyin etmək lazım gələr və bu saraydaxili intriqaların qızışmasına, bəzi güclü nazirlərin ambisiyasının qabarmasına səbəb olar.

Zaman-zaman bu ölkədə belə durumlar yaranıb. Hətta baş nazir postundan əvvəl dövlətin ikinci mühüm vəzifəsi sayılan parlament sədri postu uğrunda mübarizələr yaşanıb, hakim partiyanın təşəkkülündə fəal olmuş iki nazir bir-birinin əleyhinə media savaşı aparıblar.

Sonradan o cür intriqa başqa, yeni güclü nazirlər arasında getdi. Etiraf olunmurdu, amma hamı güclü nazirlərin çəkişməsinin fərqindəydi.

Bəzən elə görünürdü ki, onlar bizneslərinin və nüfuz dairələrinin genişləndirilməsi uğrunda savaşırlar. Bunlar da var idi. Ancaq mühüm motivlərdən biri də dövlətin ikinci postuna yiyələnmək niyyəti idi.

Onlar düşünürdülər ki, 80 yaşlı Artur Rasi-zadədən sonra kimsə o postu tutmalıdırsa, nədən həmin postda özləri olmasın.

Ancaq atalar deyir, sən saydığını say, gör fələk nə sayır. O yeni-yeni "pöhrələyən" nazirlərin, deputatların bir çoxu "doğranıb" getdi, istefada, xaricdə, orda-burdadırlar, Artur müəllim isə hələ də parlamentdə çıxış edir.

Əslində xeyli dərəcədə formal səciyyə daşıyan vəzifədə kimin oturmasının fərqi yoxdur. Bu, təxminən daima "elçiliyə aparılan ağsaqqal"ın vəzifəsi kimi bir şey olub.

Bu xüsusda ən xoşagəlməz məqam odur ki, baş nazirin yaşı ilə bağlı qeyri-ciddi planda söhbətlər çoxalıb.

Bundan daha pisi odur ki, Artur müəllimin yaşına sataşanların çoxu o yaşa çatmayacaqlar. Ən kədərlisi də elə budur.

YENİ MÜSAVAT
N 62 (6951) 19 mart 2018



# Seçkilərdə iştirak etməyənlər cərimələnə bilər?

## Əliməmməd Nuriyev: "Azərbaycanda seçki vəzifə yox, hüquq hesab edilir"

**Aprelin 11-də Azərbaycanda növbədənkənar prezident seçkiləri keçiriləcək. Seçici fəallığının yüksək olması arzulansa da, qanunvericilik seçkidə iştirak etməməyə görə ölkə vətəndaşlarına heç bir sanksiya və cərimə tətbiq etmir. Amma dünyanın bəzi ölkələrində seçkilərlə bağlı müəyyən qaydalar qəbul olunub.**

Seçkilərdə cərimələrin tətbiq olunması arzuolunandırmı?

Hüquqşünas Əliməmməd Nuriyev Modern.az saytına açıqlamasında bildirib ki, Azərbaycanda seçki vəzifə yox, hüquq hesab edilir: "Bəzi ölkələrdə qanunvericilik seçkini təkcə hüquq kimi yox, həm də vəzifə, məsuliyyət kimi göstərir. Məsələn, Yunanıstan, Türkiyə, Avstraliya kimi ölkələrin təcrübəsində bunu müşahidə edə bilərik. Burada seçki hüququ olan hər bir şəxs mütləq səsvermədə iştirak etməlidir. Əks halda, seçkilərdə iştirak etməməyə görə həmin şəxs cərimə oluna bilər. Amma Azərbaycanda seçki bir hüquq kimi qəbul edilib. Dünyanın əksər ölkələrində də seçkiyə hüquq kimi baxılır. Yəni vətəndaş öz məsuliyyətini başa düşməlidir ki, seçkidə iştirak etmək birbaşa onun maraqlarına cavab verir. Eyni zamanda o imkan da saxlanılır ki, vətəndaş seçkidə iştirak etməyə bilər. Bunun üçün hər hansı məsuliyyət nəzərdə tutulmur".

Ə.Nuriyev qeyd edib ki, vətəndaş düşünərək, ölçüb-biçərək, öz iradəsinə söykənərək seçkidə iştirakla bağlı qərar verməlidir: "Vətəndaşlar başa düşməlidir ki, prezident, parlament və ya bələdiyyə seçkilərində onun səsi gələcəkdə siyasətin müəyyənləşməsində həlledici rol oynaya bilər. Bir çoxları dövlətin ona verdiyi bu hüquqdan istifadə etmək istəmirsə, bu, onun öz işi olmalıdır. Bu baxımdan Azərbaycan qanunvericiliyində də seçki hüquq kimi göstərilir və hər kəs müstəqil şəkildə seçkidə iştirak etmək barədə qərar qəbul edə bilir.

Həmçinin, ölkəmizdə seçkilərdə nə qədər şəxs iştirak edəcəksə, o, legitim sayılır. Bunun nəticələri digərləri tərəfindən qəbul edilməlidir. Çünki burada hər hansı yetərsay məsələsi yoxdur. Bu da normal və dünyadan daha çox təsadüf edilən praktikadır. Seçkinin demokratikliyini təmin edən şərtlərdən biridir. Çünki hər kəs sərbəst, azad, müstəqil olaraq səsvermə hüququna malikdir. Hər şəxsin səsi də bir səs sayılır. Birinin səsi digərindən fərqlənmir və bərabərlik qorunur".

Müsahibimiz deyib ki, seçkilərdə cərimələrin tətbiq olunmasına ehtiyac yoxdur: "Səsvermə gizlidir və başqaları bu prosesə müdaxilə edə, göstəriş verə bilməz. Yəni Azərbaycanda seçkilərin prinsipləri demokratikliyin prinsipləri ilə oxşardır. İndiyə qədər hər kəs bu baxımdan özünü azad ifadə edə bilib. İnanıram ki, 11 aprel tarixində eyni qaydada vətəndaşlar səsvermədə iştirak edərək prezidentini seçəcəklər. Seçki hüququ sərbəst olmalıdır, ona görə də burada cərimələrin qoyulmasına ehtiyac yoxdur. Azərbaycan Konstitusiyası buna imkan verməz. Çünki seçki vəzifə və ya borc deyil".

---

**Martın 18-də Rusiyada prezident seçkiləri keçirilib. Seçkilərdə 8 namizəd - hazırkı prezident Vladimir Putin, Kommunist Partiyasının namizədi Pavel Qrudinin, Liberal Demokrat Partiyasından olan namizəd Vladimir Jirinovski, Rusiya Ümumxalq İttifaqı Partiyasının namizədi Sergey Baburin, "Vətəndaş təşəbbüsü" partiyasının namizədi, tanınmış telejurnalist Kseniya Sobçak, "Rusiya Kommunistləri" Partiyasının namizədi Maksim Suraykin, biznes ombudsmanı Boris Titov və "Yabloko" Partiyasının qurucusu Qriqori Yavlinski mübarizə aparıblar.**




# Rusiyada prezident seçkisi keçirildi - Putinlə yola davam

## Tofiq Abbasov: "Kremlin dost ölkələrlə münasibətlərində böyük dəyişiklikləri gözləməyə dəyməz"

Səsvermə yerli vaxtla saat 08:00-dan 20:00-dək davam edib. Seçki məntəqələri ilk olaraq Çukot Muxtar Dairəsi və Kamçatka diyarında açılıb. Ümumilikdə 97 mindən artıq seçki məntəqəsi açılıb, onlardan 400-dən artığı xaricdə olub. Səsverməni 109 ölkədən 1500-ə yaxın beynəlxalq müşahidəçi izləyib.

Putin adət üzrə Moskvanın Lenin prospektində, Rusiya Elmlər Akademiyasının binasında yerləşən 2151 saylı seçki məntəqəsinə gələrək səs verib.

"Seçkidə mənə prezident vəzifəsini icra etməyə imkan verəcək istənilən səs faizini uğurlu sayıram". Bunu jurnalistlərə açıqlamasında Putin deyib. O, hazırda ölkənin inkişafı üçün təqdim etdiyi proqramın doğru olduğuna inandığını bildirib.

Rusiya prezidentliyinə namizəd Jirinovski səs verdikdən sonra dünyaya meydan oxuyan açıqlama verib. O, bildirib ki, Rusiya bu gün təkcə özünün prezidentini seçmir, həm də "rus dünyası"nın Ali Baş Komandanını müəyyənləşdirir: "Düzdür, "Rus dünyası"nın sərhədləri hələ müəyyən olunmayıb. Biz hazırda onu formalaşdırmaqla məşğuluq. Belə demək mümkündürsə, biz bu gün Yer planetinin Ali Baş Komandanını da seçirik".

Azərbaycan Milli Məclisin deputatları Müstəqil Dövlətlər Birliyi Parlamentlərarası Assambleyasının Müşahidə missiyasının tərkibində Rusiyadakı prezident seçkilərini müşahidə ediblər. APA-nın Rusiya bürosunun məlumatına görə, Müşahidə missiyasının koordinatoru Milli Məclisin birinci vitse-spikeri Ziyafət Əsgərovdur.

Z. Əsgərov, Aydın Cəfərov və Rauf Əliyev Moskvada, Mixail Zabelin və Elmira Axundova Sankt-Peterburqda, Milli Məclisin hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli isə Tver vilayətində seçki prosesini müşahidə ediblər.

Z. Əsgərov Rusiya xalqı üçün əlamətdar gün olduğunu söyləyib: "Rusiya xalqı bu gün (dünən -red.) öz prezidentini seçir. Əlbəttə, biz, bütün MDB ölkələri bu prezidentlə əməkdaşlıq edəcəyik. Biz bu gün Moskvada, həmkarlarımız isə Sankt-Peterburq və Tver vilayətində seçki prosesini müşahidə edirlər. Tək Moskvada 8 milyon seçici var. Biz bir neçə seçki məntəqəsində müşahidə aparacağıq. MDB ölkələrindən olan digər həmkarlarımız Rusiyanın müxtəlif regionlarına müşahidə aparırlar. Onların verdiyi məlumata görə, Rusiyanın region və subyektlərində seçki prosesi sakit keçir. Sabah səsvermənin başa çatması ilə alaqədar bizim birgə hesabatımız olacaq. Əminəm ki, bu hesabatda müsbət nəticələr olacaq".

Qəzet çapa gedərkən hələ seçkilərin nəticələri tam məlum olmadığından bu barədə məlumat verə bilmədik.

Qeyd edək ki, hələ Rusiyadakı seçkilərdən öncə bu seçkilər bütün dünyada olduğu kimi, Azərbaycanda da yaxından izlənilirdi. Buna səbəb də şimal qonşumuzdakı baş verə biləcək hər hansı siyasi dəyişikliyin, yaxud nəticələrin dəyişməyəcəyi halda bunun region və dünyaya nələr verəcəyi ilə bağlı idi. Bununla bağlı ekspertlərin, demək olar, mövqeləri üst-üstə düşürdü.

Politoloq Tofiq Abbasov gedən müzakirələrlə bağlı "Yeni Müsavat"da bunları dedi: "Rusiyanın xarici siyasətini bir neçə yerə bölmək lazımdır. Kreml üçün ilk proritetlərdən biri MDB məkanıdır, yeni keçmiş postsovet ölkələridir. Görünən odur ki, Putin əsas Avrasiya məkanının inkişafına diqqət edir və bir növ çalışır ki, bunu Qərb İqtisadi Birliyinə alternativ kimi gücləndirsin. Burada bir neçə qrup dövlət var - baxmayaraq ki, 12 məmləkətdən söhbət gedir. Mən deyərdim ki, Azərbaycan prinsip etibarı ilə Rusiya üçün Qazaxıstan, Tacikistan, Qırğızıstan və digər ölkələr kimi ənənəvi partnyor deyil. Biz çoxşaxəli xarici siyasətimizlə Rusiya ilə həm qonşu, həm də tərəfdaş ölkə kimi siyasətimizi davam etdiririk. Bizim üçün əsas prinsip bərabərhüquqlu əməkdaşlıqdır. Burada böyük qardaşdan söhbət gedə bilməz. Baxmayaraq ki, Rusiya tərəfi özünü belə aparır, bu birdəfəlik aradan qalxıb. Azərbaycan hər zaman bərabərhüquqlu siyasət yürütməkdə israrlıdır. Rusiya bunu çox yaxşı bilir. Ona görə də haradasa Azərbaycan yuxarıda adını çəkdiyim məmləkətlərdən bir qədər fərqlənir. Yeri gəlmişkən, Belarus da müəyyən qədər müstəqil siyasət yürütməyə və hüquqi suverenliyini qorumağa çalışır. Ona görə Rusiya ilə bəzi problemləri, anlaşılmazlıqları olur. Rusiyanın Qazaxıstan, Tacikistan, Qırğızıstan və digər bəzi dövlətlərlə başqa formatda münasibətləri inkişaf edir. Doğrudur, Rusiyanın MBD, Baltikyanı ölkələrlə münasibətlərində elə tellər, tezislər var ki, bunu Avropa ölkələri ilə münasibətlərinə şamil etmək olmaz. Bəzi dövlətlər Rusiyaya qarşı təpkilərini, təsirlərini artırırlar, sanksiya siyasətini genişləndirirlər, ona görə də, burada Rusiyanın dost ölkələrlə münasibətlərində böyük dəyişiklikləri gözləməyə dəyməz, istər Azərbaycan, istərsə də, digər ölkələr olsun. Tərəfdaş olduğu ölkələrlə Rusiya əvvəlki münasibətini davam etdirəcək. Lakin Qərblə bağlı problemlər çoxdur. Əminliklə demək olar ki, bu problemlər getdikcə artacaq. Son Skripal hadisəsində görürük ki, çox ciddi dumanlı şərait yaranıb. Böyük Britaniyanı artıq Fransa, Almaniya kimi ölkələr dəstəkləyir. Donald Tramp kimi prezident öz köməyini əsirgəməyəcəyini bildirib. Ola bilsin ki, bu ölkələrin sırası genişlənsin. Təbii ki, böyük ehtimalla, postunda qalacaq Putinin yeni siyasəti formalaşacaq. Çünki Qərb birliyinin Rusiyanı israrlı şəkildə bitirməyə qərar verdikləri açıq görünür. Öncəliklə Rusiyanın imicini beynəlxalq səviyyədə daraltmağa, onu ağır vəziyyətə salmağa çalışırlar. Buna da Rusiya cavab verməyə bilməz. Çox güman ki, qarşıda daha ciddi hadisələrin şahidi olacağıq. Bu gərginlik soyuq müharibə illərini xatırladır. Ola bilər ki, həqiqətən də Qərblə Rusiya arasında yeni bir soyuq müharibə başlasın və əvvəlkitək ən həssas sahələrə öz təsirini göstərsin. Hər halda Rusiya ilə hesablaşmaq Qərbə lazım gələcək. Çünki bu, qüdrətli dövlətdir. Suriyanın timsalında bunları açıq gördük. Qərb çox çalışdı ki, Rusiyanı öz çərçivəsində saxlasın, amma indi görürük ki, Kreml sərhədlərindən kənara çıxmaqda israrlıdır. Aralıq və Xəzər dənizlərindən raketlər endirməklə Rusiya göstərdi ki, hərbi əlləri, riçaqları çox yerə çatır. Bunun özü bir mesaj idi ki, bizimlə hesablaşmaya bilməzsiniz. Gərginlik qarşıdakı zamanlarda da olacaq, amma çox güman ki, böyük müharibənin çalarlarını görməyəcəyik. Əslində bu, olmasa yaxşıdır. Diplomatik müstəvidə qarşıdurmalar, siyasi oyunlar davam edəcək".

**❑ Cavanşir ABBASLI,
"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 62 (6951) 19 mart 2018



# Rusiya tələyə salınır - Azərbaycan çətin seçimdə

## Elxan Şahinoğlu: "Biz Qərb-Rusiya qarşıdurmasına qarışmamalıyıq..."

**Son günlərdə Rusiya ilə Böyük Britaniya arasında yaranan qarşıdurma durmadan artır. Agent Sergey Skripal və qızı Yuliyanın İngiltərədə zəhərlənməsi ilə bağlı onsuz da ağır durumda olan Rusiyanın vəziyyəti getdikcə gərginləşir.**

Son illərdə Rusiya hökumətinə müxalif olan və Böyük Britaniyaya sığınan şəxslərin bir-birinin ardınca aradan götürülməsi artıq Britaniya hökumətinin səbir kasasını daşırıb. Cinayət işində konkret faktlar olmasa da, bütün diqqətlər Kremlin üstündə cəmləşib. Doğrudur, Rusiya tərəfi bütün ittihamları rədd edir, lakin bu da onun hədəfdən yayınmasına kömək etmir. Artıq Skripal və qızının zəhrələnməsi ilə bağlı BMT Təhlükəsizlik Şurası təcili iclasını keçirib, Rusiyaya yönəlik sərt ittihamlar səslənib. ABŞ-ın BMT-dəki daimi təmsilçisi Nikki Heyli Rusiyanın "vicdansız cinayət işlədiyini" deyib. Britaniya baş naziri Tereza Mey 23 rus diplomatın ölkədən deportasiyası barədə qərar verib. Baş nazir bu ölkəyə qarşı əlavə sanksiyaların tətbiq ediləcəyini vurğulayıb. Rusiya da diplomatlarla bağlı analoji addım atıb.

Ekspertlər gərginləşən bu münasibətlərin fonunda Azərbaycanın mövqeyinin necə olması barədə fərqli fikirlər səsləndirirlər. BMT üzvü olan Azərbaycanın bu məsələdə balanslı siyasət yeritməsinin nə qədər çətin olduğu göz önündədir.



Qərb Universitetinin Tətbiqi Politologiya Mərkəzinin rəhbəri Elxan Şahinoğlu bildirdi ki, Skripalın qətl sifarişinin izləri Moskvaya uzanır: "Rusiya rəsmiləri deyirlər ki, məntiqlə onlar belə bir əmr verə bilməzdilər, çünki Rusiyada prezident seçkisi və futbol üzrə dünya çempionatı öncəsində Qərblə münasibətlərini bir az daha gərginləşdirmək Kremlin maraqlarına cavab vermir. Bu məntiqi qəbul etmək olar, ancaq biz bilirik ki, Rusiyada heç də hər zaman məntiq üstünlük qazanmır. Məntiqdən çıxış etsəydilər, qardaş adlandırdıqları Ukraynanın torpaqlarına göz dikib, bu dövləti birdəfəlik özü üçün itirməzdilər. Rəqibləri xaricdə öldürmək SSRİ və Rusiyanın adət etdiyi dəst-xətdir. Stalin rəqibi Trotskini öldürmək üçün uzaq Meksikaya ispaniyalı jurnalisti göndərdi və o, əmri yerinə yetirdi. 1950-ci illərdə də qətllər davam etdi, İkinci Dünya müharibəsi illərində Ukraynanın və Azərbaycanın legionlarına başçılıq edənlər Bandera və Düdənginski sovet xəfiyyələrinin qurbanları oldular. Rusiya müstəqillik qazandıqdan sonra eyni siyasəti davam etdirib. Londona əvvəlcə Litvinenkonu, ardınca Skripalı öldürdülər, başda Boris Berezovski olmaqla bəzi oliqarxların qətlləri də şübhə doğurub. Putinin yarı-gizli əmri var: "Satqınları bağışlamayacağıq". Kreml bütün cizgiləri aşıb, əvvəlcə Krım işğal olundu, ardınca ABŞ-dakı prezident seçkilərinə sosial şəbəkələr üzərindən müdaxilələr qeydə alındı, Suriyada Əsəd rejiminə dəstək davam edir, indi də xəfiyyəni öldürürlər. Bütün bunlara Qərb dözmək fikrində deyil. Qərb ölkələrinin "beyin mərkəzləri"nin hazırladıqları plan sürətlə həyata keçirilir, Rusiyanı tələyə salırlar. Kreml sahibi Krımı işğal edəndə və Suriyanı bombardman edəndə qələbə eyforiyasından yerə-göyə sığmırdı. Eyforiya keçdi, qaldı sanksiyalar və müəmmalı qətllərin nəticələri. Putin üçün ağır olacaq, çünki onun qarşısında böyük güclər dayanıb və onlar artıq Kremlin şıltaqlıqlarına dözmək fikrində deyillər. SSRİ-ni çökdürən mərkəzlər indi Rusiyanın həm prezidentinin, həm də elə Rusiyanın özünün zəiflədilməsi planları üzərində baş sındırırlar".

Politoloq rəsmi Bakının necə bir mövqe sərgiləməli olduğuna da toxundu: "Azərbaycan Qərb-Rusiya qarşıdurmasına qarışmamalıdır. Strateji müttəfiqimiz Türkiyə də qarışmır. Rəsmi Bakı sadəcə, ara-sıra açıqlama verə bilər ki, Qərblə Rusiya arasındakı gərginliyin azalmasında maraqlıdır. Bundan artıq bəyanat vermək Azərbaycana zərər gətirə bilər. Ancaq millət vəkillərimizdən biri bugünlərdə açıqlama verərək, "Qərbin Rusiyaya təzyiqi ədalətsizdir" deyib. Bu kökündən yanlış açıqlamalıdır. Bununla o, nə demək istəyib? Bu o deməkdirmi ki, Rusiyanın Krımı işğal etməsində də qəbahət yoxdur? Axı bizim də torpaqlar işğal altındadır. Krımın işğalına haqq qazandıran istənilən azərbaycanlı avtomatik Ermənistanın Dağlıq Qarabağ və ətraf rayonların da işğalına haqq qazandırmış olur. Azərbaycan prezidenti haqlı olaraq heç zaman "Rusiyaya qarşı sanksiyaların tətbiqi doğru deyil" demirsə, millət vəkili niyə bunu deyir? O, bilmir ki, sanksiyalar Krımın işğalından sonra Rusiyaya qarşı tətbiq olunub, yoxsa bunu normal qəbul edir? Bu ona bənzəyər ki, hansısa ukraynalı deputat durub desin ki, "Türkiyənin Ermənistanla sərhədi bağlı saxlaması doğru deyil". Belə açıqlama bizim xoşumuza gələr? BMT Rusiya ilə bağlı səsvermədə Azərbaycan duruma görə hərəkət etməlidir. Son qalmaqallarla bağlı Azərbaycan Rusiya ilə bağlı səsvermələrdə nə "lehinə", nə də "əleyhinə" səs verməlidir. Azərbaycan səsvermədə ya neytral qalmalı, ya da heç səsvermədə iştirak etməməlidir. Biz nə Qərbdən, nə də Rusiyadan çəkindiyimizi ortaya qoymalıyıq. Nəbadə Qərbin əleyhinə Rusiyanın yerində yer alaq. Rusiyaya qonşu dövlətlər arasında bərabərhüquqlu tərəfdaşlar deyil, vassallar lazımdır".

❑ **Cavanşir ABBASLI, "Yeni Müsavat"**

# Saakyanın ABŞ-a səfəri Vaşinqton-Bakı strateji tərəfdaşlığına təsir etməyəcək

## Metyu Brayza: "Onun hökumət rəsmiləri ilə heç bir görüşləri nəzərdə tutulmayıb"

**Özünü Azərbaycanın işğal olunmuş ərazilərində yaradılan qondarma rejimin "başçısı" adlandıran Bako Saakyanın ABŞ-a səfəri Vaşinqton və Bakı arasında strateji tərəfdaşlığa təsir etməyəcək. Bu barədə Trend-ə ABŞ-ın Azərbaycanda keçmiş səfiri, Minsk Qrupunun sabiq amerikalı həmsədri Metyu Brayza deyib.**



"Bu, Saakyanın ABŞ-a ilk səfəri deyil. Bundan əlavə, o, ABŞ hökuməti tərəfindən heç bir sponsorluqla təmin edilmir. Keçmişdə olduğu kimi, onun ABŞ hökumətində rəsmilərlə heç bir görüşləri nəzərdə tutulmayıb, bəlkə ola bilsin ki, ABŞ-dan olan Minsk Qrupunun həmsədri istisna olmaqla - o da qeyri-rəsmi. Beləliklə, Saakyanın bu hərəkətlərini ABŞ hökuməti şəxsi səfər kimi qəbul edir və bu, Azərbaycanla ABŞ arasında strateji münasibətlərə heç bir təsir göstərməyəcək", - deyə o bildirib.

M.Brayza qeyd edib ki, bundan əlavə, onun Konqresin bəzi üzvləri ilə görüşü mümkündür, məsələn senator Robert Menendezlə: "Lakin Menendez artıq uzun illərdir ki, korrupsiya fəaliyyətinə görə FTB tərəfindən istintaqa cəlb edilib və məhkəmə qarşısına çıxacaq. Şəxsi təcrübəmə əsaslanaraq deyə bilərəm ki, o, mənim Azərbaycanda səfir təyin edilməyimə mane olmaq istəyib. O, Amerika Erməni Milli Konqresinin təsiri altındadır, bu təşkilatın əvvəlki prezidenti isə məhkum olunmuş cinayətkardır. Ona görə də mən Saakyanın korupsiyaya uğramış Menendezlə hər hansı görüşlərinə xüsusi əhəmiyyət verməzdim".

Xatırladaq ki, Azərbaycanın işğal olunmuş ərazilərində yaradılmış qondarma rejimin "prezidenti" kimi özünü təqdim edən Bako Saakyan ABŞ-a səfəri və ABŞ Konqresinin inzibati binasında qondarma rejimi təbliğ edən tədbir keçirməsi ilə əlaqədar Birləşmiş Ştatların Azərbaycandakı səfiri Robert Sekuta Azərbaycan Xarici İşlər Nazirliyinə (XİN) çağırılıb. Səfirə Azərbaycan Xarici İşlər Nazirliyinin ABŞ Dövlət Departamentinə ünvanlandığı etiraz notası təqdim edilib.



# "Yeni Müsavat"ın canlı yayımında Novruz bayramı təhlil ediləcək

## Qonağımız folklorşünas Atəş Əhmədlidir

**Mart ayının 19-da, bazar ertəsi günü, saat 15.00-da "Yeni Müsavat"ın Facebook üzərindən gerçəkləşdirdiyi canlı yayım qonağı Azərbaycan Milli Elmlər Akademiyasının Folklor İnstitutunun Mərasim Folkloru şöbəsinin böyük elmi işçisi, fəlsəfə doktoru Atəş Əhmədli olacaq.**

Qonağımızla Novruz ənənələri, axır çərşənbə ilə bayramın birlikdə qeyd edilməsi, son dönəmlər "papaq atdı" ənənəsinin tənqidə məruz qalması, habelə bayramın tarixi kökləri ilə bağlı söhbət edəcəyik. Siz də bizə qoşulun və folklorşünas mütəxəssisə yaxınlaşmaqda olan bayram və onun ənənələri, tarixi ilə bağlı sizi maraqlandıran sualları ünvanlayın.

Bunun üçün Facebookda Yeni Müsavat səhifəsinə daxil olub, canlı yayımda müzakirənin gedişi zamanı suallarınızı yazmanız və ya adınızın məxfi qalmasını istəyirsinizsə, inboxa suallarınızı göndərməniz kifayətdir.

❑ **Musavat.com**

YENİ MÜSAVAT
N 62 (6951) 19 mart 2018



# Yıldırımın Bakıdan xəbərdarlığı və Afrindəki Türk bayrağı

Elşad PAŞASOY
epashasoy@yahoo.com

**Gündəmi izləyən və tarixdən xəbəri olanlar eyni gündə eyni düşüncəni paylaşdılar: qardaş Türkiyə Çanaqqala zəfərinin 103-cü ildönümündə terror yuvasına dönmüş Afrin şəhərinin mərkəzinə Türk bayrağını sancdı! Bu, həm də Çanaqqalanın 46 min şəhidinin müqəddəs ruhunu şad edən müjdə oldu. Qəhrəman Türk əsgərinin zəfəri mübarək olsun!**

Türkün qalibiyyətinə görə qürurluyuq, sevinirik, həm də daxilimizdə bir həsəd hissi var. Təəssüf ki, biz hələ ki, ötən əsrlərdə yaşadığımız qanlı, qara tarixlərimizlə müasir dövrdə üzləşdiyimiz faciələrin üst-üstə düşən ildönümlərini yad etməkdəyik. Toplum olaraq qələbə günlərinə tamarzı qalmışıq. Məncə, əksər faciələrimizin kökündə bu dayanır...

Afrin zəfəri Türk millətinin yaddaşının təzələnməsi oldu. Dünya da şahidlik etdi ki, Türk ayağa duranda onun qarşısında kimsə duruş gətirməyə qadir deyil! Özü də Türkiyə dövləti Suriyanın artıq bu azad şəhərində əbədi qalmaq niyyətində deyil, yerli əhali "birləşək" mesajı versə də. Çünki Türkiyə dünyaya bir ədalət dərsi verməklə yanaşı, həm də hüquqa, sərhədlərin toxunulmazlığı prinsipinə sadiq qaldığını nümayiş etdirməkdədir. Türkiyə onu tikə-parça etmək istəyənlərə dərs verdi-ədalət dərsi!

Afrin əməliyyatı başlayanda yazmışdım ki, Türkiyənin bu şəhər uğrunda savaşı həm də Qarabağ üçün testdir. Gözlədiyim kimi oldu, ABŞ başda olmaqla dünyanın aparıcı gücləri çox çalışdı Ankaranı iradəsindən döndərsin, PKK tör-töküntülərini xilas etsin. 1915-ci ildə Osmanlıya qarşı savaşan Qərb gücləri 103 il sonra da Türkiyəyə qarşı müxtəlif terror təşkilatlarının adının altında döyüşürlər. Hədələdilər, terrorçulara müasir silahlar verdilər. Ancaq heç nə alınmadı və qəhrəman Türk ordusu şəhidlər versə də, 3 mindən çox terrorçunu məhv etdi. Bu, həm də minlərlə insanın töküləcək qanının qarşısının alınması deməkdir! Türk əsgəri təkcə Türkiyənin yox, bütün bölgənin, bəlkə elə terroru stimullaşdıran bəzi Qərb paytaxtlarının təhlükəsizliyinə yatırım qoydu öz canı-qanı bahasına! Ankara PKK-PYD, İŞİD, ASALA-ya qarşı təkbaşına savaşdı, Azad Suriya Ordusunu bir kənara qoysaq...

Nəticə uğrunda, bütün dünyaya qarşı bütün Türkiyə mübarizə apardı. Türkiyənin ilk şəhidinin vəsiyyətini - Təlafərdə türkmənlər üçün məktəb tikintisini həyata keçirmək üçün hər kəs töhfə verməyə çalışdı. 16 iyulda qardaş ölkəni ürəyindən vurmağa çalışanlar bu dəfə də Türkiyəni daxildən parçalaya bilmədilər. Qələbə təqribən belə formula ilə qazanıldı: Türk ordusunun gücü, iqtidarın qəti iradəsi, diplomatiyanın gecə-gündüz səngərdə olması, xalqın birliyi, müxalifətin dəstəyi və 81 milyonun bir ağızdan səslənən dualarının sədaları altında.

Çanaqqalada da belə olmuşdu. O ruh Türk xalqına əsrlərdir hakim kəsilib, ona görə də imperialist güclərin fitnə-fəsadına, xain hücumlarına, təxribatlarına qalib gəlir. Deməli, dövlətin, xalqın iradəsi olduğu yerdə qarşıdakı heç bir qüvvə tab gətirə bilməz. Nə yaxşı ki, Çanaqqala zəfərində olduğu kimi, Afrin savaşında da Azərbaycanın adı Türkiyədə qürurla çəkildi. Çanaqqalada qurban gedən Azərbaycan oğullarının xatirəsini sayğı ilə anan qardaş ölkə bu aylarda da "Afrində döyüşməyə hazıram" deyən bizlərin səsini eşidib məmnun oldular.

Türkiyənin baş naziri Binəli Yıldırım ötən həftə Qlobal Bakı Forumunda Azərbaycannın Afrin əməliyyatı ilə bağlı həssasiyyətindən razılığını bildirdi, təşəkkür etdi. "Qarabağda da Afrindəki kimi, Azərbaycan və Türkiyə terrora qarşı birgə əməliyyat keçirilə bilərmi" sualımıza hörmətli Yıldırımın cavabı əslində dost-düşmənə ciddi mesaj oldu. "Əgər dost və qardaş Azərbaycana buradan başqa bir təhdid yönələrsə, yaxud Türkiyəyə bu ərazilərdən bir terror təhdidi yönələrsə, qarşılığı mütləq olacaq".

Kimsə deməsin ki, bizə dəstək gərək deyil. ABŞ Konqresində Qarabağ separatçısı qəbul olunursa, bizə Türkiyə kimi nəhəngin dəstəyi çox lazımdır. Odur ki, Baş nazirin xəbərdarlığı yerində oldu. "ABŞ Qarabağdakı ermənilərə mükafat verməkdənsə, ordakı insanlıq suçunun hesabını istəsə, daha doğru olar". Qardaş ölkənin gündəmində Qarabağın əsas yer tutmasının müstəsna əhəmiyyəti var. Son xəbərdarlıq Türkiyə hakimiyyəti səviyyəsində bu xüsusda bir ilkdir, əminlik var ki, davamı gələcək. Türk-İslam torpağı Qarabağda qoşa bayraqlarımız sancılacaq günün birində! 1918-ci ildəki kimi. Şuşaya çox yaraşacaq bu qoşa bayraqlar!

---

**Azərbaycanda 11 apreldə keçiriləcək növbədənkənar prezident seçkisindən sonra Nazirlər Kabineti istefaya gedəcək və bir ay ərzində yeni hökumət formalaşacaq. Artıq indidən yeni prezidentin təsdiq edəcəyi yeni hökumətdə kimlərin təmsil olunacağı, kimlərin vəzifələrini itirəcəyi barədə ən müxtəlif fikirlər səslənməyə başlayıb.**



# "Artur Rasi-zadə spiker rolunu oynayır"

## Fəzail Ağamalı: "Seçkidən sonra o məmurlar hakimiyyətdən gedəcək..."

Belə iddialar var ki, indiki nazirlərdən bəziləri bu hökumətdə yer almayacaq. Hətta Nazirlər Kabinetinin vitse-prezidentlik institutu ilə bir çox hallarda paralellik təşkil etdiyi üçün bu kabinetin tamam buraxılacağı iddia edilir. Ən çox fikirlər isə baş nazir Artur Rasi-zadə ətrafında cərəyan edir. Qocaman baş nazirin yeni hökumətdə yer almayacağı, parlamentin son iclasında sonuncu hesabatını verdiyi bildirilir.



Ana Vətən Partiyasının sədri, deputat Fəzail Ağamalı "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, seçkidən sonra yeni hökumətin təsdiq olunması Azərbaycan qanunvericiliyinə və reallığına uyğun bir addımdır: "Prezident seçkisindən sonra baş nazir yenidən təqdim olunur. Mənə elə gəlir ki, 11 aprel seçkisindən sonra Azərbaycanda struktur islahatlarının aparılması daha intensiv bir mərhələyə daxil olacaq. Eyni zamanda, təbii ki, bunun məntiqinə uyğun olaraq, kadr dəyişiklikləri də aparılacaq. Bu, şübhəsizdir. Yeni nazirlərdən kimlərinsə olmayacağı kimi fikirlər səslənir. Nazirlərin işə təyin olunmaları, yaxud çıxarılması cənab prezidentin səlahiyyətlərindədir. Biz, sadəcə, bu və ya digər şəkildə fikirlərimizi bildirə bilərik. Görünən odur ki, ölkə başçısının komandası müəyyən istisnalar olmaqla, kifayət qədər yetkin və peşəkardır. Etimadı az-çox itirən, öz sahəsində durğunluq yaradan, cəmiyyətin sosial sifarişlərini lazımınca qiymətləndirməyən, dünyada gedən proseslərin çağırışlarına cavab verə bilməyən məmurlar hakimiyyətdən gedəcəklər. Necə ki, 2017-ci ilin sonunda vergilər naziri vəzifədən uzaqlaşdırıldı, yerinə islahatçı, cəmiyyətdə kifayət qədər nüfuz sahibi olan Mikayıl Cabbarov gətirildi. Bu cür insanların bundan sonra da hakimiyyətin yüksək pilləsinə gətirilməsi istisna olunmur. Çünki bunlar proseslərin məntiqindən irəli gəlir. Eyni zamanda, bu, kifayət qədər dinamik inkişaf edən, dəyişən dünyada gedən proseslərin çağırışlarına cavab verir. Yəni ölkədə siyasi və iqtisadi təhlükəsizliyin təmin olunması üçün hər şeydən əvvəl iqtisadi inkişafın təmin olunması, bunun dinamik xarakter daşıması, təkcə şəhərlərin deyil, regionların inkişafına diqqət yetirilməsi göz önünə gəlir. Bu baxımdan prezidentin həyata keçirmiş olduğu siyasət ən azından hər il ilin yekunlarına həsr olunmuş yığıncaqlarda prezidentin açılış və yekun nitqlərində bu məqamlar ciddi şəkildə önə çəkilir, proqram xarakterli konkret tapşırıqlar verilir. Prezident təkcə tapşırıqlarla kifayətlənmir, bunları sənədlər, sərəncam və fərmanlarda rəsmləşdirir. Ölkə daxilində əsas vacib olan amillərdən biri sabitliyin təmin olunması, vətəndaş cəmiyyətinin möhkəmlənməsi, demokratiyanın inkişafı, hüquqi və siyasi islahatların durmadan davamlı olaraq davam etdirilməsidir. Növbəti illərdə də əminəm ki, ölkə rəhbəri bu siyasətini davam etdirəcək. Xarici siyasətdə çoxqütblü, şaxələnmiş siyasətə üstünlük verilir, ikitərəfli görüşlər möhkəmləndirilir. Azərbaycan dünyada götürdüyü öhdəliklərə çox sadiq olan, sözü ilə əməli bir olan ölkə imicini qazanıb. Azərbaycan milli maraqlarını təmin edərkən başqa ölkələrin bu maraqlarını tapdalamır. Cənab prezidentin xarici siyasətinin unikal tərəfi budur. Azərbaycan transmilli layihələrin ortaya gətirilməsində və onun müəllifi, təşkilatçısı kimi çıxış etməsində də ciddi uğurlara imza atıb. Bu da dünya miqyasında Azərbaycanın təhlükəsizliyinin təmin olunmasına, mövqelərinin güclənməsinə mühüm töhfələr verir. Bunlar daxili siyasətdə də bu və ya digər şəkildə öz təsirini göstərir. Külli miqdarda valyutaların gəlməsi ölkə iqtisadiyyatının inkişafında öz töhfələrini verir. Bütövlükdə bu siyasətdə qarşıdan gələn prezident seçkilərində xalqın mütləq əksəriyyətinin böyük dəstəyi ilə bir daha prezident seçilən cənab İlham Əliyev tərəfindən davam etdiriləcək".

Deputat Artur Rasi-zadənin vəzifəsi ilə vidalaşacağı ilə bağlı səslənən iddialara da münasibət bildirdi: "Artur müəllim çox dəyərli dövlət adamıdır. İdeyalara, prinsiplərə, Azərbaycanın müstəqilliyinə, ulu öndərimizin siyasi xəttinə və prezidentimizin həyata keçirdiyi bugünkü siyasətə çox sadiq bir insandır, təmənnasız dövlət adamıdır. Yüksək peşəkarlıqla hökumət üzvlərinin bütün fəaliyyətini koordinasiya edə bilir. Xüsusi olaraq, siyasi və iqtisadi sferada olan bizim hökumətin üzvləri, yəni nazirliklər, komitələr və buna bənzər ayrı-ayrı baş idarələr, digər qurumlar cənab Artur Rasi-zadə tərəfindən çox böyük müvəffəqiyyətlə idarə olunur, əlaqələndirilir, bütöv bir komanda halında qarşıya qoyulmuş vəzifələrin yerinə yetirilməsinə özünün töhfəsini verir. Əslində bu hökumətin prezidentin tapşırıqlarının yerinə yetirilməsində Artur Rasi-zadə spiker rolunu oynayır. Yəni istiqamətləndirici, idarəedici, tənzimləyəciyi rol oynayır. Nə qədər ki, cənab Artur Rasi-zadəni ölkə prezidenti istəyəcəksə, bizim baş nazirimiz öz vəzifəsini icra edəcək. Çünki o, buna layiqdir. Qalan söhbətləri mən ayrı-ayrı şəxslərin düşüncələri və fantaziyalarının məhsulu kimi dəyərləndirirəm".

❑ Cavanşir ABBASLI,
"Yeni Müsavat"

# "Turan"ın direktorundan ABŞ, Rusiya və Azərbaycanla bağlı ilginc açıqlamalar

## Mehman Əliyev: "Putin müəyyən dairələrə mesaj verir ki, mən hər kəsi hər yerdə tapıb cəzalandıra bilərəm"

**"Baxış bucağı"**

**İllər boyu xarici ölkələrdə baş verən proseslərdə katalizator rolunu oynayan dünyanın supergücünün daxilində bu gün maraqlı və qəribə proseslər baş verməkdədir. Tramp administrasiyasında bir-birinin ardınca istefalar, hakim komandanın yenilənməsi prosesinin "dərinliklər"ə qədər gedib çıxması ciddi suallar ortaya çıxarıb. Paralel olaraq dünyanın digər qütbündə qərarlaşan Rusiya ilə bağlı cərəyan edənlər də müzakirə mövzularındandır. Bu iki dünya gücünün Azərbaycanda da kəsişən maraqlarının olması məsələyə həssas yanaşmamızı zəruri edir. "Turan" İnformasiya Agentliyinin direktoru Mehman Əliyevlə söhbətimizin məğzində bu dayanır.**

***- Mehman bəy, ABŞ-da nə baş verir? Ciddi kadrları ilə yollarını ayıran Donald Tramp bununla nə demək, nə etmək istəyir?***

- Trampın hərəkətləri bütövlükdə nəticə olaraq ABŞ ictimai-siyasi həyatına yeni gündəm gətirdi. Yəni ənənəvi oturuşmuş siyasi istiblişmenti faktiki olaraq o, başsız eləyir. Çünki əslində Amerikada hakimiyyətə cəmiyyət nəzarət edir, bu, vacib instrumentdir, amerikanlar həmişə bunu üstün sayıb, qoruyublar. Amma son illər yavaş-yavaş oturuşmuş elita əmələ gəlib. Görürük ki, ata-bala Buşlar, Klintonlar və s. siyasi bir klub yaradıblar özləri üçün. Faktiki olaraq bir az cəmiyyətdən ayrılıblar və cəmiyyətin nəzarəti bunlardan yan keçir. Tramp öz gəlişi ilə o sistemi silkələyib. Tramp bilərəkdən media ilə savaşa getməklə medianın diqqətini hakimiyyətin üzərinə cəlb edib. Yəni medianın siyasətə marağı, hakimiyyətin üzərinə nəzarəti, aqressivliyi artıb, bunu Tramp eləyə bilib. Amerika mütəxəssisləri bunu mənimlə söhbətdə də deyiblər.

***- Yəni Tramp heç də ağılsızlıqdan medianı özünə düşmən eləmir?***

- Yox. Misal gətirirlər ki, Tramp prezidentlikdən qabaq ilk olaraq şəxsən "Nyu-York Times" və "Vaşinqton Post"un redaksiyalarına gedib. Seçiləndən sonra da ilk müsahibələrini məhz həmin qəzetlərə verib. Bununla da bildirib ki, "mən sizinləyəm, sizin dəstəyinizə ehtiyacım var". Amma faktiki olaraq sanki bu media orqanlarını da tənqid edir. O mənada Tramp çox ciddi yenilik gətirib. Əslində biz son illərin prezidentlərinə diqqət etsək, Obama, Buş, Klinton və s. vaxtı ABŞ siyasətində bu ab-hava olmayıb. Lakin Tramp bunu edə bilib. O, siyasətdən gələn adam deyil, qubernator, konqresmen və s. olmayıb. Ancaq bu, biznesmen adamdır, lotu-potu kimi birdən gəlir, girir, başlayır davaya. Yəni bu, bir yenilikdir. Nə qədər tənqid də etsələr, Amerika siyasəti üçün vacib bir məqamdır.

***- Bütün bunlar ABŞ və Rusiya arasında gərginliyin son həddə qalxdığı situasiyanın fonunda baş verir. Putinin növbəti dövr üçün prezident seçilməsindən sonra nələr baş verəcək?***

- Rusiya 2013-cü ildən gizli, 2014-cü ildən açıq şəkildə ciddi böhrana girib, indi də böhran davam edir. Beynəlxalq maliyyə agentlikləri bildirirlər ki, artıq bu ildən başlayaraq Rusiyanın ümum-daxili məhsulunda 2 faizdən artıq artım olacaq. Rusiyada iqtisadi oyanış var və bu, sürətlənəcək. Amma real olaraq Rusiya uzun müddət problem içindədir. Putin də seçkiyə böhran şəraitində girib. ABŞ və Qərb üçün ilk növbədə Rusiyada stabilliyin qorunub-saxlanması vacibdir. Orada iki amil var. Bir tərəfdən təzyiq etməklə Rusiya cəmiyyətini Putin ətrafında səfərbər etmək. Çünki Putinin də gedişləri anti-Qərb gedişlərdir. Onu göstərmək istəyir ki, biz düşmənlər dairəsindəyik və bizi məhv etmək istəyirlər. Bu isə ölkəni səfərbər edir. İmperiya xalqı olan rus xalqında bu sistem işə düşür, nə qədər ac olsalar, onlar sanki mübarizə içindədirlər. İkinci məsələ ondan ibarətdir ki, tətbiq olunan sanksiyalar - sonuncu dəfə milyarderlərə qoyulan sanksiyalar - o deməkdir ki, Rusiyadan qaçan kapitallar təzədən ölkəyə qayıdır və Rusiya iqtisadiyyatına sərmayə kimi yatırılır. O da Rusiya iqtisadiyyatının dirçəlməsinə birbaşa təsir edir.

***- Adətən, ABŞ-dakı son seçkilərdə Kremlin Trampa gizli dəstəyindən bəhs olunurdu. Sizin arqumentlər isə o qənaəti yaradır ki, Tramp borcunu qaytarır və "təzyiq" dili ilə Putinə dəstək verir...***

- Bəli, burda əsas məsələ Putin ətrafında stabilliyin qorunmasıdır. Çünki böhrandır və narazılıq böyükdür. İkincisi də daxili potensialın, qeyri-neft sektorunun işə salınmasına təkan verməkdən söhbət gedir, Rusiyada bu proses çox uğurla gedir. Sonuncu atılan addımlar da ona hesablanıb. Həttə Londonda baş verən hadisəni götürsək, kim vurub, necə vurub, başqa məsələ, amma fakt odur ki, bu da Putinin xeyrinə işləyir. Çünki Kadırovun bəyanatı var idi, dedi satqınlar bilməlidir onların aqibəti necə olacaq. Düzdür, vurğuladı ki, o, heç kəsə lazım deyildi, çünki işlənmiş "material" idi. Amma fakt odur ki, bu, satqındır, satqını gedib hardasa tapdılar, vurdular. Rusiya cəmiyyətində də bu işləyir, ruslar deyir aha, bu, belədir, düz elədilər. Bu, yenə də Putinin adına işləyir. O biri tərəfdən isə Putin müəyyən dairələrə xəbər verir ki, mən hər kəsi hər yerdə tapıb cəzalandıra bilərəm. Necə ki, iki gün əvvəl Londonda Berezovskinin biznes adamı olan bir müttəfiqini də asıb öldürüblər. Bunlar məhz seçki astanasında baş verdi və nəticə olaraq Putinin imicinin daha da güclənməsinə gətirib çıxarır. Mən sadəcə olaraq faktları və nəticələri deyirəm. O ki qaldı Tramp və Putin məsələsinə, problem nədir? Əslində Trampın Rusiyada çox böyük layihələri olub, ruslarla çox geniş münasibətləri var. Amerika siyasi dairələri və Trampın özü başa düşür ki, o, müəyyən qədər ruslardan asılı vəziyyətdə ola bilər. Ona qarşı rusların kompromatı da ola bilər. Odur ki, hansısa məsələdə ruslara birbaşa "yox" deyə bilmir, çünki asılıdır. Ona görə bu işi onun yerinə başqaları edir. Yeni Trampın üstünə düşməklə, onu sıxmaqla, onu Rusiya ilə əməkdaşlıqda günahlandırmaqla əslində onlar Trampı Rusiyadan qoruyurlar. Rusiya üçün vacibdir ki, Tramp prezident olsun, amma müəyyən çərçivəyə qədər. Çünki Trampın üstündə ABŞ siyasətçilərinin, cəmiyyətinin nəzarəti var. Onlar bu nəzarətin olduğunu nümayiş etdirirlər və deyirlər "yaxın gəlməyin!"

***- Deməli, faktiki olaraq Tramp Putinə seçkiqabağı kapital qoymuş oldu, eləmi?***

- Təbii ki. Putin bəs niyə Tillersona orden vermişdi? Yəni bu bağlar var. Ona görə də "Rusiya izləyir" və s. nəzarəti rusların bu məsələlərdən istifadəsinə, hansısa formada təzyiqinə imkan vermir. Əsas məsələ budur. Bu yolla Trampı qoruyurlar.

***- Belə bir yanaşma var ki, 90-cı illərin əvvəllərində Ağ Ev Yeltsinə dəstək verməsə, Rusiya dağılacaqdı. İndi yenə də böhrana girmiş Rusiyaya "oksigen balonu" verilirsə, bu, son nəticədə köhnə imperiyanın dirçəldilməsinə aparmayacaqmı?***



**"Avropa Parlamentinin nümayəndələri mənimlə söhbətləri zamanı hətta deyirlər ki, sizdə vəziyyət Rusiyadan da yaxşıdır"**

### "ABŞ-ın yeni səfiri elə də tez gəlməyəcək"

- Yox, heç cür. Çünki sovet imperiyasının bərpası üçün nə potensial var, nə Rusiyanın hansısa formada istəyi. Əslində hakimiyyətə gələndən Putinin birinci çağırışı o oldu ki, biz daxildə cəmləşməliyik. Rusiya özünün bütün layihələrini postsovet məkanından yığışdırdı. Məsələn, "LUKoyl" da payını satıb burdan getdi. O, payını aparıb Rusiyaya qoydu. Yeni Rusiya bu gün daha çox öz daxilində layihələri həyata keçirməyə, öz iqtisadiyyatını qaldırmağa səfərbər olunub. Onun əsas maraqları, tələbatları daxilə yönəlib. O hələ daxili həzm eləyə, stabilliyi təmin edə bilmir. İqtisadiyyatını, səviyyəni qaldırmalıdır. Onun gücü çatmır ki, gedib nəyisə qaldırsın və çiynində aparsın. Həm də Rusiya bu gün dünya iqtisadiyyatına daha ciddi şəkildə inteqrasiya olunur, nəinki sovetlər birliyinə. Rusiya əgər bu addımı atırsa, onun nəyinə lazımdır geridə qalmış postsovet ölkələri, neyləyəcək onlarla? Bu mənada Rusiya üçün hansısa formada nəyisə bərpa etmək istəyi yoxdur, görüntü də yoxdur. Həttə Nazarbayev, Lukaşenko vaxtilə hansısa formada ittifaq yaratmağı təklif edib, ruslar buna getməyib, heç vaxt da getməyəcəklər.

***- Bir azdan Rusiya səfirliyi ilə yanaşı, ABŞ-ın ölkəmizdəki səfirliyi də səfirsiz qalacaq. ABŞ səfiri Robert Sekutanın Bakını tərk etməsinin gizli bir səbəbi varmı, sizcə?***

- Əslində səfir vaxtında gedir. Bu, o deməkdir ki, ABŞ birbaşa burdakı seçkilərdə iştirak etmir, amerikanlar burda yoxdurlar. Belə desək, "əllərini yuyurlar", aradan çıxırlar. Bu mənada vəziyyətə neytral qalırlar. Onlar başa düşürlər ki, əslində seçki qeyri-demokratik şəkildə keçirilir və s. Sadəcə olaraq bu prosesdə iştirak etmək, görünmək istəmirlər. Qısa dövrdə müəyyən bir vakuum olacaq. Seçkidən sonra, hər şey oturuşandan sonra yeni proseslər başlayacaq. Hesab edirəm ki, yeni səfir elə də tez gəlməyəcək, hardasa payıza yaxın gələ bilər, ondan tez olmaz. Hər şey ondan asılı olacaq ki, Azərbaycan hakimiyyəti, birinci növbədə prezident hansı siyasəti aparacaq və o siyasətə uyğun olaraq bura səfir gətiriləcək. Bu, o demək deyil ki, səfir gəlib öz siyasətini aparacaq. Sadəcə, yeni siyasətə uyğun olan səfir göndəriləcək. Hansı siyasət həyata keçiriləcək, o, artıq İlham Əliyevin gedişlərindən asılı olacaq.

***- Seçkidən sonra yeni hökumətin qurulacağı barədə qənaətlər çoxalıb. Sizdə də gözlənti var?***

- Mən hələ referendumda Qərb tərəfdən susqunluğun olduğunu demişdim. Biz məhz o dövrdən hesablamalıyıq ki, müəyyən bir razılaşma var. Baş verən indiki seçki prosesi də bunun nəticəsidir. Biz gördük ki, elan olunmuş seçkilərə də heç bir təpki, etiraz olmadı. Avropa Parlamentinin nümayəndələri mənimlə söhbətləri zamanı hətta deyirlər ki, prinsipcə sizdə vəziyyət Rusiyadan da yaxşıdır. Yəni seçki texniki seçkidir. Əslində bunlara çevik şəkildə seçki keçirmək və yeni situasiya yaratmaq lazımdır. Nəyə görə? Ona görə yox ki, məsələn, neftə görə. ABŞ-la razılaşdırılmış 12 yol xəritəsi mövcuddur. Avropa Birliyi ilə isə strateji müttəfiqlik haqqında saziş imzalanması prosesi gedir. Yəni hər iki tərəfə vədlər və razılaşma var.

***- Deməli, Azərbaycan hökuməti Qərbə inteqrasiya etməkdə israrlıdır. Bəs, Rusiya bu prosesə sürpriz edə bilərmi?***

- Yox. Əgər Ermənistan bunu edibsə... Hansı ki, İrəvan bütün nöqteyi-nəzərdən, iqtisadi, hərbi-təhlükəsizlik və başqa cəhətlərdən Rusiyadan çox asılıdır. Əgər Rusiya buna imkan və icazə veribsə, Azərbaycanın nə problemi ola bilər?

***- ABŞ Konqresində erməni separatçısı Bako Saakyana yer verilməsi Azərbaycana təzyiq sayıla bilməzmi?***

- Əslində bu kimi hallar Fransa da olmuşdu, daha əvvəl ABŞ-da da olub. Amma real vəziyyət var. ABŞ, Fransa, Rusiya vasitəçidir. Bu mənada prosesi tənzimləmək məqsədilə görüşlər keçirirlər. Lakin bu, o demək deyil ki, separatçını qəbul etdi və onu tanıyır. Biz gözləyirik ki, 2018-ci ildə Qarabağ məsələsi canlanmalıdır və sülh prosesi sürətlənməlidir. Çünki 2017-ci ildə buna təkan verilmişdi, canlanmanı gördük, prezidentlər də görüşdü. Ona görə üç ölkədə seçkilərin eyni vaxtda keçirilməsi də imkan yaradır ki, Qarabağ prosesi yaz aylarından canlanmağa başlayacaq.

***- Bəs, yenidən 5 rayonun qaytarılacağı söhbəti barədə nə demək olar?***

- Bundan əvvəl sülh sazişi imzalanmalıdır. Biz mərhələli həll yolunu istəyirik. Ermənilərsə qarantiya istəyirlər. Onlar deyir, nələrin veriləcəyi əksini tapsın. Amma beynəlxalq müşahidəçilər bu fikirdədir ki, status Azərbaycanın rəyi olmadan heç cür dəyişə bilməz. Yeni prosesdə bütövlükdə mərhələli həllə üstünlük verilir. Bu mənada proses bizim xeyrimizə gedir. Gözləntim odur ki, getdikcə sülh yolu ilə həll şansı daha da artır. Əslində regionda bölgü artıq baş verib. Yeni ittifaq, münasibətlər yaranır. Ermənistanın Avropa Birliyi ilə saziş imzalaması onu göstərir ki, əslində Rusiya da burada kompromisə gedir. Sabah Azərbaycan da bunu edəcək. Region kompromislər şəklində yavaş-yavaş oturuşur və bu da imkanlar yaradır. Sabah tərəflər problemi tezliklə həll etməyə maraqlı olacaq. Deyilir ərazi bütövlüyü və xalqların öz müqəddəratını təyinetməsi. Deməli, sintez nə ola bilər? Ancaq sərhədlər çərçivəsində bu ola bilər də. İlham Əliyev sonuncu dəfə təxminən Naxçıvan kimi muxtar respublika statusunu təklif etdi, bəlkə də ondan üstün. Qarabağ məsələsinin həllinin ondan başqa yolu yoxdur. Əslində problemin həlli demokratiyadan keçir. Nə zaman ki, burda da, orda da demokratiya oturuşacaq, onda nizamlama daha sürətli ola bilər. Lakin o vaxta qədər ciddi dəyişiklik gözləmirəm. Çünki Qarabağ özü də tərəflərə təzyiq vasitəsidir ki, "yavaş-yavaş dəyişin!" Ona görə də bu təzyiq vasitəsini əldən buraxmayacaqlar.

❑ **Elşad PAŞASOY,**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 62 (6951) 19 mart 2018

# Hamam hamam içində



Zamin HACI
zaminhaci@gmail.com

**"Qaynana" filmində bir səhnə vardı, yanlış olaraq yanğınsöndürənləri çağırırlar, onlar evə girəndə gəlin və qayınananın əcaib söhbətlərindən, münasibətlərindən çaşırlar, içəridə yanğın olmasa belə biri aşağıdakı su maşınına tərəf deyir: "Ə, bura başdan-ayağa dəlixanaymış ki! Əlibala, ver gəlsin!".**

İndi bizim telekanalizasiya məkanı başdan-ayağa, soldan-sağa, diaqonal boyunca məhz həmin dəlixananı xatırladır. Və bu diaqonalın ortasındakı Avgi tövləsini yumaq üçün nəinki Əlibalanın yanğınsöndürən şlanqı, heç Heraklın axarını döndərəcəyi Kür və Araz çayları da bəs etməz.

Doğrusu, mən televizora baxmıram, çoxdandır bu zərərli adəti tərgitmişəm, efirlərdən (bu da bizim gicbəsər manısların və idiot aparıcıların uydurduğu bir texniki "yenilikdir"; biz neçə ildir bunlara başa sala bilmirik ki, efir cəm şəklində ola bilməz, efir həmişə təkdir, o efirdə kanallar fərqlənər uzağı, bu da hərçənd bizdə çoxdan qeybə çəkilmişdir) xəbərsizəm. Ancaq qəzetlərin, saytların yazdıqlarından ara-sıra xəbər tuturam ki, belə bir şey olmuşdur. Hansısa rayonda qoyun toyuq doğmuşdur, hansısa manıs başqa manısın ərini qanunsuz olaraq qaçırtmışdır, aparıcı efirə alt tumanında çıxmışdır, nə bilim, Kosa şəkərburanı Keçəlin gözünə soxarkən tərəfimizdən aşkar edilib götürülmüşdür, bu münasibətlə indi arazidə müstəntiq işləyən Gülbala Atamoğlanov müsahibə verəcəkdir və sairə. (Atamoğlanov hansısa müdirin qardaşı oğlu olmalıdır mütləq, hərçənd, xəbərlərdə bu cür intim detallar xalqa açıqlanmır).

Üstəlik, belə xəbərlər həmişə cəmiyyətin, jurnalistlərin yalançı, kvazi-ah-vayları ilə (bu terminin müəlliflik hüququnu QMİ-yə bağışlayıram) müşayiət olunur. İctimai xədimlər, üzr istəyirəm, xadimlər, deputatxana üzvləri, jurnalistika qırıntıları və sairə bu efirləri müzakirə edirlər, guya dilxorçuluqlarını büruzə verirlər. Guya belə olmalı deyilmiş. Guya Gültuman və Gülyaman bacılarının apardığı veriliş Opra Uinfri-nin reytinqinin qabırğalarını qırmalıymış. Guya manıs Zayqulu Qəmli efirə tumançaq çıxarkən başına buxara papaq qoysa milli mentalitetimizə uyğun gələrmiş. (Burada Vaqif Səmədoğlunun ruhuna bir salavat zikr edək). Guya, guya, guya... Ancaq heç kim köhnə teletamaşada Hacıbaba bəyin qəhrəmanının verdiyi sualı verməyəcək: "Nöş belə oldu, Çibuş?!"

Televizor - iki qədim yunan sözündən qayrılmış sözdür. Tele - uzaq, vizio - görürəm deməkdir. Yəni, uzaqgörən. Necə də gözəldir... Necə də mənalıdır. Əlbəttə, çoxları bu mənanı anlamazlar. Ancaq bizim onlarla nə işimiz? Biz sözümüzü hamamda yatanlar, it boğuşduranlar, fala baxanlar, dərviş nağılına qulaq asanlar üçün yazırıq. Bir ara dilçilik idarəsi təzə sözlər düzəldirdi, bəlkə biz televizor sözünü də ana dilimizə uyğunlaşdıraq? Yox, uzaqgörən qoymayaq. Düşər-düşməzi olar. Təklif edirəm, telegüzgü olsun. Axı belə klişe, sürtük fikir də var - televiziya cəmiyyətin güzgüsüdür.

Hə, bax, burada biz Çibuşun da yerinə (iraq olsun) həmin suala cavab verə bilərik. Həyat belədir. Güzgü həmişə olanı göstərir. Az və ya çox göstərə bilər, siyasi hökumətin əlində alət ola bilər, ancaq həmişə orada həyatdan bir parça mütləq görünəcəkdir. O parça isə efirə hamam xalatında çıxmağı zəruri edir. Əks halda nəyə baxacaqlar? Bir qədim Azərbaycan ata sözü var, deyir, bir gecənin fahişəsi qırx ilin arvadından çox bilər. Reytinqi, görürsünüzmü, necə dəqiq müəyyən ediblər?! Müdrik kişilər olub e... Bizim kimi boş-boş işlərlə məşğul olmayıblar. Misal üçün, mən iki gündür Vord proqramının əlində yesir qalmışdım, kompüterimdə onun problemini qayıra bilmirdim. Şahzadə Abbas Mirzənin əsgəri kimi iki əsr qabaq Arazı keçib Quzey Azərbaycana gəlmiş ulu babam bunu görsə kim bilir mənim əfəlliyim haqda nə düşünərdi...

Həyatı ictimai hamamxanaya döndəribsənsə, orada xalat hələ abırlı geyimdir. Hörmət qoyurlar, başa düşmürsünüz.



# Ağaya qarşı de-marş, Ağ Evə reverans - İrəvan odla oynayır

## Kreml separatçı Bako Saakyanın Amerika səfərindən məmnun deyil - mühüm gəlişmə; **türkiyəli analitik:** "Rusiyanın reaksiyası özünü çox gözlətməyəcək"; **Saakyanın Amerikada peyda olmasının daha bir ilginc motivi:** "Ermənilər müharibədən qorxur, ABŞ-dan himayə umurlar..."

**Ötən ilin sonlarından etibarən Ermənistanın "iki stulda" oturmaq siyasəti daha qabarıq şəkildə özünü büruzə verməkdədir. Bu siyasətin qayəsində isə Rusiyanın satellit-müttəfiqi ola-ola, İrəvanın Qərbin timsalında özünə alternativ müttəfiq tapmaq məramı durur. Şübhə yox ki, Kremldə baş verənləri görür və qiymətləndirirlər.**

Ermənilər xüsusilə də ötən ilin sonlarından hamıya xəfif mesajlar ötürürlər ki, günün birində indiki ağası Rusiyanı başqasına dəyişə bilərlər. 2017-ci ildə NATO təlimlərində intensiv iştirak, İrəvanın mərkəzində faşist əlaltısı Qaregin Njdeyə qoyulan abidə, keçən ilin noyabrında Avropa Birliyi ilə imzalanan tərəfdaşlıq sazişi, Serj Sərkisyanın bilavasitə dəstəyi ilə bu ilin martında qərbyönlü Armen Sərkisyanın Ermənistanın yeni prezidenti seçilməsi, nəhayət, Qarabağ separatçıların lideri, Azərbaycan türməsinin darıxdığı terrorçubaşı Bako Saakyanın ABŞ-Rusiya münasibətlərinin kəskinləşdiyi dönəmdə ABŞ-a getməsi - bütün bunlar sözsüz ki, ikiüzlü xarici siyasətin parlaq təzahürləridir.

İrəvanın Kremlə qarşı bu de-marşlarına artıq Moskvadan rəsmi (XİN nümayəndəsi Mariya Zaxarova timsalında) və ekspertlər səviyyəsində neqativ reaksiyalar və təpkilər gəlib. Ermənilərin ünvanına xəbərdarlıqlar səslənib, işğalçı ölkə Moskvaya qarşı nankorluqda ittiham olunub, hətta Ermənistan "ərinə gizli xəyanət edən vəfasız arvad"a bənzədilib. Qalır indi Sərksiyanın əlaltısı və cinayət ortağı Bako Saakyanın ABŞ-da vurnuxmasına Kremlin reaksiyası.

Yeri gəlmişkən, Mariya Zaxarova ilkin açıqlamasında Saakyanın Amerikaya gedişinə reaksiya verməsə də, diplomatik tərzdə bundan məmnun qalmadığını da gizlətməyib. Eyni zamanda o, ermənilərin iddiasına rəğmən, Rusiyada separatçı rejimin nümayəndəliyinin mövcud olmadığını söyləməklə ermənləri məyus edib.

Şübhəsiz ki, işğalçı ölkə Azərbaycan vətəndaşı sayılan B.Saakyanın Ermənistan vizası əsasında ABŞ-a səfəri ilə hər şeydən öncə ikinci saxta erməni "dövləti"nə legitimlik qazandırmaq, onu beynəlxalq münasibətlərin subyekti kimi tanıdıb danışıqlar prosesinə tərəf qismində qoşmaq niyyəti güdür. Digər hədəf haqda isə az yuxarıda yazdıq - Qərbə, ABŞ-a reverans, istənilən an Amerikaya, Avropaya satılmağa hazır olmaq haqda mesaj.

*****

"Yeni Müsavat"ın məlumatına görə, bu xüsusda türkiyəli tanınmış analitik, "Ankara-Moskva" Strateji Tədqiqatlar Mərkəzinin eksperti Engin Özerin separatçı liderin qanunsuz Amerika səfəri ilə bağlı rusdilli Vesti.az nəşrinə şərhi maraq doğurur.

Türkiyəli politoloq öncə qeyd edib ki, nə bütövlükdə Bako Saakyanın ABŞ səfəri, nə də onun Konqresdə keçirdiyi görüşlər heç bir önəm daşımır: "Ayrı cür olsaydı, Bako Saakyanın görüşdüyü şəxslər reklam olunardı. İndi bütün erməni KİV-ləri hay-küylü bəyanatlarla bərq vurardu. Ancaq göründüyü kimi, ümumi sözlərdən başqa ortada heç nə yoxdur".

Politoloqa görə, separatçıların liderinin ABŞ-a gəlişi çıxılmazlığın təzahürüdür: "Onlar mənəvi dəstəyə ehtiyac duyurlar. Bu üzdən də ciddi erməni lobbisinin olduğu ABŞ-a gedirlər. Lakin bütün bunlar, keçirilən görüşlər izafi vaxt itkisindən savayı bir şey deyil".

Bununla yanaşı, türkiyəli ekspert Saakyanın ABŞ-da peyda olmasının daha bir ilginc səbəblə bağlı olduğunu düşünür. "İstisna deyil ki, tezliklə Dağlıq Qarabağda situasiya kəskinləşəcək. Separatçılar da buna görə narahatdırlar və ABŞ-a müdafiə olunmaqda kömək üçün gəlirlər. Təbii ki, heç kimlə münasibətləri korlamaq istəməyən amerikanlar bəyan edələr ki, onlar sülhün tərəfdarıdır və regionda sabitlik üçün mümkün köməyi göstərəcəklər. Amerikanlar sözdə, vəd verməkdə üryəgenişdirlər. Ancaq nə olur-olsun, separatçı rejimin nümayəndələri nə bəyan edir- eləsinlər, həqiqət başqadır. Əksinə, onlar bununla bir növ özlərinin önəmini artırır və özlərinə təsəlli verirlər. Bütün bu səfərlər, görüşlər, separatçıların boğazdan yuxarı bəyanatları yalnız bir məqsədə xidmət edir - özünə diqqət çəkmək", - deyə analitik qeyd edib.

"Onların özlərini təbliğ eləməsinə ehtiyacları var. Onlara lazımdır desinlər ki, "qorxmayın, biz sizinləyik, sizi incitməyə imkan verməri̇k". Ancaq ABŞ ayrı hədəf güdür. Vaşinqton Rusiyanın təsirini azaltmaq üçün Ermənistanı öz toruna salmaq istəyir. Bunu artıq Gürcüstanla edib. İndi də erməni-rus əlaqələrinə ziyan vurmaq, Ermənistanın Rusiya ilə ticarət dövriyyəsini minimuma endirməyə çalışır. Ancaq Moskva baş verənləri kənardan seyr eləməklə kifayətlənməyəcək və onun reaksiyası özünü çox gözlətməyəcək" - sonda ekspert əlavə edib.

*****

Söylənilənlərdən belə qənaət hasil olur ki, Ermənistan indi odla oynayır. Çünki bundan sonra Rusiya onun rəqib-düşmənləri ilə dost olanların davranışına xüsusi diqqət yetirəcək. Ermənistan isə Rusiya üçün müttəfiq olmaqdan çox, ondan asılı bir ölkədir, faktiki, vassaldır.

Başqa sözlə, bir var Azərbaycan kimi müstəqil xarici siyasət kursu aparan, Moskvadan iqtisadi, energetik, kommunikasiya asılılığında olmayan Azərbaycan ABŞ-a, Qərbə reverans eləsin, bir də var Kremlin asanca cəzalandıra biləcəyi, hər mənada Rusiyadan, onun təbii qazından, parasından, kreditindən, silahından asılı olan işğalçı və cırtdan Ermənistan. Bu üzdən separatçı rejimin başçısının ABŞ-a səfəri ermənilərə ciddi siyasi dividentlər yox, əlavə başağrısı gətirə bilər. Səfəri fiasko da saymaq mümkündür...

**❑ "Yeni Müsavat"ın analitik xidməti**

YENİ MÜSAVAT
N 62 (6951) 19 mart 2018





# Rus biznesinə öldürücü zərbə - Rusiya təklənir

## Qərb dünyası Putinə qarşı birləşdi - sensasion gəlişmə, özəl bilgilər; Britaniyadakı zəhərlənmə olayı böyüyür; rusları və hətta ailə üzvlərini hər yerdə sıxışdırmaq kursu götürülüb; **daşınmaz əmlaklara həbs qoyulur, deportasiya siyahıları tutulur:** Trampın yanında keçirilən təcili müşavirədə nələr müzakirə olunub...

**SSRİ Baş Kəşfiyyat İdarəsinin (QRU) sabiq casusu Sergey Skripal və qızı Yuliyanın Londonda zəhərlənməsi olayı sürətlə böyüyür. Olay az qala, Rusiya ilə Qərb arasında yeni və böyük siyasi qalmaqala çevrilməkdədir. Qalmaqaldan ən böyük itki ilə isə, belə görünür, elə Rusiya çıxmalı olacaq. Çünki İngiltərənin mövqeyini və ittihamlarını ABŞ, Fransa, Almaniya, Yaponiya və digər nüfuzlu dövlətlər, hətta BMT də bölüşür, insidentə görə Rusiyanı suçlu bilirlər.**

"Yeni Müsavat" xatırladır ki, Skripal və qızını martın 4-də, London parklarının birində sinir sistemini iflic edən naməlum toksik qazla ("Noviçok") zəhərləyiblər. Onları bağda huşsuz vəziyyətdə tapıblar. Xəstəxanada isə hər ikisi komaya düşüb.

Britaniya hökuməti Skripal və qızının zəhərlənməsində Rusiya kəşfiyyatının əli olduğunu bəyan edib. Baş nazir Tereza Mey martın 12-də verdiyi açıqlamada Skripal və qızının SSRİ-də istehsal edilmiş kimyəvi silahla zəhərləndiklərini bildirib. Hadisə ilə əlaqədar Rusiyanı ittiham edən T.Mey bunu Böyük Britaniyaya qarşı akt kimi qiymətləndirib. Martın 14-də T.Mey Rusiyaya qarşı sanksiya xarakterli qərarları açıqlayıb. Bu qərarlara əsasən Rusiya ilə rəsmi səviyyədə təmaslar dayandırılıb və 23 rus diplomatı ölkədən qovub.

Az sonra Rusiya analoji addım ataraq 23 ingilis diplomatı ölkədən çıxarıb. Rusiya Xarici İşlər Nazirliyi Sankt-Peterburqdakı Britaniya Konsulluğunun bağlanacağı və Böyük Britaniyanın Sankt-Peterburqda ümumi konsulluq açmaq üçün icazəsinin ləğv ediləcəyini də bəyan edib.

*****

Bu da hamısı deyil. Gündəmə həmçinin, Rusiyada bu ilin yayında keçiriləcək futbol üzrə Dünya Çempionatının boykotu məsələsi gəlib. "DÇ-nın boykotu açıq-aşkar variantlardan biridir", - deyə "The Times" nəşri yazıb. Nəşrin ehtimalına görə, boykot ideyasını bir çox ölkələr dəstəkləyə bilər.

Rusiyaya qarşı başqa, iqtisadi-maliyyə xarakterli cəzalar da yavaş-yavaş işə düşür.

"Yeni Müsavat"ın özəl və mötəbər qaynaqlara istinadən əldə elədiyi bilgilərə görə, artıq dünəndən etibarən Böyük Britaniyada Rusiya vətəndaşlarına məxsus daşınmaz əmlaklara inzibati həbslərin qoyulmasına başlanılıb. Hökumətin emiqrasiya qurumları isə İngiltərədən deportasiya ediləcək rus vətəndaşların siyahısını hazırlayır.

Deportasiyaya ilk növbədə rusiyalı məmurların Böyük Britaniyada təhsil alan uşaqları və həyat yoldaşlarına şamil ediləcək. Bu xüsusda maraqlı fakt: tanınmış rus biznesmenlərindən birinin İngiltərədə oxuyan 13 yaşlı oğluna elə beləcə də deyiblər ki, "ölkədən çıxacaqsan".

Bundan əlavə, məlumatlara görə, Səudiyyə Ərəbistanı banklarının nümayəndələri aktivlərin dondurulması və Rusiyaya köçürülməsi mövzusunda məsləhətləşmələr aparır (Hazırda pul çıxarışının əsas axını Səudiyyə vasitəsilə həyata keçirilir). Bu arada Cənubi Kipr (yunan) hökuməti də bəyan edib ki, Rusiyaya qarşı Britaniyanın istenilən addımını dəstəkləyəcək. Söhbət investisiya proqramları əsasında Kipr vətəndaşlığı almış (qanun buna icazə verir) Rusiya oliqarxları və məmurlarının Kipr vətəndaşlığından məhrum olunmasından, həmçinin, Kipr banklarındakı bu vəsaitlərin mənbəyini araşdırmaq təşəbbüsündən gedir.

Maraqlıdır ki, dünən ABŞ prezidenti Donald Trampın yanında təcil müşavirə keçirilib və həmin müşavirəyə təcili qaydada bir sıra ölkələrin nümayəndələri gəlib. Bunlar Böyük Britaniya, İsrail, Səudiyyə Ərəbistanı, Misir, Birləşmiş Ərəb Əmirlikləri, Fransa, Almaniya, İsveçrə, Norveç, Kanada, Kipr (yunan), İtaliya, Yaponiya, Hollandiya, İsveç və BMT təmsilçiləridir.

Gələn məlumatlarda o da bildirilir ki, Rusiyanın Müdafiə Nazirliyi, həmçinin internetə qoşulan bir sıra hökumət serverləri dünən kiber-hücuma məruz qalıb.



*****

Beləcə, "Rusiya barmağı"nın heç bir şübhə doğurmadığı zəhərlənmə insidenti həqiqi mənada bumeranq effekti ilə Rusiyaya qayıtmaqdadır. Özü də Moskva üçün ən həssas istiqamətlərdə. Gələn informasiyalara görə, ümumiyyətlə, harada Rusiya vətəndaşı var, - əsasən Qərb ölkələrindən söhbət gedir, - onun biznesinə, mülkünə əl qoyulması prosesi başlayıb.

Bütün bunlar isə Rusiyanın onsuz da zəif olan iqtisadi-biznes, maliyyə göstəricilərini daha da pisləşdirməklə yanaşı, Rusiya oliqarxiyasının prezident Putindən narazılığının artacağı, ölkənin getdikcə daha təklənmiş və dünyadan təcrid olunmuş duruma düşəcəyi deməkdir.

Diqqətçəkici məqamlardan biri də baş verənlərin Rusiyada dünənki prezident seçkisi ərəfəsinə təsadüf eləməsi çəkir. Bunu növbəti 6 ilə prezident olacağı şübhə doğurmayan V. Putun üçün "seçki sürprzi", yaxud "seçki zərbəsi" də adlandırmaq olar. Belə görünür ki, bunlar, hələ "jurnal"dır. "Kino" isə qabaqdadır...

❑ **Siyasət şöbəsi, "Yeni Müsavat"**

# "Zeytun budağı" qırılmadı - Bravo, məhmətcik!..



**Zahid SƏFƏROĞLU**
zsafaroglu@gmail.com

**Bu da çoxdan gözlənilən müjdə: Türkiyə Afrin aşırımını da aşdı. İllərdir xaricdən ən müasir silahlarla təchiz edilən, güclü maliyyə imkanlarına malik, əhalidən qalxan kimi istifadə edən terrorçu təşkilatların (PKK/PYD/YPG) nəzarətindəki Afrin 2 aydan da az müddətdə Türkiyə Silahlı Qüvvələri və müttəfiq ASO-nun nəzarətinə keçdi.**

Bu, təkcə hərbi qələbə deyil, öncəliklə siyasi zəfərdir. Qardaş ölkənin regional supergüc qismində növbəti və ciddi özünütəsdiqidir. Bunlar öz yerində. Türkiyə "Zeytun budağı" əməliyyatı ilə dünyaya, qlobal güclərə mülki əhaliyə xətər yetirmədən, sanki zərgər dəqiqliyi ilə terrorçuluqla necə silahlı mübarizə aparmağın gözəl örnəyini göstərdi. Yoxsa ki, Afrin bölgəsi cəmi bir həftəyə də terrorçu-separatçı ünsürlərdən təmizlənərdi.

Bu, hərbi əməliyyatdan daha çox, yüksək texnoloji dəqiqlik və məsuliyyətlə həyata keçirilən "cərrahi əməliyyat" idi. Türkiyə səbirlə, addım-addım öz hədəfinə yaxınlaşdı və çatdı. "Zeytun budağı" qırılmadı. Afrinə türk bayrağı sancıldı. Həm də Çanaqqala zəfərinin ildönümündə. Bravo, məhmətcik!

Türkiyəni antiterror əməliyyatına görə lap əvvəldən asıb-kəsənlər, onun arxasınca danışanlar qoy indi gəlsinlər Afrinə və öz gözləri ilə görsünlər: iddia elədikləri böyük dağıntılar, sivil insanların kütləvi qətliamı varmı? Türkiyə parlamentinin erməni əsilli deputatı, iftira dağarcığı Karo Paylanın dediyi soyqırım əlamətləri necə, gözə dəyirmi? Afrin əməliyyatları zamanı dinc insanlar arasında az sayda itki varsa da, bu, müstəsna olaraq, terrorçuların onlardan qalxan kimi istifadə eləməsi nəticəsində oldu.

Əslinə qalsa, Türkiyəyə qarşı əsassız irad və tələblərin hamısının arxasında məkrli dairələrin, erməni lobbisinə bağlı çevrələrin gözü götürməzliyi, qardaş Türkiyəyə, onun hərbi qüdrətinə olan qısqanclıq, türk ordusunu, məhmətciyi gözdən salmaq, bununla da qardaş ölkəni beynəlxalq birliyin qınağına gətirmək məramı dayanırdı.

Modern müsəlman ölkəsi və NATO üzvü kimi Türkiyənin bölgədə daha aparıcı rola və ön mövqeyə sahiblənməsi, regional supergücdən qlobal supergücə çevrilməsi şübhə yox ki, çeşidli mərkəzlərin ürəyincə deyil. O ünvanları hamı tanıyır. Onlardan biri hətta Türkiyənin üzv olduğu NATO-da mövcuddur. NATO üzvü Türkiyəyə Alyansda sanki ögey müttəfiq kimi baxırlar. Ötən ilin payızında Norveçdə NATO təlimləri zamanı Türkiyə dövlətinin qurucusu Atatürkün, prezident Ərdoğanın aşağılanması insidenti yada düşürmü?..

Fəqət, regionda vazkeçilməz rola, missiyaya malik Türkiyə öz millətinin, hətta islam ümmətinin maraqları nə tələb edirsə, onu tərəddüdsüz edir və edəcək. Buna kimsənin quşqusu olmasın. Afrindən dünyaya verilən bir mühüm mesaj da budur...

Əlbəttə ki, Türkiyənin zəfəri Azərbaycanın zəfəri, qəmi bizim qəmimizdir. Son uğurdan bizə də pay düşür. Ən əvvəl də o səbəbə ki, türkdən, türk əsgərindən vəhşi, xoxan obrazı düzəldənlərin apardıqları təbliğatı bununla növbəti güclü zərbə aldı, türk xofu ilə bağlı yaradılmış neqativ mif dağıldı.

Demək ki, Azərbaycan da eyni təcrübədən yararlanıb, Dağlıq Qarabağda oxşar operasion yapa, mülki əhaliyə maksimum xətər yetirmədən antiterrorv əməliyyatı apara bilər - müvafiq diplomatik və ön siyasi hazırlıqları görmək şərtilə təbii ki. Deməli, sərkisyanların, köçəryanların türk soyu əleyhinə apardıqları və işğalçı siyasətə bəraətə hesablanan ksenofobik təbliğat, ermənilərlə "vəhşi türklər" birgə yaşaya bilməz" iddiası da puç olub gedir...

Bundan əlavə, Türkiyənin uğurlu antiterror əməliyyatı onun gücünə güc qatmaqla yanaşı, digər həmsərhəd bölgələrdə, o cümlədən Cənubi Qafqazda onun söz sahibliyini, Qarabağ məsələsində qardaş ölkənin Rusiyaya təsir imkanlarını artıracaq. O üzdən ən çox pəjmürdə olanların sırasında PKK-çılar və onun havadarları ilə yanaşı, erməniləri də görmək çox xoşdur...



# Mənim "o" hərfim

Sevinc TELMANQIZI
s.qurbanova@gmail.com

**Kompüterimdə bir neçə aydır "o" hərfi işləmir. Daha doğrusu, üzərində "o" hərfi olan klaviatura düyməsi. Demokratiyada çarələr tükənmədiyi üçün mən də hər dəfə yazı yazmağa başlayanda hazır bir mətndən həmin hərfi "copy" edib, içində "o" hərfi olan sözü yazmaq lazım gələndə "copy-past" düyməsini işə salıram.**

Beləcə, noutbuku ustaya verib, sonra onun taleyi ilə bağlı narahat olmaq qayğısını belə həll etmişəm. Bir də çalışıram ki, başında, sonunda, ortasında "o" hərfi olan sözlərdən maksimum az istifadə edim. Məsələn, optimal sözünün əvəzinə "uyğun, sərfəli", "qovmaq"ın əvəzinə dalınca düşmək və sair. Bununla da söz ehtiyatımı zənginləşdirir, sinonim variantları ilə bağlı beyin oyunu qururam.

Amma bilirəm ki, əksər azərbaycanlılar da mənim kimi yaşayır. Məsələn, evində su çəni işləmirsə, suyunu vedrədə saxlayır. Ya da qış paltosundan çıxıb yaz gödəkçəsinə keçə bilmirsə (gödəkçəsi yoxdursa), paltonun altından qısaqol geyinməklə yazı bir şəkildə başa vurur. Yəni, daha funksional, praktik olmaqla həyata qarşı səsini çıxarmaq deyirlər buna. Bəzən kasıblığın, çarəsizliyin yaratdığı duruma fəlsəfi don geyindirmək yaxşıdır, insan özünü yüngülləşdirir. Bir tanışım var, təxminən üç ay öncə maşınının sağ tərəfini divara vurub əzib. Təbii, onu düzəltdirməyə nə vaxt, nə də maddi imkanı var. "Niyə bunu düzəltdirmisən" deyə soruşanlara isə üzünə müdrik ifadə verib söyləyir ki, "bu, mənim səhvimdir. Hər səhər ona baxıb, tələskən maşın sürməyin hansı nəticəyə gəldiyini xatırlayıram. Görk üçün saxlayıram".

Maşın demiş, dünən şəhərin mərkəzində, metronun "28 May" stansiyası yaxınlığında, park üçün nəzərdə tutulmuş yerdə maşın saxladım. Yaxınlıqdakı marketin işçisi gəlib dedi ki, əgər marketimizdən bazarlıq etməyə gəlməmisizsə, burda saxlaya bilməzsiz. Çünki bura bizim müştərilərimiz üçündür. Mübahisə, çək-çevir, sənəd tələb etdim. Az keçmədən əllərində bir müqavilə gətirdilər ki, aylıq 250 manat ödəməklə Bakı şəhər İcra Hakimiyyətindən buranı icarəyə götürüblər. Müştəriləri üçün rahat olsun deyə. "Ya gəlin, marketdən bazarlıq edin, ya da maşını burda saxlaya bilməzsiniz". Təsəvvür edin, parkinq aparatına pul ödəyirsən, çekin əlində. Market sahibi gəlib deyir ki, mənim mağazamdan alış-veriş etmirsənsə, maşını burdan çəkəcəksən.

Həmkarım Seymur Kazımovun belə situasiyalarla bağlı "olmaz" adlı maraqlı bir yazısı var. Həmkarımız yazır ki, "Azərbaycanda çoxlu sayda balaca "padşah" var. Onların əsas işi yuxarı dairələrin qoyduğu qadağanı aşağı dairələrə çatdırmaqdır. Bu "padşahların" da özünəməxsus söz bazaları var. Bunlardan ən zəhmlisi "olmaz"dır".

Bəli, gerçək bir Azərbaycan mənzərəsidir. Hamı içində bir eqo partlaması yaşayır. Hətta hansısa idarəyə müsahibəyə gedəndə belə qapıda dayanan işçi özünü həmin idarənin müdirindən daha səlahiyyətli aparmağa çalışır. Yanlış anlaşılmasın, kimsəni vəzifəsinə görə aşağılamıram. Amma əgər gözətçiyə müsahibəyə getdiyini deyib, vəsiqəni təqdim edirsənsə, onun "bu, qəzetin vəsiqəsidir, amma siz video çəkəcəksiz axı. Üstəlik, vəsiqədəki şəklinizə də çox bənzəmirsiz" deməsi nədir? Səlahiyyət həddinin aşılması, yoxsa kiçiklik kompleksini bu formada həzm etmə cəhdi? Bir dəfə bir yerə reportaja getmişdim. Foto çəkmək üçün məkanın rəhbərindən icazə aldım, amma qapıda dayanan şəxs dedi ki, bu günə qədər çəkilişə icazə verilməyib, siz niyə istisna olasınız? Biləcəri parkında uşaqların qazona girməməsi üçün məxsusi bir işçi tutublar. Balacalar bir santimetr ayağını o tərəfə qoyan kimi həmin oğlan ayaqlarını bərk-bərk yerə döyərək, qaçır o uşağın yanına, ata-anasından betər şəkildə danlayır, gözünü ağardır və gedir.

Bəli, Azərbaycan belə bir ölkədir. Sən yolda getdiyin yerdə heç tanımadığın biri tərəfindən danlana da bilərsən. Məsələn, niyə yolun sağ tərəfi ilə gedirsən deyə. Çünki bura Həsən ağanın villasına yaxındır və sahibi o villanın yanından insanların keçməsinə icazə vermir. Bir neçə il əvvəl Biləcəri avtobuslarından biri marşrut qrafikini dəyişmişdi. Marşrut keçmiş nəqliyyat nazirinin sürücüsünün evinin düz yanından keçib, onları narahat etdiyi üçün. Mən nağıl yazmıram, mətbuatda yer alan bu unikal olayı yada salıram sadəcə.

Bütün bu olaylar Azərbaycan kimi məmləkətdə baş verə bilər. Hərdən düşünürəm ki, ölkə də mənim noutbukum kimidir. Bir neçə "hərfi" xarab olub və hansısa sözü demək, bir hərəkəti icra etmək lazım olanda başqa yerdən, dəxilsiz bir "hərfi" gətirib ora "copy-past" edirlər.

**Qafqaz Müsəlmanları İdarəsinin sədri, Şeyxülislam Hacı Allahşükür Paşazadənin Çexiyada mülkləri və şirkətinin üzə çıxması xəbəri yeni deyil. 3 ilə yaxındır ki, mətbuatda şeyxin müalicəvi suları ilə dünyada məşhur olan Karlovı Varıda malikanələrinin olması xəbəri dolaşır. Ötən il həmin əmlaklara dair sənədlər ortalığa çıxmışdı. İndi isə həmin əmlakların varlığını ortaya qoyan video da yayılıb.**




yayılıb. Əsasən ölkəyə ixrac olunan tərəvəz məhsullarının Allahşükür Paşazadənin inhisarında olduğu bilinirdi. Allahşükür Paşazadə bir qayda olaraq belə məlumatlara münasibət bildirmir, bildirəndə isə ortaya sübut qoyulmasını istəyir. Onun bu sıradan olan açıqlamalarından birindən sitat: "Bəzən mənim adımı şüşə, armatur, alma, soğan və kartof biznesi ilə məşğul olan şəxs kimi hallandırırlar. Bunların heç biri həqiqətə uyğun deyil. Bir şey haqqında danışanda ortaya sübut qoymaq lazımdır".

# Şeyxin Çexiyadakı mülkləri və şirkətləri haqda yeni məlumatlar

## QMİ sədrinin Hollivud ulduzları, hind maharacaları ilə bağlayan malikanəsi üzə çıxdı

Bu günlərdə sosial şəbəkələrdə şeyxin Karlovı Varıdakı mənzil kompleksinin görüntüləri yayılıb. Belə aydın olur ki, şeyx tez-tez Karlovi Varıya baş çəkir. O, müalicə məqsədi ilə gəldiyi kurort şəhərdəki kompleksində özü üçün hazırlanmış 6 otaqdan ibarət lüks mənzildə qalır. Şeyxin bu şəhərdəki mülkü təkcə mənzil kompleksindən ibarət deyil. Belə ki, onun qardaşı Cavanşir Paşazadə ilə şərikli bir neçə oteli var. Mülkiyyət qeydiyyatı reyestrinə görə, Paşazadə qardaşları həmçinin Karlovı Varıda yerləşən çex şirkəti "Aynur KV"nin sahibidirlər.

Paşazadələrin malik olduqları mənzil kompleksi Karlovı Varının mərkəzinə baxan yüksəklikdə və regionda ən məşhur mehmanxana olan "İmperial Hotel"in yaxınlığında yerləşir. 20-ci əsrin əvvəllərində tikilmiş bu oteldə knyaz Pavel, bəstəkar Richard Strauss, hind maharacaları və Hollivud ulduzları yaşayıblar.

Ötən il kurort cənnəti hesab olunan Karlovı Varıda şeyximizin mülklərinin və biznesinin olması haqda məlumatlar yayılanda bunu təsdiq edən fotolar, Çexiyanın müvafiq qurumlarının reyestr məlumatları təqdim olunmuşdu. Həmin məlumatdan sitat: "Marketa Şpişakova adlı bu çex qadın Şeyxülislam Allahşükür Paşazadənin şərikidir, 36 yaşı var. İxtisasca həkimdir, heç bir sərmayə qoymadan Allahşükür Paşazadənin və Milli Məclisin deputatı Cavanşir Paşazadənin Çexiyada, Karlovı Varıda açdığı "Aynur KV" şirkətinin ortağı olub. Qadının valideynləri də 3 şirkətə sahibdirlər".

Bu məlumata şeyxin qardaşı Cavanşir Paşazadə və qudası Qalib Salahzadə münasibət bildirmişdilər. Milli Məclisin deputatı Cavanşir Paşazadə qardaşı və özünün Karlovı Varıda biznesinin olması haqda məlumatları yalana çıxarmaq üçün bir xeyli vurnuxmuşdu: "7-8 ildir ki, bu söhbət gedir. Yenə də yazırlar. Bunlar hamısı yalan məlumatlardır. Bizim Çexiyanın Karlovı Varı şəhərində heç bir biznesimiz yoxdur. O sənəd saxtadır, həmin xanımı və şirkəti tanımırıq. Mən də istəyərdim ki, biznesim olsun, amma təəssüf ki, yoxdur. Amma olanda nə olar ki?"

Halbuki Paşazadələrin adı keçən və Karlovı Varıda əmlaklarının olmasını təsdiqləyən Çexiyanın müvafiq qurumunun reyestr xidmətindən çıxarışların da fotosurətləri ortada idi. Həmin fotosurətlər əvvəl yayılmış məlumatların doğru olduğunu bir daha təsdiqləyirdi.

Həmin məlumatlar yayılan dövrdə "Açıq Rusiya" təşkilatının saytında yer alan məlumata görə, Çexiyanın məşhur kurort şəhəri olan Karlovı Varıda daşınmaz əmlakın böyük bir qismi Rusiya, Azərbaycan, Ukrayna və Qazaxıstan vətəndaşlarına məxsus olduğu bildirilirdi. Saytın yaydığı məlumatlar sırasında Hacı Allahşükür Paşazadənin, onun deputat qardaşı Cavanşir Paşazadənin Karlovı Varıda əmlakının olması diqqətə çatdırılırdı. Həmin vaxt Cavanşir Paşazadə "Açıq Rusiya" təşkilatının məlumatı da yalana çıxarmağa çalışmışdı.

Sitat: "Hazırda xaricdəyəm. Buna görə ətraflı danışa bilmirəm. Qeyd edim ki, yayılan xəbərlər həqiqəti əks etdirmir. Tamamilə yalandır. Bizim orada əmlakımız yoxdur" - deyə şeyxin qardaşı bildirirdi.

Onun aradından şeyxin qudası Qalib Salahzadə də inkarçılıq mövqeyindən çıxış etmişdi. Bildirmişdi ki, şeyxin heç bir ölkədə biznesi yoxdur: "Ötən gün məni qaralayan xəbər yayılmışdı. İndi də Şeyxi qaralayan xəbərlər yayılıb. Bütün bunlar böhtandır. Məgər Şeyxin vaxtı var bizneslə məşğul olsun? Şeyx bütün günü Rusiyaya gedib-gəlir, Qarabağ probleminin həllinə çalışır. Onun bu Vətən üçün xidmətləri böyükdür. İndi Allahşükür Paşazadəni kimlərsə hədəfə alıblar, bu cür şərləməyə çalışırlar. Şeyx nə vaxtsa Karlovı Varıya gedib bir stəkan su içib. İndi deyirlər ki, onun Çexiyada biznesi var. Birincisi, Şeyxin Karlovı Varıda biznesi yoxdur. Lap olsa, nə olar? Məgər biznesi olmaq eyibdir? Mən bir daha söyləyirəm ki, bütün bunlar Şeyxə qarşı böhtandır. Bunun arxasında kimlər dayanırsa, Allah onların cəzasını verəcək".

Qalib Salahzadə yalana doğru donu biçmək üçün fikrini belə davam etdirmişdi.

Sitat: "Deyirdilər ki, guya Hacı Qalib silah gəzdirir və sairə. Mən də keçmiş milli təhlükəsizlik naziri Eldar Mahmudova zəng edib xahiş etdim ki, bağıma minaaxtaran əməliyyatçılar göndərsin. Sağ olsun Eldar Mahmudov, kişi adamdır. O da göndərmişdi. Gəlib bağı yoxlamışdılar, ancaq heç nə tapılmamışdı. Deməyim odur ki, vəzifədə olan bəzi məmurlar üçün adamı şərləmək çox asandır. Hörmətli Şeyximizi də şərləmək istəyirlər".

Allahşükür Paşazadə 38 ildir ki, Qafqaz Müsəlmanları İdarəsinin sədrlik edir. 1949-cu il 26 avqust tarixində Lənkəran rayonunun Cil kəndində kəndli ailəsində doğulan şeyx orta məktəbi bitirdikdən sonra 1966-68-ci illərdə sovxozda fəhləlik edib. Yerli ağsaqqallardan gizli şəkildə dini biliklər öyrənən A. Paşazadə 1968-70-ci illərdə Buxarada "Mir-Ərəb" mədrəsəsində təhsil alıb. 1971-ci ildə İmam əl-Buxari adına Daşkənd İslam Universitetinin ilahiyyat fakültəsinə daxil olub və 1975-ci ildə buranı müvəffəqiyyətlə bitirərək tam ali dini təhsilə yiyələnib. 1975-ci ildən Qafqaz Müsəlmanları İdarəsində məsul katib, 1978-ci ildən "Təzəpir" məscidinin axundu, İdarənin sədr müavini vəzifələrində çalışıb. 1980-ci ildə Qafqaz Müsəlmanları İdarəsinin sədri vəzifəsinə seçilib və Şeyxülislam rütbəsi alıb. XII Şeyxülislamdır. Qafqaz Müsəlmanları İdarəsi Qazılar Şurasının sədridir. Onun müxtəlif biznes sahələri ilə əlaqələri haqda bu günə qədər xeyli məlumatlar

Sonuncu yayılan video Allahşükür Paşazadənin sübut tələbini ödəyir. Bundan başqa ortaya çıxan bu video Allahşükür Paşazadənin qardaşı, deputat Cavanşir Paşazadənin, 38 dəfə Həcc ziyarətinə getməsi ilə öyünən Qalib Salahzadənin yalan danışdıqlarını təsdiqləyir.

Yayılan məlumatlardan belə aydın olur ki, Paşazadələrin "Aynur KV" qrupu avtomobillərin lizingi və kirayəsi, daşınmaz əmlak alqı-satqısı ilə məşğuldur. MMC kimi Skroupova, 36001, Karlovy Vary ünvanında qeydiyyatdan keçib. Aylıq gəliri 1 milyon kron -təxminən 100 min manatdır.

Qeyd edək ki, A.Paşazadənin, onun deputat qardaşının adı bundan əvvəl ölkə daxilində qurulan daha bir biznes layihəsindən doğan mübahisədə hallanırdı. Məsələnin mahiyyəti bu idi ki, Müğdət Həşimov Paşazadələrlə birgə fəaliyyət haqda müqavilə imzalamışdı. Müqavilə üzrə M.Həşimov Paşazadələrə məxsus "Medi-Sina" klinikasını işlətmiş, sonradan tərəflər arasında mübahisə yaranmışdı. Bundan sonra Paşazadələrin yaxın adamı, "Hacı Mazan" kimi tanınan Ramazan Zeynalov dövriyyəyə girib və onun iddiası əsasında M.Həşimov həbs olunub. Bir müddət əvvəl isə Bakı Ağır Cinayətlər Məhkəməsinin hökmü ilə 9 il azadlıqdan məhrum edilib. İtthama görə, Paşazadələrə məxsus "Medi-Sina" klinikasına avadanlıqların alınması məqsədilə ayrılmış vəsaitdən 193 min manatın mənimsənilməsində ittiham olunan Müğdət Həşimov özünü təqsirli bilmirdi. Bu iş üzrə hazırda Ali Məhkəmədə M.Həşimovun şikayətinə baxılır.

Yayılmış son məlumatlarla bağlı Paşazadələrin mövqeyini öyrənməyə cəhd etsək də, alınmadı. Bununla belə, onların da mövqeyini dərc etməyə hazırıq.

**E.HÜSEYNOV,
"Yeni Müsavat"**



# Sülh qapısını açıq saxlayan Bakı, müharibəni yaxınlaşdıran İrəvan

## Azərbaycan və Ermənistanda seçkilər bitəndən sonra danışıqların intensivləşəcəyi fikrinə reaksiyalar birmənalı deyil; **politoloq:** "ABŞ Rusiyanı Cənubi Qafqazdan vurub çıxarsa, Qarabağ probleminin dinc həlli üçün əlverişli şərait yarana bilər..."

**Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov az öncə Azərbaycan və Ermənistanda prezident və baş nazir seçkiləri bitəndən sonra Qarabağa dair danışıqların intensivləşəcəyini söyləyib. Hərçənd, bu açıqlama daha çox Azərbaycanın xoş məramından, rəsmi Bakının işğal rejimin uzanmasına rəğmən, sülh qapılarını hələ ki açıq saxlamaq istəyindən qaynaqlanır. Eyni zamanda, bu, dünyaya növbəti bir mesajdır ki, Azərbaycan hərb yolunu mümkün saysa da, konfliktin dinc yolla həllinə ümidini itirməyib, o üzdən beynəlxalq birliyi bu yöndə təsirli addımlar atmağa çağırır. Yeni bir növ, düşmənə və onun havadarlarına son şans məsələsi.**




Əfsus ki, işğalçı tərəf hələ də Azərbaycanın sülhpərvər mövqeyindən sui-istifadə edir və problemə yanaşmada radikal, təxribatçı, beynəlxalq hüquqa daban-dabana zidd və qeyri-məqbul mövqe tutmaqda davam edir. Buna da təəssüf eləmək qalır ki, Ermənistan belə maksimalist mövqeyi həm də ATƏT-in Minsk Qrupu həmsədrlərinin işğalçı ölkəyə gizli-açıq himayəsinə arxalanaraq sərgiləyir. O həmsədrlər ki, əslində konfliktin həllində tərəfsiz, neytral, qərəzsiz mövqe tutmağa borcludurlar. Çünki bunu onların daşıdığı vasitəçilik mandatı tələb edir.

*****

Bəs bundan sonra, daha dəqiqi, Azərbaycan və Ermənistanda prezident və baş nazir seçkilər başa çatandan sonra "Qarabağ yükü"nü yerindən tərpətmək mümkün olacaqmı?

ABŞ-dakı Kornegi fondunun aparıcı elmi işçisi, "Qara və Bağ" kitabının müəllifi Tomas de Vaal hesab edir ki, münaqişənin həllində Minsk Qrupu üçlüyü ilə yanaşı, iki ölkənin ictimaiyyəti və rəhbərliyindən də çox şey asılıdır. "Yeni Müsavat"ın məlumatına görə, bu haqda o, erməni KİV-ə müsahibəsində deyib.

"Minsk Qrupu konfliktin menecment qrupudur və o, tələblərə cavab verməlidir. Biz iki paytaxta təzyiqdən danışanda mən düşünmürəm ki, sülh əldə olunması yönündə hazırda kimsə ciddi addımlar atır. Əgər bütövlükdə cəmiyyətlər münaqişə haqda düşünmürsə, niyə də biz onun haqda düşünək? Eyni zamanda əgər Azərbaycan və Ermənistan sülh anlaşmasına maraq göstərsə, o zaman beynəlxalq birliyin reaksiyası da qat-qat yaxşı olacaq", - deyə amerikalı ekspert qeyd edib.

De Vaal Azərbaycan və Ermənistanda seçkilərdən sonra hakimiyyətlərin hər iki ölkədə faktiki,dəyişməz qalmasına müsbət yanaşdığını deyib: "Dağlıq Qarabağ məsələsi kontekstində bu müsbət haldır, ona görə ki, iki ölkənin rəhbərləri bir-birilərini tanıyır və onlar tərəfindən sürprizlər olmur - hərgah məsələ dinc yolla da həll edilmir".

"Təxminin 5 il qabaq demişdiniz ki, Azərbaycan və erməni cəmiyyətləri qarşılıqlı güzəştlərə hazır deyillər. Bu fikirdə qalırsınızmı" sualına politoloq belə cavab verib: "Mənim mövqeyim dəyişməyib. Bu gün də cəmiyyətlər dialoqa hazır deyillər. Üstəlik, 2016-cı ilin aprel hadisələri tərəfləri bu məsələdə geri atdı, regionda qorxu atmosferi yarandı. Başqa yandan, yekun etibarilə azərbaycanlılar və ermənilər bir yerdə yaşaya biləcəklər. Əgər nə vaxtsa birlikdə yaşayıblarsa, yenə birgə olmağı bacaracaqlar. Hər halda məndə şəxsi söhbətlər əsasında belə qənaət yaranıb".

*****

Əlbəttə ki, buna kimi Dağlıq Qarabağ ixtilafı böyük ölçüdə yoluna qoyulmalı, regionda müharibə təhlükəsi sıfırlanmalıdır. Bu isə Azərbaycan və erməni toplumlarının dialoqa hazır olmasından daha çox, vasitəçi dövlətlərin nə dərəcədə ədalətli mövqe tutmasından asılı olacaq. Söhbət əsas iki dövlətdən - Rusiya və ABŞ-dan gedir. Ermənistanın 1 nömrəli müttəfiqi olan Rusiyanın mövqeyi bəlli. Ümid qalır Amerikanın ədalətinə.

Bu arada ABŞ-da dövlət katibinin (xarici işlər naziri) və Mərkəzi Kəşfiyyat İdarəsi direktorunun dəyişməsi ilə Vaşinqtonun Dağlıq Qarabağ, bütövlükdə Güney Qafqazla bağlı siyasətinin aktivləşəcəyi yönündə rəylər səslənməyə başlayıb.

"Dövlət Departamenti və Mərkəzi Kəşfiyyat İdarəsindəki son kadr dəyişiklikləri ilə ABŞ-ın xarici siyasəti daha dişli və kəsərli olmağa başlayacaq". Bu sözləri Ağ Evin son kadr dəyişiklikləri fonunda Vaşinqtonun Cənubi Qafqaz və Dağlıq Qarabağ siyasətini dəyərləndirən sabiq dövlət müşaviri Qabil Hüseynli deyib (Axar.az). Politoloq bildirib ki, Pompeo siyasətdə diplomatiya ilə xüsusi xidmət orqanlarının fəaliyyətini birləşdirəcək.

"Hətta yeri gələndə dünyadakı hadisələri ABŞ-ın maraqlarına uyğun dəyişmək üçün təkcə diplomatiyadan deyil, böyük ehtimalla, MKİ-nin xüsusi metodlarından da istifadə ediləcək. Zənnimcə, arabağla bağlı tələblərin ciddiləşməsi və regionda vəziyyətin gərginləşməsi daha çox Qərb ölkələrinin Rusiyaya qarşı tətbiq etdiyi mübarizə metodlarından asılı olacaq. Rusiya Qərbə meydan oxuyaraq Avropa paytaxlarında kimyəvi silah tətbiq edir. İndiyə qədər bu yolla 21 nəfər öldürülüb, 10-a yaxın insan isə xəsarət alıb. Bu sarıdan Qərb Rusiyanı maksimal hərəkətlərdən uzaqlaşdıra biləcək addımlar hazırlayır. Bu isə o anlama gəlir ki, ABŞ-ın bundan sonrakı xətti Rusiyaya qarşı yürüdülən siyasətdən xeyli asılı olacaq", - deyə o qeyd edib.

Politoloqa görə, ABŞ Rusiyanı halqavari mühasirəyə almaq istəyirsə, birinci Cənubi Qafqazdan başlamalıdır: "Çünki bu region Rusiyanın yumşaq qarnaltısıdır. ABŞ Rusiyanı Cənubi Qafqaz və Orta Asiyadan vurub çıxarsa, vəziyyət xeyli sadələşə bilər. Bu, hətta Qarabağ probleminin danışıqlar yolu ilə həlli üçün əlverişli şərait yarada bilər. Əgər bu gün Ermənistan danışıqlar masası arxasında destruktiv mövqe tutursa, bu, Moskvanın hesabınadır. O üzdən Qərb Rusiyanı regionda və dünyanın bir sıra nöqtələrində neytrallaşdırsa, Kreml artıq Ermənistanın arxasında dayana bilməyəcək. Bu isə Moskvanın Cənubi Qafqazdakı maraqlarını zəiflədəcək".

Q.Hüseynli hesab edir ki, ABŞ-ın yeni sərt siyasəti Azərbaycana yeni perspektivlər vəd edir: "Türkiyənin, hətta başqa NATO dövlətlərinin regionda peyda olması xeyli asanlaşacaq ki, nəticədə də Gürcüstan və Dağlıq Qarabağda milli zəmində baş vermiş ekstremist münaqişələrin həlli üçün daha münbit şərait yaranacaq. Bu isə Rusiyanın bölgədən çıxarılması və ya bir dövlət kimi zəifləndilməsindən xəbər verir. Zəif Rusiya isə Cənubi Qafqazda duruş gətirə bilməyəcək. Çünki Amerika və NATO-nun Qafqaza gəlişi qaçılmazdır. Bu, özünü Gürcüstanın timsalında, başqa formalarda da göstərə bilər. Beləliklə də bölgədə qüvvələr nisbəti ciddi surətdə Azərbaycanı xeyrinə dəyişəcək. Avropa Birliyi dövlətlərin ərazi bütövlüyünü dəstəklədiyini bir neçə dəfə bəyan edib. ABŞ da yavaş-yavaş ərazi bütövlüyü məsələsinə gəlir. Ümumiyyətlə, Bakı üçün Qərbin problemə yanaşması Rusiyanınkından xeyrli sərfəlidir. Bir sözlə, Qərb-Rusiya qarşıdurmasında Cənubi Qafqazdakı münaqişəli ocaqları üçün əlverişli perspektivlər açılacaq".



# Tiflisdən Azərbaycana Qarabağ saygısızlığı

**Gürcüstan Prezidenti Giorgi Margvelaşvili bir neçə gün əvvəl ABŞ-a rəsmi səfərdə çıxışı zamanı Dağlıq Qarabağı unudub. Bu barədə politoloq Elxan Şahinoğlu deyib.**

"Gürcüstan prezidenti martın 16-da Konqresdə təşkil olunan tədbirdə çıxış edərkən Vaşinqtona belə bir çağırış edib: "Gürcüstan Amerikanın daha böyük dəstəyinə ümid edir, biz Amerikanın şərq istiqamətindəki əsas forpostuyuq, ona görə tərəfdaşlıq statusumuzu artırmalıyıq». Margvelaşvili sonrakı fikirlərini bu şəkildə ifadə edib: "Rusiya Gürcüstanın 20 faiz ərazisini işğal edib, Krım işğal altındadır, Ukraynada müharibəyə rəvac verib, Moldovanın ərazi bütövlüyü pozulub və... Böyük Britaniyada müəmmalı qətl hadisəsi baş verib". Sizcə, Gürcüstan prezidenti bu cümlədə nəyi unudub? Bəli, Dağlıq Qarabağı. O, ətrafdakı bütün separatçıları sadalayıb, Azərbaycan torpaqlarının işğalı və erməni separatçıları barədə heç nə deməyib. Yeni Rusiyanın işğal etdiklərini deyib, Ermənistanın işğalına isə göz yumub, halbuki özü də bilməmiş deyil ki, Ermənistan da Rusiyanın forpostudur", - deyə politoloq qeyd edib.

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: Siyasət şöbəsi

YENİ MÜSAVAT
N 62 (6951) 19 mart 2018

# Türkiyənin hərbi zəfəri - Afrin tam nəzarətə götürüldü

## Toğrul İsmayıl: "Həm bölgə xalqı, həm də Türkiyə bu terror ünsürləri təmizlənməyənədək rahat ola bilməz"

**Türkiyə ordusunun Afrin bölgəsində PKK terror təşkilatının Suriya qolu olan PYD/YPG, İŞİD və digər terror təşkilatlarına qarşı apardığı əməliyyat uğurla nəticələnməkdə davam edir. Belə ki, Türkiyə mətbuatının yaydığı məlumatda qeyd olunur ki, "Zeytun budağı" antiterror əməliyyatı çərçivəsində Suriyanın müxalifət qüvvələri Afrin şəhərinə nəzarəti ələ keçirib.**

Çanaqqala zəfərinin 103-cü ildönümünə həsr edilmiş təntənəli mərasimdə Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan da bu barədə danışıb. O söyləyib ki, Afrin şəhər mərkəzi dünən saat 08.30 radələrində Türkiyə ordusunun dəstəyi ilə müxalif Azad Suriya Ordusu tərəfindən tam nəzarətə götürülüb. Ərdoğan PPK terror təşkilatının Suriya qolu PYD/YPG terrorçularının şəhərdən qaçdıqlarını bildirib.

Son günlər Türkiyə ordusunun uğurlarına qarşı Qərbin bəzi media orqanlarında təxribat xarakterli informasiyalar da yayılıb. Belə ki, martın 17-də Qərb mediası yazmışdı ki, Türkiyə Silahlı Qüvvələri Afrində sivillərin olduğu xəstəxananı bombalayıblar. Lakin Türkiyə Silahlı Qüvvələri Baş Qərargahı yayılan məlumatları təkzib edib, xəstəxananın görüntülərini yaydı. Həmçinin bildirildi ki, "Zeytun budağı" əməliyyatı dinc insanlara zərər verilməyəcək şəkildə həyata keçirilir.

Türkiyədə yaşayan azərbaycanlı politoloq Toğrul İsmayıl durumu "Yeni Müsavat"a dəyərləndirərək bildirdi ki, əməliyyat uzun çəksə də uğurla nəticələndi: "Önəmli olan əməliyyatın nə vaxta deyil, necə aparılması idi. Türkiyə də bu məsələdə həssas davrandı. Mülki insanlara zərərin dəyməməsi, dünya siyasi oyunlarına alət olmamaq məsələsi gündəmdə idi. Bütün bunlardan uğurla keçən Türkiyə ordusu Afrini tamamilə əhatəyə aldı. Buna baxmayaraq dünya mətbuatında uydurma xəbərlərə də rast gəlirik. Guya ki, Türkiyə Afrində xəstəxananı bombalayıb. Təkzib xəbərindən və yayılan görüntülərdən gördük ki, belə bir hal yoxdur. Əksinə, Türkiyə dünyaya Afrindəki terror qruplarının orada yaşayan sivil xalqın başqa yerə köçməsini əngəllədiyini göstərən kadrlar yayıb. Türkiyənin də bizim də daha əvvəllər dediyimiz məsələ gündəmdədir. Yeni Afrin bölgəsi terror təşkilatının əlində girovdur. Orada insanlar girov olaraq saxlanılır, terroristlər də onları özlərinə qalxan kimi istifadə etməyə çalışırlar. Burada biz ikili standartı da görürük. Əslində normal halda dünyanın bir bölgəni terrorçulardan təmizləməkdə Türkiyəyə dəstək verməsi lazım idi. Ancaq üzücü haldır ki, Avropa Parlamenti belə Türkiyəyə xəbərdarlıq edir ki, Afrindən geri çəkilsin. Bu, ikili standartın açıq şəkildə göstəricisidir. Fransada terror hadisəsi olan zaman onlar düşünmədən İŞİD-in olduğu yerləri bombaladılar. Burada mülki şəxslər də öldü. Türkiyə isə antiterror əməliyyatı həyata keçirir və sivillərə zərər vermir. Bəs dünya bunu nə üçün müdafiə etmir? Ümid edirəm ki, bu günlərdə Afrin terror qruplarından tamamilə təmizlənəcək. Həm bölgə xalqı, həm də Türkiyə bu terror ünsürləri təmizlənməyənə qədər rahat yaşaya bilməz".

Politoloq NATO-nun çağırışlara cavab verməməsindən də danışdı: "Türkiyə NATO-dan dəstək də istədi, ancaq cavab gəlmədi. Amerika açıq şəkildə bu terrorçu qruplaşmaları silahlandırdı. Amerika əvvəl başqa mövqe sərgiləyib, Türkiyənin yanındaymış kimi davranırdı. Düşünürdü ki, Türkiyə bu əməliyyatda xətaya yol verib, dinc insanların ölümünə səbəb olacaq. Çünki belə fikir vardı ki, FETO-çular ordunu dağıdıb, guya Türkiyə ordusu artıq əvvəlki kimi güclü deyil. Türkiyə dünyaya göstərdi ki, istənilən çətinliklərə baxmayaraq, əməliyyatı yüksək səviyyədə həll etmək imkanındadır. Qərb bu səbəbdən hər bir şeydən əli üzülüncə başqa təxribatlara əl atır. ABŞ onsuz da mülki əhalini və obyektləri vurmaqda mütəxəssisdir. İstər Əfqanıstan, istər İraq, istərsə də Suriyada, Amerikanın apardığı əməliyyatlar zamanı minlərlə insan ölüb. Türkiyənin apardığı bu əməliyyatda isə sivillərin ölümü demək olar ki, yoxdur. Sivil kimi göstərilənlər də əslində elə terroristlərdir. Hansı ki, onlar sivillər kimi geyiniblər. Onu da deyim ki, Avropa ölkələri öz vətəndaşlarının bu terror qruplarının içərisində nə üçün yer aldıqlarını izah etməlidirlər. Bu, ciddi məsələdir. Bəzən Azərbaycanın informasiya məkanında saxta xəbər və görüntülər yayılır. Ona görə də diqqətli olmaq lazımdır. Eyni zamanda bildirilir ki, guya 2-3 min terrorist sayı açıqlansa da onların hamısı terrorist deyil. İnsanlarımızı bu cür mənasız yazılara da uymamağa çağırıram. Bilməliyik ki, terrorun siması dəyişib. Artıq terror təşkilatları klassik mənada bir-iki terroristlə partlayış törətmirlər. Onlar hətta ordular quracaq gücə sahibdirlər. Bunları unutmamaq lazımdır. Məsələn, İŞİD terror qruplaşması hətta dövlət kimi davranırdı. Özünün ərazisi, qaydaları vardı. İkincisi də bir azərbaycanlı bunu söyləyə bilməz. Çünki ən azından Xocalıda qətliyam törədən qrupun 2 mindən çox erməni terroristi vardı. Sabah Azərbaycan Qarabağı təmizləməyə başlayan zaman "2-3 min terrorist öldürülüb", - deyə faktlar ortaya çıxarsa, eyni sözü bizə də deyə bilərlər. Afrində yürüdülən bu əməliyyat bizim dövlətimizə də güc-qüvvət verəcək ki, onlar da ilk mərhələdə Dağlıq Qarabağ xaricindəki rayonlarımızı anti-terror əməliyyatı ilə təmizləyəcəklər".



❑ **Əli Rais, "Yeni Müsavat"**

# Rza Zərrab işi niyə uzanır?

## Politoloq: "Zərrab olaylarından Amerika öz məqsədləri üçün istifadə etməyə çalışacaq"

**Nyu-Yorkda həbsdə olan iş adamı Rza Zərrabla bağlı bir müddətdir ki, Türkiyə və Qərb mətbuatında heç bir informasiya paylaşılmırdı. Son olaraq yayılan məlumatlarda qeyd olunurdu ki, ABŞ məhkəməsi Rza Zərrabı razı salaraq onunla "Şahidin mühafizəsi proqramı" imzalayıb. Proqrama əsasən, Rza Zərrab məhkəmə prosesində şahid qismində iştirak etməli, bunun qarşılığında maaş verilməli, təhlükəsizliyi təmin olunmalı və estetik əməliyyat edilməlidir.**

R. Zərrab bu razılaşmaya getməsəydi, onu 130 il həbs cəzası və 4 milyon 500 min dollar pul cəzası gözləyirdi. Razılaşmaya sadiq qalan ABŞ məhkəməsi Türkiyənin Rza Zərrabla əlaqə qura bilməsinə mane olmaq üçün onun saxlanıldığı yer barədə məlumat vermirdi.

Türkiyə mətbuatında martın 17-də yayılan məlumata görə, Rza Zərrabın vəkilləri iş adamına qarşı irəli sürülən təcavüz ittihamı ilə əlaqədar məhkəməyə müraciət ediblər. Zərrab ərizəsində baş verənlərə görə Türkiyə hökumətini günahlandırıb. Müdafiə ərizəsində Zərrab qeyd edib ki, haqqındakı iddialar "xəyal məhsulu"dur: "ABŞ hökuməti adına şahidlik edib, etirafçı oldum. İndi başıma bu işlər gəlir. Türkiyə etiraflarımın nələr ola biləcəyini yəqin edərək, bunun qarşısını almağa çalışdı. Türkiyə hökuməti mənim etirafçı olmaqdan çəkindirmək üçün bir çox işlər gördü. Məni etibarsızlaşdırdılar, cəzalandırdılar, bir çox işçimi və dostlarımı həbs etdilər. Mal varlığıma həbs qoydular".

Bəs, ABŞ Rza Zərrabı əlində Türkiyəyə təzyiq riçaqı kimimi saxlayır?

"Yeni Müsavat"a danışan politoloq Qabil Hüseynli bildirib ki, Zərrabla bağlı zorlama məsələsinin qabardılması həqiqətə uyğun gəlmirdi: "Aydın məsələ idi ki, bu, kimlərinsə uydurması idi. Adı çəkilən kolumbiyalı görünür ya təzyiq, ya da hansısa vəsait əsasında bu cür açıqlamalar verib. Ona görə də məsələdə siyasi nüansların olduğunu istisna etmirəm. Tillersonun getməsi və onun yerinə Pompeyin təyin edilməsindən sonra Amerikanın xarici siyasəti xeyli dərəcədə aqressivləşib. Bu aqressiya isə özünü bütün istiqamətlərdə göstərir. Güman edirdim ki, amerikalılar Afrin məsələsində tam olaraq Türkiyə ilə razılaşıblar. Hətta Menbicdən Amerika əsgərləri ilə birlikdə kürdləri çıxarmaqla bağlı Çavuşoğlunun məlumatı da vardı. İndi belə görünür ki, Menbiç bir yana, Afrin məsələsində də Amerika mövqeyində dəyişiklik edib. Zənnimcə, bütün bunlar Amerikanın bölgədəki mövqeyinin möhkəmlənməsinə xidmət etmir. Çünki yalnız Türkiyə vasitəsilə Amerika bölgədə özünə lazım olan strateji niyyətləri reallaşdıra bilər. Amerika ilə Türkiyə arasında həm də Rusiyadan alınan "S-400"lərlə bağlı da ciddi fikir ayrılıqları var. Bu fikir ayrılıqları Rusiyanın İngiltərədə törətdiyi sui-qəsd olaylarından sonra daha da şiddətləndi. Ardınca da Amerika, Rusiya ilə silah ticarətinin dayandırılmasını tələb edir. Hətta təhdid edir ki, bu alveri davam edən ölkələrə qarşı da sanksiyalar tətbiq edilə bilər. Çox təəccübləndim ki, Türkiyə NATO-nun bu bəyanatlarından sonra Rusiyaya müraciət edərək "S-400"lərin hazırlanmasının daha da sürətlənməsini xahiş etdi. Yeni razılaşdırılmaya uyğun olaraq bu raket kompleksləri 2020-ci ildə göndərilməli idi. Ancaq Türkiyə bunun 2019-cu ildə göndərilməsini xahiş edir. Rusiya da buna əməl edəcəyini söyləyir. Niyə də etməsin? Çünki əvvəla 2.5 milyard dollardan çox vəsait əldə edir, ikincisi də Türkiyə ilə NATO-nun digər ölkələri arasındakı fikir ayrılığını dərinləşdirir. Ümumiyyətlə, məsələ olduqca qəlizdir. Səbirsizliklə gözləyirəm ki, Türkiyə bu məsələdə konstruktiv yol tapacaq. Türkiyənin bəzi siyasi elitasında Amerika və NATO ilə fikir ayrılıqlarının aradan qaldırılmasına o qədər də cəhd edilmir. Bu isə bölgə üçün olduqca böyük təhlükə yaradır. Son zamanlar Amerikanın kürdlərə dəstək verməsi, onlardan hərbi əməliyyatlarda İŞİD-a qarşı istifadə etməsi, xarici işlər nazirinin dəyişməsindən sonra yenidən kürdlərə doğru meyllənmənin yaranması düşünürəm ki, çox təhlükəli simptomdur. Türkiyə bu məsələlərdə ehtiyatlı olmalıdır. Güman edirəm ki, bu məsələdə Türkiyə qızıl ortanı tapacaq".



Politoloq bildirib ki, Zərrab məsələsi ilə bağlı nəyisə dəyişdirmək mümkün deyil: "Lap Zərrabı nüfuzdan salma kampaniyası aparılsa belə, faktdır ki, Zərrab Türkiyədə İranın böyük qızıl ehtiyatlarını avro, dollara çevirərək, "Xalq Bank" vasitəsilə İrana ötürüb. Bununla da tətbiq edilən sanksiyalara bir növ əməl etməyib. Bu prosesdə Türkiyə hökumətinin müəyyən üzvləri istefa verdilər. "Xalq Bank"ın sədrinin müavinlərindən biri də həbsdədir. O bir müddət susdu. Ancaq sonradan o da ifadə verdi və Zərrabın söylədiklərini bir növ təsdiqlədi. Yeni Türkiyə tərəfinin İrana qarşı sanksiyalarda iştirak etməməsi, hətta sanksiyaları dələrək 80 milyard avroya yaxın vəsaitin ötürülməsində dövlət bankının iştirakı artıq təsdiqlənib. Sadəcə olaraq məhkəmənin bununla bağlı verəcəyi hökm qalıb. Hər halda hökm məhkəmə istintaqı əsasında yığılmış materiala söykənəcək. Bunun əsasında da son qərar veriləcək. Ümumiyyətlə, Rza Zərrab olayı Türkiyə üçün başağrısı olaraq qalmaqdadır. Bundan da Amerika tərəfi öz məqsədləri üçün istifadə etməyə çalışacaq".

❑ **Əli Rais, "Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 62 (6951) 19 mart 2018



# "Ya yuxarı səviyyədə tənqid etməlisən, ya da susmalısan..."

## Satirik şair Əvəz Qurbanlı: "Sabirin dövründə heç indiki qədər tənqid hədəfləri yox idi"

**"Yeni Müsavat"ın "Bizim qonaq" rubrikasında bu dəfə satirik şair, aznews.az saytının redaktoru Əvəz Qurbanlıdır. Onunla şəxsi yaradıcılığı, ədəbi sahədə baş verənlər, müasir dövrdə satiraya marağın azalması və sair kimi məsələlər ətrafında söhbət etdik. Həmin müsahibəni təqdim edirik.**

***- Əvəz müəllim, yaradıcılığınızda hansı yeniliklər var? Hazırda nələr yazırsınız?***

- Əsasən satirik və lirik şeirlər yazıram. Bundan başqa publisistik məqalələrim olur. Nəsr istiqamətində də özümü sınayıram.

***- Bununla yanaşı, media fəaliyyətiniz də davam edir...***

- Bəli. Media fəaliyyətim də öz yerində... Hazırda aznews.az saytında redaktor işləyirəm. Mediada son vaxtlar məqalələrlə çıxış etmirəm, əsasən araşdırma yazılara üstünlük verirəm. Klassik poeziya ilə bağlı araşdırmalar aparıram. Hazırda eyni vaxtda bir neçə monoqrafiya üstündə işləyirəm. Biri klassik Şərq poetikası, digəri Azərbaycan ədiblərinin yaradıcılığının qarşılıqlı təhlili ilə bağlıdır. Əsas fəaliyyətim bu istiqamətdədir.

***- Son vaxtlar şeirlərinizə mediada daha az rast gəlinir. Yazdıqlarınızı saxlayıb, kitab halında çap etdirməyimi düşünürsünüz?***

- Son vaxtlar yazdıqlarımı, əsasən də satirik şeirlərimi nə mediada, nə də sosial şəbəkələrdə paylaşmıram. Lirik şeirləri isə paylaşıram. Səbəb odur ki, satira yaxşı qarşılanmır. Əvvəla, cəmiyyətdə artıq əsl sənət satirasına əvvəlki reaksiya, maraq yoxdur. İndi ictimaiyyət açıq tənqidi sevir. Yəni adbaad tənqid etməlisən. Bu satiradan daha çox həcvə istiqamətlənir. Adbaad tənqid artıq satiranın mahiyyətindən kənara çıxır. Ona görə də yazılan satirik şeirlərdən paylaşmağa ehtiyac görmürəm. Bunun bir başqa səbəbi də var. Artıq piratçılıq o qədər çoxalıb ki, hansısa yeni fikir yazan kimi iki gün sonra başqa biri götürür və bir qədər fərqli formada öz adından təqdim edir. Heç nəyi də sübut etmək mümkün deyil. Buna görə də insan yeni bir fikri paylaşmağa tərəddüd edir. Ona görə də şeirlərimi saxlayıram. Yəqin ki, kitab halında dərc etdirəcəm.

***- Bu gün şairlər satira və həcvə az yer verir, daha çox lirikada öz istedadlarını sınamağa çalışırlar. Niyə tənqidi satiraya ehtiyac duyulmur? Bəlkə də bu ona görədir ki, artıq mətbuat var, yazıla bilinəcək hər bir tənqid orada yazılır və satiraya ehtiyac qalmır. Sabirin dövründə mətbuat geniş yayılmadığı üçün satirik şeirə tələbat çox idi. Səbəb budurmu? Niyə satira əvvəlki qədər yazılmır?***

- Satiraya indi əvvəlkindən daha çox ehtiyac var. Sabirin dövründə heç indiki qədər tənqid hədəfləri yox idi. İndi istənilən sahədə o qədər mənfi hallar, o qədər tənqid olunası məmurlar var ki, artıq kütləvi hal alıb. Bəlkə də elə kütləvi hal aldığı üçün adiləşib. İnsanlar buna tənqidi gözlə baxa bilmirlər. Onu da satiraya gətirəndə bədii sənətkarlıq baxımından nə qədər yüksək sənət nümunəsi yaratsan belə ictimaiyyətin diqqətini çox da cəlb eləmir. Bu baxımdan yazılanlar da o qədər nəzərə çarpmır. Ancaq bu gün satirik tənqidə ehtiyac var. Media orqanları nə qədər yazsa da, ədəbiyyatda azad sözə ehtiyac var.

***- Bəlkə də satira senzura dövrünün məhsulu idi və birbaşa yazıla bilinməyən, dilə gətirilməyən fikirlər satirik şeirlərlə cəmiyyətə çatdırılırdı. Bu gün bu senzura aradan qalxıb və hamı birbaşa tənqid tələb edir.***

- Sovet dövrü ədəbiyyatına nəzər salsaq, o dövrün ən tanınmış satirik şairi Rüfət Əhmədzadə idi. O da ən cəsarətli halda sədrin ərköyün inəyindən, hansısa JEK müdirindən yazırdı. Bundan yuxarı çıxa bilmirdi. O zaman insanların buna ehtiyacı var idi. İnformasiya qıtlığı idi və insanlar əsasən "Kommunist" qəzetindən məlumat alırdılar. Bir də "Kirpi" jurnalı var idi ki, onu hamı oxuyurdu. "Kirpi"də kim tənqid olunurdusa, ona az qala vətən xaini kimi baxılırdı. Bu gün belə orta səviyyəli satiraya ehtiyac yoxdur. Ya yuxarı səviyyədə tənqid etməlisən, ya da susmalısan. Çünki indi hamı anlayır ki, problemlər heç zaman ortadan qaynaqlanmır, hər zaman daha yuxarıdan qaynaqlanır. Bir çox problemlərin səbəbi çox dərinə gedir, bəziləri ümumiyyətlə ölkəmizlə bağlı deyil. Oxucu indi Sovet dövründəki oxucu deyil. Dərmanlarda doza deyilən bir hədd var. İlk dəfə dərmandan istifadə edəndə az doza ilə verirlər ki, orqanizm onu götürə bilsin. Ancaq həmin dərmandan mütəmadi istifadə etdikcə, dərmanın təsiri orqanizm üçün adiləşir və daha yüksək dozaya ehtiyac olur. Bizim oxucu da daha yüksək dozalı satira istəyir. Daha sərt, daha maraqlı tənqid tələb edir.



**"Elza Seyidcahan şeiri duya bilir, ancaq şeir yaza bilmir"**

***- Oxucunun istədiyi sərt tənqid, kəskin satira sizdə varmı?***

- Oxucunun istədiyi şeirlər var, ancaq mən onu üzə çıxartmıram, paylaşmıram, yazıram qalır. Ona görə yox ki, paylaşmağa çəkinirəm. Mən dövlət səviyyəsində qəbul olunmuş adamam, "Tərəqqi" medalı ilə təltif olunmuşam. 12 ildir ki, Yazıçılar Birliyinin üzvüyəm. İlk dəfə ölkədə Yazıçılar Birliyindən prezident təqaüdünü də mən almışam. Bundan əvvəl də "Qulp" verilişində daha kəskin satiralarla çıxış eləmişəm. Amma ona görə məni həbs etməyiblər. Çünki bilirdilər ki, mən kiminsə sifarişini yerinə yetirmirəm. Bu, cəmiyyətin sifarişi idi. Bu, gün paylaşmamağımın səbəbi odur ki, necə bir satira paylaşsan da bu populyarlığa gətirmir. Populyar olmaq üçün mütləq gərək söyüşdən, təhqirdən istifadə edəsən. Bu da mənim nə xarakterimə, nə də yaradıcılığıma xas deyil. Bu gün sosial şəbəkələrdə minlərlə izləyicisi olan sənətçilər var. Onların məşhur olmasının da səbəbi məlumdur. Efirlərdə qələm adamlarına, ziyalılara çox az yer verilir. Mən ziyalı olmaq iddiasında deyiləm. Amma hesab edirəm ki, dediyim fikirlər ziyalıların dediyi fikirlərlə üst-üstə düşür. Şou-biznesla müqayisədə ziyalı sözünə çox az yer verilir.

***- Əvəz müəllim, bu gün ölkəmizdə yaradıcı insanların əsas problemi nədir?***

- Problemlərdən biri təbliğat məsələsidir. Düzdür, bu gün təbliğ olunmaq çox da çətin deyil. Sosial şəbəkələr var. Ancaq sosial şəbəkələrdə o auditoriyanı yığmaq üçün sənət kifayət etmir. Sənətkar təkcə öz yaradıcılığı ilə sosial şəbəkələrdə, cəmiyyətdə populyar ola bilmir. Ya Mikayıl Müşfiqi söyməlisən, ya Xəlil Rzanı, ya Şah İsmayıl Xətaini, ya da Səməd Vurğunu... Bu, çox səviyyəsiz bir yoldur.

***- Bu gün gənc yazarlar arasında beləları var... Onların bu addımı atmasının səbəbi nədir?***

- Mən iddia edə bilmərəm ki, onların bu addımları hansısa missioner mərkəzdən, katolik kilsəsindən idarə olunur. Halbuki dünyada belə proqramlar var. Kiçik dövlətlərin xalqları üçün belə proqramlar işləyiblər ki, onların bütün dəyərlərini məhv etsinlər. Hansısa bir cəmiyyətin immunitetini məhv etmək, onu kölə vəziyyətinə gətirmək üçün həmin cəmiyyətin dəyərlərini zərbə altına alırlar. Hər bir xalq öz tarixi dəyərlərinin üstündə möhkəmdir. Bayaq Şah İsmayıl Xətainin adını təsadüfən çəkmədim. O nəinki Azərbaycanın, bütün türkdilli xalqların ən böyük imperatorlarından biridir. Belə şəxsiyyətlərimizi gözdən salanda, cəmiyyət olaraq bizi də ruhdan salırlar. Tarixdən güc ala bilmirik.

***- Əvəz müəllim, şair olmaq üçün şeir yazmaq qabiliyyəti kifayət edirmi? Yoxsa şairin şəxsiyyətinə də müəyyən tələblər var?***

- Şairin ən birinci missiyası haqqa xidmət etməkdir. Bizim klassik şairlərimizin hamısı ən sonda şair idilər, bundan əvvəl böyük ictimai xadim, filosof, alimlər, irfan sahibləri, haqq yolçuları idilər. Şairlik isə onlara verilmiş qabiliyyət idi ki, bu yolla haqqı təbliğ etsinlər. İndi şairlik elə bir vəziyyətə gəlib çıxıb ki, şair deyəndə göz önünə kimlər gəlirE Ad çəkmək istəmirəm. Bizim klassik ənənələri davam etdirən sonuncu şairlərimiz Sabir və Hüseyn Cavid idi ki, onlarla birgə həmin mərhələ də getdi. Ardınca yeni bir mərhələ- Sovet ədəbiyyatı, sifarişli ədəbiyyat gəldi. Onların içində əlbəttə, istedadlı adamlar çox idi.

Müstəqilliyimizi qazandıqdan sonra bir ideoloji və mənəvi boşluq yarandı. İctimai-siyasi formasiya dəyişəndə novatorluq etmək istəyənlər həmişə köhnələri inkaretmə yolunu tuturlar ki, bununla fərqlənə bilsinlər. Bu inkarçılığın müqabilində isə ortaya nə isə qoymalısan. Ancaq qoya bilmirlər. Çünki istedad kifayət eləmir. Həm də bir düşüncə sistemindən digərinə keçən dövrdə fikirlər çox qarışıq olur. Yazarların xəbəri olmur ki, dünyada nələr baş verir. İlk dəfə bizə təklif olunanları şablon götürüb özümüzə bayraq edirik. Ancaq zaman keçdikcə görürsən ki, heç də düzgün yanaşma deyilmiş. Aydın olur ki, Avropanın, bizə yad olan cəmiyyətlərin düşüncələri ilə bizimki uzlaşmır və ona birbaşa inteqrasiya etmək olmur. Şair öz xalqının, öz dövrünün sözünü deməlidir.

Qələm sahiblərinin missiyası odur ki, öz xalqının sözünü desin. Çünki xalq öz enerjisindən onları ortaya çıxarıb. Qələm əhli təkəbbürlü ola bilməz, çünki heç biri özündən dil icad etməyib. Hər biri bu xalqın yaratdığı dil vasitəsilə yazıb-yaradır. Əsl şair öz xalqının dilinə gəlib çatmış şairdir, nəinki xalqını bəyənməyən. Guya bəziləri başqa planetdən gəlib və ali dəyərlər sivilizasiyasında yaşamağa layiq imişlər, təsadüfən gəlib doğulduğu cəmiyyətdə yaşayırlar.

***- Hazırda kimləri oxuyursunuz?***

- Qarşıma konkret məqsəd qoymamışam ki, bu gün kimlərisə oxuyacam. Sosial şəbəkələrdə qarşıma çıxanları izləyirəm. Ədəbi orqanlardan "Ulduz" jurnalını oxuyuram. Əvvəl "Ədəbiyyat" qəzetini oxuyurdum, artıq oxumuram. Ən çox internetdən, kulis.az saytından oxuyuram. İstedadlı gənclər var. Mən "Xalqın şairi" layihəsində də bu gənclərdən bir neçəsi ilə tanış oldum. Gənclərimizin əsas problemi odur ki, tənqidçilər bəzən onları həddindən artıq tərifləyirlər. Bu onlara stimul versə də, həm də bir arxayınlıq yaradır. Gənclər artıq özlərini dahi hesab edirlər, gözləri tutulur sanki. O baxımdan tərifi də bu səviyyəyə gətirmək olmaz. Təkcə istedad kifayət etmir, şair bir şəxsiyyət kimi də yetişməlidir.

Oxumağa gəlincə, indi daha çox istənilən mövzuda elmi əsərlərə üstünlük verirəm. Dünya ədəbiyyatından isə çox oxumuşam, kimin adını çəksəniz yaradıcılığı ilə tanışam.

***- "Xalqın şairi" layihəsinə də toxundunuz. Bu layihə niyə davam etmədi və qalmaqallarla yadda qaldı?***

- Əslində layihə yekunlaşmayıb, final mərhələsi qalır. Gözlənilirdi ki, Novruz bayramı ərəfəsində final olsun. Bu da layihə rəhbəri ilə deyil, televiziya ilə və ya sponsorlarla bağlı olan məsələdir. Səbəbini dəqiq bilmirəm. Mən yarımfinalda münsif idim, ondan öncə Sabir obrazını yaradırdım. Finalda da münsif olmalıydım, o mərhələ qalır.

Qalmaqallara gəlincə, veriliş ilk dəfə yayımlananda Elza Seyidcahanın münsiflərdən biri olması ilə qalmaqal başladı. Onun imici ciddi bir ədəbiyyat layihəsinə uyğun gəlmirdi. Söz adamları bu barədə iradlarını bildirdilər.

***- Elza Seyidcahanla ədəbi mövzuda söhbətləriniz oldumu? Onun ədəbi biliklərini, şeiriyyət haqqında anlayışını necə qiymətləndirirdiniz?***

- Mən Elza xanımla ilk dəfə orada ünsiyyətdə oldum. Söhbət zamanı gördüm ki, o, ədəbiyyatdan kifayət qədər məlumatlıdır. Dünya ədəbiyyatından kimin adını çəkirsənsə, hansı əsərini deyirsənsə bilir, mütaliəli adamdır. Sözə də həssas idi. Elzanın yazdıqları isə şeir deyil, o şeiri parodiya edir. Əslində bəzi şeirlərində aktual problemlərə toxunur. Devalvasiya olanda şairlər cürət etmədilər ondan yazmağa, ancaq Elza dollardan yazdı. O bununla həm də şairləri parodiya edir ki, sizin demədiyinizi mən deyirəm. Elza əslində ekrandan göründüyü kimi deyil, mütaliəli insandır. Onu dəvət edib ədəbiyyat söhbətləri etsəniz, çox razı qalarsınız. O, şeiri duya bilir, ancaq ümumiyyətlə şeir yaza bilmir.

❑ **Nərgiz LİFTİYEVA**
**Fotolar: Məğrur MƏRD**

YENİ MÜSAVAT
N 62 (6951) 19 mart 2018



# Novruz bayramında hansı geyimlərə üstünlük verməli?

## Modelyerdən bəzi məsləhətlər

**Tarixi qədimdən Novruz təbiətin canlanmasının, torpağın oyanmasının, ruhun təzələnməsinin simvolu hesab olunub. Novruz təzə ili, baharın ilk gününü qarşılamaq, gecə ilə gündüzün bərabərləşməsi deməkdir. Xalqımız yeni gün olan Novruza böyük önəm verir. Bu baxımdan bayram ərəfəsində və bayram günlərində istifadə etdiyimiz geyimlər də önəmlidir.**

Azərbaycan Milli Geyim Mərkəzinin rəhbəri, sənətşünaslıq və fəlsəfə doktoru, tanınmış modelyer-dizayner Gülnarə Xəlilova Modern.az saytına açıqlamasında deyib ki, Novruz bizim milli bayramımız olduğu üçün bəylərin və xanımların daha çox milli geyimlərə, milli aksesuarlara üstünlük verməsi gözəl olardı: "Bu günlərdə çalışmalıyıq ki, ümumi bayram əhval-ruhiyyəsinə uyğun davranaq. Çünki Azərbaycanın qədim adət-ənələrini həm mətbəximizdə, həm geyimlərimizdə, şənliklərimizdə, həm də musiqilərdə əks etdirməliyik. Hər bir sahənin nümayəndəsi öz işində bunları tətbiq etməlidir. Milli geyimlərimiz, əlvan libaslar, arxalıqlar, çuxalar, araxçınlar, müəyyən adətlər, keçmişdən günümüzə qədər gəlib, çatan qaydalar Novruz bayramı ərəfəsində yenidən xatırlanır. Normalda klassik geyim və ya idman üslubunda olan geyimlər istifadə edirik. Yəni hər gün müraciət etdiyimiz geyim nümunələri var. Lakin bayram ərəfəsində daha fərqli olmağa üstünlük verməliyik. Mənim hər zaman dediyim bir söz var: Hər bir azərbaycanlının qarderobunda mütləq milli geyim olmalıdır və bu çox önəmlidir. Milli ornamentdə olan bəzək əşyaları, kələğayı - fərqi yoxdur. Bax, Azərbaycan xanımlarını və bəylərini bayram günlərində bu ruhda görmək istəyərdim".

Modelyer qeyd edib ki, milli geyimlərdə müəyyən nüanslara diqqət etmək lazımdır: "Bilirsiniz, Azərbaycan Milli Geyim gününün keçirilməsi ilə bağlı uzun müddətdən bəri irəli sürdüyüm təşəbbüs var. Bu istəyə hamılıqla qatılsaq, nə gözəl olar. Ümid edirəm, tez bir zamanda hansısa bir gün "Milli geyim günü" kimi təyin olunacaq. Bu gün milli geyimləri hazırlayan insanlar böyük xətalar edirlər, həmin geyimlərdə qara rəngə üstünlük verirlər. Ümumiyyətlə, milli geyimlərimizdən qara rəngdən ancaq bəylərimiz istifadə edə bilərlər. Amma xanımlarda ancaq yaşlı təbəqənin insanlarında geyimlərdə istifadə olunur. Yaxud elə göy və ya bir çox rənglərin tünd tonlarına müraciət edilir. Qara rəng matəm anlayışını ifadə edir. Bu baxımdan qara rəngli milli geyimi bayram günü istifadə etmək düzgün deyil. Əlbəttə, bəzi insanlar bu cür tonlara üstünlük verir. Amma bunu etmək lazım deyil, yanlışdır. Fərqli çeşiddə, müasirlik elementlərinin olduğu milli geyimlərimiz də var. Milli geyimlərimizdə hər zaman qırmızı, çəhrayı, yaşıl kimi ürəkaçan rənglər olub".




# Novruz günlərində düzgün necə qidalanmalı?

## Dietoloqdan bayram tövsiyələri...

**Sabah - martın 20-də ölkəmizdə ilaxır çərşənbədir. Eyni gündə də Novruz bayramı qeyd olunacaq. Hər zaman olduğu kimi, bayram süfrələrində şəkərbura, paxlava, qoğal, o cümlədən müxtəlif cür bol kalorili şirniyyatlar, plov, ət qovurması və sairə yeməklər düzüləcək. Beləliklə, birdən-birə orqanizmimizi yükləyəcəyik. Bu da artıq çəkiyə, bəzən də müəyyən fəsadlara gətirib çıxarır.**

Bəs bayramda necə qidalanmalı, kimlər xüsusilə bu günlərdə daha diqqətli olmalıdırlar?

Mövzu ilə bağlı dietoloq Leyla Zülfüqarlı "Yeni Müsavat"a öncə bunları dedi: "Novruz bizim milli bayramımız, adət-ənənəmiz, dəyərimizdir. Mən bu bayramı daha çox şirniyyat bayramı kimi xarakterizə edirəm. Çünki qısa müddət kəsiyində orqanizmində çox böyük şəkər yüklənməsi baş verir. Qeyd edim ki, bu, həm kiçik, həm də böyük insanların orqanizminə aiddir. Təsəvvür edin, bir şəkərburanın kalorisi 600-650 civarındadır. Adicə şorqoğalının tərkibində şəkər olmasa da, kalorisi var, çünki xüsusi qat-qat xəmirdən və yağlardan hazırlanır. Paxlavaların isə bəzən kalorisi 800-ə qədər ola bilir.

Doğrudur, bu şirniyyatlar çox kiçik həcmlidir və insanlar onlardan çay içmək üçün istifadə edir. Amma hər birində qeyd etdiyimiz kimi bu qədər kalori olan qidalar orqanizm üçün böyük təzyiq, yüklənmədir. Bunun üçün də hər zaman tövsiyə etmişəm ki, qəbul edilən qidaların ölçüsünə diqqət edilməlidir. Bu məsələyə xüsusən də bayram günlərində diqqət etmək lazımdır. İnsanlar bəzən düşünür ki, bayram günlərində 1-2 kq artıq çəki alsalar da, sonradan əvvəlki çəkilərini bərpa edə biləcəklər. Lakin bu problem deyil, artıq çəkidən hansısa şəkildə azad olmaq olur. Lakin yüksək kalori şəkərin birdən-birə orqanizmə daxil olması aruzolunan hal deyil. Beləliklə bayram ərəfəsində orqanizmimizə daha çox proteinlər deyil, karbohidratlar daxil edirik".

Dietoloq mövzu ilə bağlı öz tövsiyələrini də bildirdi: "Əgər bir gün ərzində bayram süfrəmizi hazırlayırıqsa, süfrənin üzərindəkilərə diqqət edəcəyik. Ən kalorili yeməkləri eyni gündə orqanizmimizə daxil etməyək. Məsələn, eyni zamanda həm plov, həm də şirniyyatları qəbul etmək olmaz. Onların hamısını eyni gündə dadmayaq. Unutmayaq ki, bayram bir gün deyil, 7 günə qədər uzadılıb. Deməki, qarşıda bir neçə günümüz olacaq. Əgər bir gündə şəkərbura qəbul etdiksə, digər gün paxlavaya vaxt ayıra bilərik. Eyni gündə həm şəkərbura, həm paxlava qəbul etmək yüklənmə yaradır. Əgər həmin gün yeməyimizə plov daxil etmişiksə, o zaman şirniyyatlardan istifadə edilməsin. Şirniyyatlardan istifadə edəcəyimiz gün yalnız ət qidalarını qəbul etməliyik. Məsələn, kababladan, yağ əlavə edilmədən bişirilən ətlərdən qəbul edə bilərik. Günün sonunda isə bütün ağır yeməkləri neytrallaşdırma gücünə malik olan qatıqdan istifadə tövsiyə edilir. Qatığın içinə bir çimdik zəncəfil əlavə edib istifadə etmək olar. İnsanlar bu tövsiyələrə riayət etsə, şəkər yüklənməsindən azad ola bilər".

❑ **Xalidə GƏRAY,**
**"Yeni Müsavat"**

# Azərbaycanda insan alveri ilə məşğul olan qadın axtarışa verildi



**Daxili İşlər Nazirliyinin İnsan Alverinə qarşı Mübarizə İdarəsi insan alveri ilə məşğul olan daha bir nəfəri axtarışa verib. Musavat.com quruma istinadən xəbər verir ki, Bakı şəhər sakini, 1970-ci il təvəllüdlü Quliyeva Gülbəniz Fəxrəddin qızı barəsində axtarış elan edilib.**

G.Quliyevanın saxlanılaraq istintaqa təhvil verilməsi istiqamətində iş aparılır.


# "Nar" ölkə ərazisində satış şəbəkəsini gücləndirir

nar
Gəlin birlikdə böyüyək

**"Nar" ölkə üzrə bütün satış təmsilçiləri ilə ilin nəticələrinə həsr olunmuş görüş keçirib. Görüşün əsas məqsədi ötən ildə əldə edilmiş nailiyyətlərin müzakirəsi və 2018-ci ildə "Nar"ın satış strategiyasının əsas istiqamətlərinin müəyyən edilməsi idi. Görüş zamanı ötən il bütün ölkə boyunca satış nöqtələrinin sayının artaraq 1647-yə çatdırıldığı qeyd olundu.**

**Bölgələrdə yaşayan "Nar" abunəçilərinə xüsusi diqqətin ayrılması və onlara yüksəkkeyfiyyətli xidmətlərin göstərilməsi satış strategiyasının əsas istiqamətlərindən biri oldu. Paytaxt Bakı ilə yanaşı, bölgələrə də önəm verən "Nar" ötən il ərzində regionlarda satışın təşviqi məqsədilə təşkil olunmuş 50-dən çox tədbir keçirib. Nəticədə, "Nar"-ın bölgələr üçün xüsusi hazırladığı "Yerlim" tarifinə yalnız 2017-ci ildə 256 min nəfər qoşulub.**

**Satış təmsilçiləri ilə görüş zamanı öz fikirlərini bölüşən "Azerfon" MMC-nin baş icraçı direktoru Qunnar Panke yüksəkkeyfiyyətli xidmətin və effektiv satış strategiyasının şirkət üçün vacibliyini qeyd etdi: "Nar" abunəçilərinin istək və tələblərini hər zaman rəhbər tutaraq Azərbaycan mobil rabitə bazarında keyfiyyətli məhsulları sərfəli qiymətə təklif edir. Şəbəkəmizə sərmayə yatıraraq abunəçilərimizi yüksəkkeyfiyyətli xidmətlə təmin edirik və bu da, öz növbəsində, "Nar"-a yeni müştərilər cəlb edir. Biz ən yaxşı müştəri təcrübəsini təmin etmək məqsədilə sadə və çevik həllər vasitəsilə satış kanallarımızı daha da gücləndiririk".**

**Yerli rabitə bazarında irəli sürülən yeni məhsullar, genişləndirilmiş şəbəkə və sərfəli qiymətlər nəticəsində artan müştəri tələbatını qarşılamaq üçün "Nar" satış kanallarının daha çox müştəriyə daha asan xidmət göstərməsini təmin edir.**

**"Nar"ın bütün məhsul və xidmətləri haqqında nar.az saytından ətraflı məlumat əldə etmək olar.**

**"Azerfon" MMC ("Nar" ticarət nişanı) 21 mart 2007-ci ildə fəaliyyətə başlayaraq qısa bir müddətdə Azərbaycanda telekommunikasiya və mobil rabitə sahəsinin aparıcı şirkətlərindən birinə çevrilmişdir. "Nar" ticarət nişanı Azərbaycanın zəngin mədəni və tarixi irsinin çağdaş həyatla bağlılığının rəmzi olaraq seçilmişdir. "Nar" ölkədə ilk dəfə olaraq 3G texnologiyasını təqdim etmiş və geniş 4G şəbəkəsini abunəçilərinin istifadəsinə vermişdir. Mobil operator şəbəkə keyfiyyətinin davamlı təkmilləşdirilməsi strategiyası çərçivəsində səs keyfiyyətinin nəzərəçarpacaq dərəcədə artımını və səsin təmiz ötürülməsini təmin edən "HD-Voice" (High Definition Voice) xidmətini təqdim etmişdir. "Nar" şəbəkəsi hazırda ölkə ərazisinin 93%-ni əhatə edir və 6500-dən artıq baza stansiyası ilə 2 milyondan çox abunəçiyə yüksəkkeyfiyyətli xidmət göstərir.**

YENİ MÜSAVAT
N 62 (6951) 19 mart 2018

# Çay nədir, say nədir?..

## Azərbaycanlıların ən sevimli içkisi barədə bilmədiklərimiz

**Biz azərbaycanlılar üçün ən vazkeçilməz içki çay sayılır. Elə buna görə də çayla bağlı bir-birindən fərqli adət və məsəllərimiz var. Çay nədir, say nədir? Qonaqdan "çay içirsənmi" deyə soruşmazlarE Hətta və hətta evlilik öncəsi, elçilik mərasimində belə razılıq xəbərini şirin çayla bildirirlər.**

"Yeni Müsavat" bu yazısında süfrəmizin və gündəlik həyatımızın baş tacı olan çayla bağlı bilinməyənləri nəzərə çatdırır.

**Çay içmədən öncə bu məlumatları oxuyun**

**1.**Təxminən 3000 növ çay olduğunu bilirdiniz?

Çayların qoxusu, istifadə edilən toxumun növü ilə yanaşı,harada yetişdiyi də fərqlilik göstərir.

**2.** Nanə çayı əslində bir çay növü deyil. Dəmləmədir.

Bütün çayların Camellia sinensis bitkisindən əldə edilməsi lazım gəlir. Amma bir çox firma stəkana tökülən hər isti içkiyə çay deməyə öyrəşib.

**3.** Çayın kofedən daha çox kofeinə malik olduğunu bilirdinizmi? Amma tam da düşündüyünüz kimi deyil.

Bəli, çay kofedən daha çox kofeinə malikdir. Amma bir stəkan çay hazırlamaq üçün istifadə etdiyiniz çay miqdarı bir stəkan kofedəki kofenin faizindən olduqca azdır. Dolayısı ilə bir stəkan çay içdiyiniz zaman kofe ilə müqayisədə daha az kofein almış olursunuz. Məsələn: Bir stəkan çaydakı kofein miqdarı - 40-70 mq, bir stəkan kofedəki isə: 100-200 mq-dir.

**4.** Stəkandakı çaya südün əlavə edilməsinin onun dadı ilə bir əlaqəsi yoxdur. Bu vərdiş sizin sosial sinfinizi təmsil edir.

Çin istehsalı olan stəkanlara isti su töküləndə çatlamalara səbəb olduğu üçün stəkana öncədən soyuq su tökülərək, çatlamasının qarşısı alınırdı. Daha yaxşı stəkanlar hazırlanmağa başladıqdan sonra, son olaraq stəkana süd tökmək varlılığın bir əlaməti kimi özünü göstərməyə başlayıb.

**5.** Çay 18-ci əsrdə çox dəyərli bir məhsul olub. Bu səbəbdən də o, bağlı qutularda saxlanırdı. Bu bəzəkli qutular əsasən bir neçə fərqli çay tipi və ya qənd kimi məhsulları daşımaq üçün də istifadə edilirdi.

**6.** Çay bahalı olduğu üçün bir neçə dəfə içinə arzuolunmaz qatqı maddələri də əlavə edilib. Həmin illərdə qeyri-qanuni yollarla daha çox çay idxal edilməyə başlanmışdı. Qaçaqçılar da daha çox fayda əldə etmək üçün çayların içinə fərqli bitki yarpaqları və müxtəlif maddələr əlavə etməyə başlamışdılar.

**7.** Bu qatqı maddələrinin arasında qoyun gübrəsi də var. 1770-ci ildə London yaxınlığındakı bir kəndin çay taciri üçün ildə 20 tondan artıq qatqılı çay istehsal etdiyi bildirilib. Hətta çay reseptlərində rəngin alınması üçün qoyun gübrəsi ilə suda qaynadılmış kül yarpaqlarından da istifadə edilirdi.

**8.** Qaynar suda çay hazırlamamalısınız. Çünki çay yarpaqlarını yandıra bilərsiniz.

**9.** Paket çay nə zaman icad edildi, sizcə? Hələ 1900-cü illərdə paket çaylardan istifadə etməyə başlamışdılar. 1901-ci ildə ilk paket çaydan istifadə edilməyə başlandı. 1908-ci ildə Thomas Sullivan adında bir amerikalı iş adamı paketləri emal etməyə başladı.

**10.** O məşhur "Earl Grey" çayı öz adını həqiqətən də Earl Grey-dən götürüb. 1764-cü ildə Earl Greyə berqamot ətirli bir çay hədiyyə edilib. Grey bunu o qədər çox sevib ki, özü də istehsal etməyə başlayıb.

**11.** Qara çay dəmir əskikliyinə səbəb ola bilər. Qara çay qəbul etdiyimiz qidalarda dəmiri həzm etməyimizi əngəllədiyi üçün xüsusən də hamilə qadınların içməsi böyük risk daşıyır.

**12.** Güclü dağ günəşi və aşağı gecə istilikləri çayların yarpaqlarının yavaş bir şəkildə böyüməsini təmin edir. Bu da çayın özünəməxsus bir qoxusu ilə dünyanın ən bahalı çayı olmasını təmin edir.

**13.** Çay əslində bir sidik qovucudur. Çay içəndən sonra daim ayaqyoluna gedilməsinin əsas səbəbi budur.

**14.** London çay auksionu 300 ildir davam edir. Hətta 1950-ci illərdə dünyadakı çayın üçdə biri bu auksionda satılıb. Auksionda təklif vermə müddətinin limitsiz olmasına mane olmaq üçün şamlardan istifadə edilirdi. Satışın əvvəlində bir şam yandırılır və müəyyən bir yerə qədər əridikdən sonra bir çəkic aşağı düşər və təklif sonlanırdı.

**15.** Mükəmməl bir çay içmək üçün ingilislərin standartı olduqca yüksəkdir:

- Xüsusən farfordan hazırlanmış bir fincana ehtiyacınız var

- Hər 100 ml su üçün ən azı 2 qram çaydan istifadə etmək lazımdır.

- Hazırlandığı zaman istilik 85 dərəcədən artıq olmamalıdır.

- Optimum ləzzət və duyum üçün istilik 60 dərəcədən artıq olmalıdır.

**Gün ərzində neçə stəkan çay içirsiz?**

Çayın tərkibində flavonoid deyilən maddə var. Bu maddə xolesterolun səbəb olduğu damar pozğunluğunun qarşısını almağa kömək edir. Eyni zamanda flavonoid qreyfrut, soğan, qırmızı şərab və qara üzümdə də var. Antioksidan xüsusiyyətinə malik qara çay diş çürüməsinin qarşısını alır. Əgər 10 ildən artıqdır çay içirsənsə, mütəxəssislərə görə, bunun sümüklərin sağlamlığına yaxşı təsiri var. Sümük əriməsinin qarşısını almaq üçün mübarizəni gücləndirir. Sakitləşdirici təsirə malik olub, gərginliyi, stressi azaltmağa dəstək olur. Gündə 3 fincan çay içən insan infeksiyalarla mübarizədə üstün gəlir.

Çayın profilaktik effektini hiss etmək üçün gündə 5-6 fincandan artıq içmək lazımdır. Dəm tünd olmamalı, qaynar deyil, isti içilməlidir. Müalicəvi təsiri üçün çayı yeməkdən 20-30 dəqiqə ya əvvəl, ya da sonra içmək lazımdır. Çay əzələlərin gərginliyini azaldır, ürək döyüntülərini qaydaya salaraq, infarkt və başqa bəlalardan qoruyur, beyinə qansızmanın qarşısını ala bilir. Miqren tutulmalarını götürür, beyin damarlarının fəaliyyətini gücləndirir. Yaddaş və diqqətlə bağlı bir çox psixi proseslərə müsbət təsir göstərir. Stress və depressiyanı aradan qaldırır.

Çayın özəllikləri bununla bitmir. Ən əsası, bu faydalı içkinin ailəni bir yerə yığmağa və Çin filosoflarından birinin dediyi kimi, "əziz dostu qarşılamağa" layiq olduğunu nəzərə alsaq, çayın mehribanlıq yaratmaq xüsusiyyətini ən böyük dəyər kimi qeyd etməliyik.

Əsrlərdir ki, çayın şəfaverici cövhəri insanları bir sıra illətlərdən qoruyur.

Qədim misirlilər çayı qrip, soyuqdəyməyə qarşı vasitə kimi içir, çayın antibakterial xüsusiyyətlərindən istifadə edərək vəba kimi həzm yolunun infeksion xəstəliklərinə qarşı müalicəvi vasitəsi kimi istifadə edirdilər.

Çinlilər uzun zamandan bəri bu içkini həzm sisteminin yaxşılaşması, əqli və fiziki fəaliyyətin aktivləşdirilməsi üçün istifadə edirlər.

Ekspertlər iddia edirlər ki, əgər çay içməyən insanlar gün ərzində yalnız bir fincan qara, yaxud yaşıl çay içsəydilər, bu, onların sağlamlığının ümumi səviyyəsinə müsbət təsir göstərərdi və eyni zamanda bir çox xəstəlikdən müdafiə edərdi. Əgər siz nə qara, nə də yaşıl çayı sevmirsinizsə, jasmin aromalı yaşıl çay içməyiniz daha məsləhətlidir.

Susuzluğu yatırmaq və sağlamlıq üçün faydasından əlavə çay qədimdən gözəlliyin qorunması üçün də istifadə edilib. Yaşıl çay antioksidləşdiricilərin mənbəyidir. Məhz buna görə yaşıl çay günəş əleyhinə olan kremlərin, sellülit, yaşlanma əleyhinə olan vasitələrin, üz üçün xüsusi tonlaşdırıcıların və şampunların tərkibində istifadə edilir. Yaponiyalılar yüzilliklər boyu müxtəlif sortlu çay dəmləyərək dərinin müxtəlif hissələrinə və saçlara qulluq məqsədilə istifadə edirdilər.

Gün ərzində çox çay qəbul etmək əsəb pozğunluğu, qəbzlik, yüksək təzyiq, əl əsməsi, baş ağrısı və yuxusuzluq kimi hallara səbəb ola, revmatizmdən əziyyət çəkənlərə ziyan vura bilər. Həddindən artıq şəkərli çay içmək isə ürək damar, köklük kimi xəstəliklərə yol açır. Şirin çaydan əl çəkə bilmirsinizsə, dadlandırıcılardan istifadə edə bilərsiniz. Ümumiyyətlə, isə gün ərzində 4 fincandan artıq və tünd çay içməkdən çəkinin. Əlavə hər bir fincan çayı isə bir stəkan su ilə əvəz edin.

Kiçik qaydalara riayət etsəniz, çayın faydaları arta bilər.

Məsələn: çay xərçəng riskini azaldır. Xüsusilə ağciyər, bağırsaq və dəri xərçəngini. Ağır və yağlı yeməklərdən bir saat sonra içilən çay həzmi asanlaşdırır. Çaya rəng verən birləşmələr damar çəpərlərini gücləndirir. Başda beyin qanaması olmaqla hər cür qanama riskini azaldır. Qan dövranını yaxşılaşdırır. Diş minasını qüvvətləndirir. Diş əti xəstəliklərinə qarşı müqavimət yaradır. Bədəndəki zərərli maddələri yox edir. Böyrəklərin daha yaxşı işləməsini təmin edir.








**Ziyanlarını bilmədən çay stəkanına yaxın durmayın**

Çayın faydalarını yazdıq, amma onun orqanizmə vurduğu ziyanlar da az deyil. Tibb mənbələrindən əldə etdiyimiz məlumata görə, bu ziyanlar aşağıdakılardır:

hər şeyin artığı ziyan olduğu kimi çayın da artığı ziyandır. Damarların sərtləşməsinə gətirib çıxarır. Mədədə turşuluğu artırdığına görə qastritə yol açır. Yeyilən yeməklərdə dəmirin tez sovrulmasına gətirib çıxarır. Əl titrəməsindən yüksək təzyiqə qədər mənfi təsirləri var. Çayla bərabər qəbul edilən şəkərin də miqdarına diqqət etmək lazımdır.

**1.** Yüksək hərarət zamanı isti tünd çay ziyanlıdır və hərarətin daha da artmasına səbəb ola bilər.

**2.** Çox isti, qaynar çay içmək olmaz. Belə çay boğaz, qida borusu və mədə xərçənginə səbəb ola bilər. Mütəxəssislərdən tövsiyə - çay dodaqlarınızı yandırmırsa, içə bilərsiniz. Əks halda soyumasını gözləyin.

**3.** Yatmazdan bilavasitə əvvəl çay içməyin. Çayın tərkibindəki kofein sinir sistemini oyadır və bu da yuxuya getməyə mane olur. Digər tərəfdən çay sidikqovucu təsirə malikdir ki, bu da gecə rahat yatmağa əngəl ola bilər.

**4.** Qida qəbulundan dərhal sonra çay içməyin. Bu zülalların və dəmirin mənimsənilməsini pisləşdirir.

**5.** Spirtli içkilərdən sonra çay içmək olmaz. Bu böyrəklər üçün çox ziyanlıdır.

**6.** Axşamdan qalan çayı içməyin. Belə çayda artıq faydalı maddələr qalmayıb, mikrobların sayı isə əksinə çoxalıb.

**7.** Dərmanın üstündən çay içməyin. Bu dərmanların mənimsənilməsinə mane olur.

❑ **Sevinc TELMANQIZI**
**"Yeni Müsavat"**

# YENİ MÜSAVAT

## Son səhifə

*N 62 (6951) 19 mart 2018*




# Arvadından ərinə çox qəribə sürpriz

Amerikada bir qadın həyat yoldaşına hamilə olduğunu qəribə bir şəkildə demək istəyib. O, bu anı ölümsüzləşdirmək və yaddaqalan etmək üçün sürpriz hazırlayıb. Qadın həyat yoldaşına hamilə olduğunu rəsmlərlə bildirmək istəyib. Əvvəlcə ərinə pulsuz fotosessiya çəkilişi qazandığını və fotosessiyanı parkda etdirmək istəyini bildirib. Bir-birinə söykənərək, xoş sözlər yazılmasını istəyən qadın hamilə olduğunu yazıb. Oğlan həyat yoldaşının yazdığı sözləri oxuyanda sevincindən göz yaşlarına boğulub. Qadın şəkilləri sosial şəbəkədə paylaşaraq, "Onun reaksiyasını görmək üçün belə sürpriz etdim. Ona körpə gözlədiyimizi deyəndə sevincinin həddi-hüdudu yox idi". Şəkilləri 250.000 izləyici bəyənib.




## Valideynləri ilə dalaşdı, anasının maşınını oğurlayıb qaçdı

Amerikanın Nyu-Oqasta şəhərində anasının maşınını oğurlayıb 120 kilometr gedən 12 yaşlı oğlanı yaxalayıblar. Alabama ştatındakı Mobil bölgəsində yaşayan oğlan valideynləri ilə mübahisə etdikdən sonra maşının açarını götürüb və gedib. O, ştatı keçib, qonşu ştata çatıb və Nyu-Oqastadakı yanacaqdoldurma məntəqəsində benzin doldurmaq üçün maşınını saxlayıb. Polis əməkdaşları isə təəccüblənibler ki, oğlan evlərindən bu qədər uzaqlaşsa da, maşını vurmayıb.

Hüquq-mühafizə orqanları işçiləri ümid edirlər ki, valideynləri uşağı bu hərəkətinə görə cəzalandıracaq. Amma buna görə uşaq və valideynlərinin qanun qarşısında hansısa formada cəzalanacağı məlum deyil.

2017-ci ildə, Avstraliyada polis bütün kontinenti maşınla keçmək istəyən 12 yaşlı uşağı həbs etmişdi. O, təxminən 1,3 min kilometr məsafə qət etmişdi.

# Dünyanın ən əsəbi qadınları bu ölkədə yaşayır



Qadınların təbiət etibarilə kişilərdən daha əsəbi olduğu bir çox elmi araşdırmalarda üzə çıxıb. Amma ən çox əsəbi qadınların harada, hansı ölkədə yaşaması da başqa bir araşdırmanın mövzusudur.

Hindistanda qadınların düz 87%-i həyatının böyük hissəsini stresslə keçirir. Alimlər bildirir ki, bütün inkişaf etməkdə olan ölkələr kimi, Hindistanda da qadınlar gərgin iş qrafikində işləməklə yanaşı, karyerasının qurulmasında ailə ənənələrinə də əməl etməlidir. Bu, onlarda böyük gərginliyə səbəb olur.

Tədqiqat zamanı dünyanın 21 ölkəsində 6500 qadının rəyi öyrənilib. Məlum olub ki, ən çox əsəbi qadının olduğu ikinci ölkə Meksika (74%), üçüncüsü isə Rusiyadır (69%).

Sonrakı yerlər belədir:

4. Braziliya (67%)
5. İspaniya (66%)
6. Fransa (65%)
7. CAR (64%) və İtaliya (64%)
8. Nigeriya (58%)
9. Türkiyə (56%)
10. Böyük Britaniya (55%)
11. ABŞ (53%)
12. Yaponiya (52%), Kanada (52%) və Avstraliya (52%)
13. Çin (51%)
14. Almaniya (47%)
15. Tailand (45%) və Cənubi Koreya (45%)
16. Malayziya (44%)
17. İsveç (44%).

Tədqiqat göstərib ki, inkişaf etmiş ölkələrdə qadınlar pullarını əsasən yeməyə, təhsilə, paltar və kosmetikaya xərcləyirsə, inkişaf etməkdə olan ölkələrdə onlar müxtəlif səfərlərə, vergilərin ödənməsinə, "arxaya pul atmağa" daha çox vəsait ayırır.



## Bu rəngi sevənlərin qəribə xüsusiyyətləri var

Rənglərin psixologiyası barədə aparılan araşdırmalar ilginc həqiqəti üzə çıxarıb. Onlardan biri də qırmızı rənglə bağlıdır. Qırmızı sevginin və arzunun rəngidir. Sevinci təmsil edir və insanların iştahını qaldırır. Ən diqqət çəkən rəng olduğu üçün insanların üzərində canlı və həyəcanverici təsir bağışlayır. Təzyiqi yüksəldir və qan dövranını yüksəldir. Nə qədər parlaq olsa da, heç bir rəng qırmızı qədər diqqət çəkə bilməz. Bu rəngi sevənlər, özünə inamlı, çılğın, bəzən isə nəzarətsiz hərəkərləri ilə diqqətçəkirlər. Sevgiyə və məhəbbətə ehtirasla bağlanırlar. Lakin yeni bir sevgiyə hər zaman hazır vəziyyətdə olurlar.




**QOÇ** - Kifayət qədər mübahisəli gündür. İfadə etdiyiniz hər bir sözə ciddi yanaşın. Əks təqdirdə münaqişəli situasiyalara cəlb olunacaqsınız. Falçı və cadugərlərdən uzaq olun.

**BUĞA** - Təxminən saat 14-ə qədər ümumi əhvalınız süst olduğundan bütün ciddi işlərinizi təxirə salın. Sonrakı müddətdə isə maliyyə uğurlarınız gözlənilir. Uzaq yola çıxmayın.

**ƏKİZLƏR** - İxtiyarınızda olan bu təqvimdə işgüzarlığınız kifayət qədər artacaq. Bu səbəbdən də şəxsi büdcənizi qorumalı, fəaliyyət istiqamətlərini dəqiqləşdirməlisiniz. Yeni təkliflərə razı olmayın.

**XƏRÇƏNG** - Maraqlı görüşlər yolunuzu gözləyir. Bu kimi sövdələşmə və müzakirələrdə iştirakınız yaxın gələcəyin planlarını həyata keçirməyə kömək edəcək. Şübhəli adamlardan uzaq olun.

**ŞİR** - Passiv gündür. Hansısa qeyri-adi hadisəni gözləməyə dəyməz. Yaxşı olar ki, üzərinizə düşən adi işlərin həlli ilə məşğul olasınız. Məxfi görüşləri və səfərləri təxirə salın.

**QIZ** - Qarşılıqlı münasibətlərdə, eləcə də işgüzar sövdələşmələrdə ulduzlar sizə dəstək verəcək. Böyük uğurlarınızın ilkin qığılcımları məhz bu təvimdən etibarən start götürəcək.

**TƏRƏZİ** - İxtiyarınızda olan bu maraqlı gündə savab işlərinizin sayını artırmağa çalışın. Bu, sonrakı proseslərin həllində sizə kömək edəcək. Mövcud problemlərə görə narahat olmağa isə dəyməz.

**ƏQRƏB** - Əksər məsələlərdə gün sizin xeyrinizə işləyəcək. Şəxsi işlərinizdə müsbət rol oynaya biləcək insanlarla da rastlaşacaqsınız. Unutmayın ki, hazırda uğurlarınıza gedən yolun astanasındasınız.

**OXATAN** - Sevgi məsələlərinə mülayim yanaşın. Bu, həm mövcud olan əsəbiliyinizi azaldar, həm də işlərinizin yaxşılaşmasına təkan verə bilər. Qohumluq münasibətlərinə xüsusi fikir verin.

**OĞLAQ** - Hər mənada uğurlu təqvimdir. Öz gücünüzə etibar edin. Çünki Göy qübbəsi sizə elə bir enerji verəcək ki, bütün maneələri dəf edə biləcəksiniz. Axşamsa sürprizlər gözlənilir.

**SUTÖKƏN** - Günün birinci yarısında nəzərdə tutduğunuz perspektivlərin müəyyən hissəsini həll edə biləcəksiniz. Nahardan sonra isə yalnız neytral mövqe tutmalı, riskdən uzaq olmalısınız.

**BALIQLAR** - Elektrik və digər avadanlıqlarla ehtiyatlı davranın ki, xəsarət almayasınız. Digər sahələrdə elə bir çətinliyiniz olmayacaq. Axşam saatlarını ürəyinizə yaxın dostlarla gəzintiyə həsr edin.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

# Sərxoş maşın sürdüyü üçün... morqda işləyəcək

Tailand Krallığında hökumət sərxoş vəziyyətdə avtomobil idarə edən şəxslərə morqda işləmək cəzası verməyi planlaşdırır. Hər gün artan avtomobil qəzaları və spirtli içki qəbul edib sükan arxasına oturan sürücülərə qarşı tədbir görmək istəyən Tailand hökuməti son çarə olaraq bu yola əl atıb. Belə ki, sərxoş olduğu müəyyən edilən sürücülər xəstəxanaların morqunda çalışacaqlar.

Qeyd edək ki, Tailandda hər il su bayramı ərəfəsində minlərlə qəza baş verir və bu qəzaların böyük bir qisminə sərxoş sürücülər səbəb olur. "7 təhükəli gün" olaraq qəbul edilən bayram tətilində hər saatdan bir 2 nəfər ölür və 160 nəfər yaralanır.

**Səhifəni hazırladı: SELCAN**


Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Zahid SƏFƏROĞLU

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Son dəqiqə" MMC-nin mətbəəsində çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 5.100